# DARVİNİZMİN QANLI İDEOLOGİYASI: FAŞİZM

HARUN YƏHYA

# MÜNDƏRİCAT

Ön söz
Giriş

Faşist mədəniyyətin mənşələri

Bütpərəst aləmindəki faşistlər

Bütün faşistlərin tipik modeli: Sparta

Faşizmin din qarşısında geri çəkilməsi

Faşizmin meydana gəlməsi və neo-bütpərəstlik

Darvinizm və bütpərəst "təkamül" xurafatının dirçəlişi

Darvinizmin faşizmə yaratdığı zəmin

Vəhşiliyi tərifləyən xəstə beyin: Fridrix Nitsşe

Yevgenika cinayətlərinin banisi: Frensis Qalton

Nasistlərin irq nəzəriyyəçisi: Ernst Hekkel

Bütpərəstliyin qayıtması: Faşizm

**20-ci əsr faşizminin analizi**

Faşizmin geniş yayıldığı zəmin: ictimai depresiyalar

Faşizmin asan hədəfləri: cahil kütlələr

Faşistlərin hakimiyyəti ələ keçirmə metodları

Faşistlərin beyin yuma metodları

Zidd fikirlərin təzyiqlərlə yox edilməsi

Faşizmin bütləri: müqəddəs hesab edilən liderlər

Faşist romantiklik

Faşizmin saxta müqəddəs dəyərləri

Faşist dövlətin xəyali düşmənləri

Faşistlərin paranoyası

Faşizmin zorakılıq sevgisi

Faşizmin işğalçı siyasəti

Faşist sistemin incəsənətə endirdiyi zərbə

Faşizmin qadın düşmənçiliyi

Qadın düşmənçiliyinin darvinist mənşəyi

Faşizmin cinsi azğınlıqları

**Faşizm, irqçilik və darvinizm**

İrqçilik və darvinizm

Nasizmin irq nəzəriyyəsi

Darvinist nəzəriyyənin cəmiyyətə uyğunlaşdırılması: nasist siyasətlər

nasizmin digər irqlərə qarşı göstərdiyi vəhşilik

**Faşizmin din düşmənçiliyi**

Nasistlərin din düşmənçiliyi

Nasistlərin meydana gətirdiyi "irqçi xristianlıq"

Nasistlərdəki yəhudi düşmənçiliyinin əsl mənası

Faşizmin iki üzlü din siyasəti

Mussolininin iki üzü

Mussolininin kommunist illəri

Mussolininin baniləri: Nitsşe və Darvin

Mussolininin saxta dindarlığı

İspan faşizminin dini istifadə etmə metodları

Faşist əxlaq quran əxlaqına tamamilə ziddir

Nəticə

**Quranda izah edilən faşist bir xarakter: Firon**

**Üçüncü dünya faşistləri**

Latın amerika faşizminin vəhşiliyi

Yaxın Şərqdəki Faşist Diktator: Səddam Hüseyn

**Faşizmin səssiz yüksəlişi**

Neo-nasistlər

Müasir avropada irqçi siyasətlər

"Ağ irqin üstünlüyü" və yeni faşizmin ideologiyası

Gündəlik həyatda faşizm

**Nəticə**

Faşizmin müalicəsi quran əxlaqıdır

**Təkamül yanılması**

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları

aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# ÖN SÖZ

Faşizm 20-ci əsrdə meydana gəlmiş və yayılmış bir ideologiya kimi tanınır. I Dünya müharibəsindən dərhal sonra dünyada sürətlə yayılmış, Almaniya və İtaliya başda olmaqla Yunanistan, İspaniya və Yaponiya kimi ölkələrdə faşist rəhbərliklər hakimiyyəti ələ keçirmişlər. Bu ölkələrdə yaşayan insanlar faşist rəhbərliklərin təzyiq və zorakılıq tərəfdarı hakimiyyətləri üzündən çox böyük əzablar çəkmiş və qeyri-insani vəhşiliklərə məruz qalmışlar. Çıxış yolunu isə bu güc və zorakılıq qarşısında səssiz qalmaqda görmüşlər. Müharibənin, zorakılığın, təcavüzkarlığın, qan axıtmanın, şiddətin hakim olduğu bu sistemlərdə, başda olan faşist diktator və idarəçi heyət, qurduqları milis təşkilatlar, gizli polis təşkilatları və faşist birliklərlə cəmiyyətdə terrorla məşğul olmuşdurlar. Üstəlik faşist ideologiyanı, təhsildən mədəniyyətə, dindən incəsənətə, dövlət quruluşundan hərbi sistemə, polis təşkilatından insanların şəxsi həyatına qədər demək olar ki, hər sahədə həyata keçirmişlər.

Faşizmin başlatdığı II Dünya müharibəsi isə, bəşəriyyət tarixinin ən böyük fəlakətlərindən biri olmuş və nəticədə 55 milyon insan həyatını itirmişdir. Ancaq faşizm keçmişdə qalan və bu gün yalnız tarix kitablarında qarşılaşdığımız bir ideologiya deyil. Nə qədər ki, bu gün faşizmi adı qoyulmuş bir rejim olaraq açıq şəkildə tətbiq edən dövlətlər olmasa da, faşist ruha sahib rəhbərliklər, siyasi qruplar və partiyalar hələ dünyanın bir çox ölkəsində ad və taktika dəyişdirməklə öz təsirini qoruyub saxlayır və insanlara bənzər bir zülmü yaşadırlar. Gələcəkdə faşizmin daha da güclənməsinə imkan verəcək sosial tələblərin meydana gəlməsi də ehtimal olunur. Buna görə də faşizm hələ dünya üçün bir təhlükə olmağa davam edir. Əlinizdəki kitab, bu təhlükəyə qarşı qələmə alınmışdır. Beləcə, dünyada bu gün fərqli üsul və pərdələr altında insanların qarşısına çıxan faşist kütlələrin tanınması, bunların əsl mənşəyinin və məqsədlərinin görülməsi nəzərdə tutulur. Kitabın qələmə alınmasında başqa məqsəd də, bəzən "dindar" görünüşünə bürünən faşizmin bu maskasının açılması, faşizmin əslində tamamilə haqq dinə qarşı bir sistem olduğunun aşkar edilməsidir. Bir xəstəlikdən xilas olmaq üçün əvvəlcə o xəstəliyin yaranmasına səbəb olan mikrobu ya da virusu müəyyənləşdirmək, onunla mübarizə aparmaq və onun antidodunu tapmaq lazımdır.

Beləcə xəstəliyə əlverişli zəmin hazırlayan mühit aradan qalxar. Bu edildikdən sonra xəstəliyin təsirlərini yox etmək asandır. Eynilə, "faşizm" adlanan kabusdan xilas olmaq üçün, faşizmin fikri dayanaqlarıyla və onu inkişaf etdirən faktorlarla fikri cəhətdən mübarizə aparmaq lazımdır. Kitab boyunca da görəcəyimiz kimi, faşizmin dövrümüzdəki fikri dayanaqlarının ən əhəmiyyətlisi Darvinizmdir. Darvinizm insanlara elmi bir nəzəriyyə olaraq tanıdılır, halbuki bu həqiqət deyil. Darvinizm "insan inkişaf etmiş bir heyvandır", "bəzi irqlər təkamül prosesində inkişaf cəhətdən geri qalmışdır",

"təbiətdə var gücü ilə bir mübarizə hakimdir, bu mübarizədə güclü olan qazanar, zəif olan aradan götürülər" kimi iddiaları, 20-ci əsrdə, başda faşizm olmaqla bir çox zərərli ideologiyaya dəstək vermişdir. Bu baxımdan, -gələcəkdə təfərrüatla izah ediləcəyi kimi- sözügedən ideologiyaların səbəb olduğu zülmün və vəhşiliyin əsas məsuliyyət sahiblərindəndir.

Ölkəmizdə faşist hərəkət və tətbiqlərin olmaması, buna niyyət edənlərin hələ ən əvvəl qarşılarının alınması, həmçinin Darvinizmin geniş kütlələr tərəfindən qəbul edilməməsi, bu mövzuya qarşı laqeyd qalınmasına səbəb olmamalıdır. Çünki vicdan və ağıl sahibi hər insan yer üzündə fitnə-fəsad törədən, sülhü və dincliyi pozmağa cəhd edən hər cür güc və ideologiya ilə elmi və fikri bir mübarizə aparmalıdır. Çünki sülh və təhlükəsizlik Allahın insanlara olan bir əmridir. Allah Quranda belə buyurur:

**Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin və şeytanın addım izləri ilə getməyin. Şübhəsiz ki, o sizə açıq-aydın düşməndir. (Bəqərə surəsi, 208)**

# GİRİŞ

Faşizm 1919-ci ildən sonra ilk növbədə İtaliyada və daha sonra müxtəlif Avropa ölkələrində, I Dünya müharibəsinin özüylə gətirdiyi siyasi və ictimai dəyişikliklərə reaksiya olaraq meydana gələn repressiv siyasi bir hərəkətdir. Adı isə qədim Romada hakimiyyəti təmsil edən bir baltanın ətrafına bağlanmış bir dəstə çubuq mənasını verən Latınca "Fascism" sözündən gəlir. Faşizm termini ilk olaraq, İtaliyada 1922-1944-cü illər arasında hakimiyyətdə olan Benito Mussolininin liderliyindəki rəhbərlik tərəfindən istifadə edildi. Balta ətrafına bağlanmış çubuq dəstələri forması da bu ilk faşist partiyanın emblemi oldu. İtaliyadan sonra 1933-1945-ci illər arasında Almaniyada və 1939-1975-ci illər arasında İspaniyada faşist partiyalar hakimiyyətdə idi. II Dünya müharibəsindən sonra isə Cənubi Amerika və digər bəzi zəif inkişaf etmiş ölkələrdə qurulan diktatorluq bənzəri rejimlər də ümumiyyətlə faşist rejim olaraq xarakterizə edildi.

Faşizmin nəyi ifadə etdiyinə baxdığımız təqdirdə isə, bunun cavabını ən əsaslı olaraq Mussolininin 1932-ci ildə İtalyan Ensiklopediyası üçün verdiyi faşizm tərifində görə bilərik: Faşizm, indiki vaxtda nə qədər ki, bəşəriyyətin inkişafını və gələcəyini siyasi düşüncələrdən ayrı olaraq ələ alırsa da, nə əbədi bir sülh ehtimalına, nə də bunun faydalı olacağına inanır. Bundan ötrü də sülhsevərlik doktrinasını rədd edər. Müharibə insanın bütün enerjisini ən yüksək gərginlik nöqtəsinə daşıyır və nəciblik damğasını onu qarşılamağa cəsarət edən insanların üstünə vurur. Bütün digər məsələlərin heç biri insanı ölüm və həyat arasında seçim etmə kimi böyük bir alternativə apara bilməz...

Faşizm həyatı mübarizə və qələbə kimi görər, onu həm yaxınlığındakı və uzaqlardakı insanlardan, həm də yaşadığı dövrdəki və sonrakı dövrdə gələcək insanlardan çox üstün tutar.(1) Mussolininin də qeyd etdiyi kimi faşizmin əsas xüsusiyyəti Darvinist bir qarşıdurma və müharibədir. Darvinizm kitabın giriş hissəsində də ifadə etdiyimiz kimi, "güclü olanın həyatda qalıb, zəif olanın aradan götürüldüyünü" iddia edir, buna görə də insanların yaşamaq üçün daima mübarizə aparmalı olduğunu irəli sürür. Bu fikirlə çıxış edən faşizmdə də, bir millətin inkişafının ancaq döyüşlə mümkün olacağına inanılır və sülh inkişafı zəiflədən bir faktor hesab edilir. Eyni düşüncə faşizmin sionist yəhudilər arasındakı nümayəndəsi sayılan Vladimir Jabotinski tərəfindən də ifadə edilmişdir. İsrail radikal sağının fikri qabaqcılı olaraq qəbul edilən Jabotinski 1930-cu illərdə faşist zehniyyəti ümumi şəkildə belə izah etmişdir:

Dövrümüzdəki əxlaq qaydaları çərçivəsində uşaq humanistliyinin təsiri yoxdur. Dünyanın siyasi həyatını formalaşdıracaq fakt, yalnız və yalnız gücdür. Qonşusu nə qədər yaxşı və səmimi olursa olsun, ona inanan insanlar axmaqdırlar. Ədalətə

inananlar da axmaqdırlar. Ədalət biləyi güclü olanın və bu biləyi böyük inadkarlıqla arzularını həyata keçirmək üçün istifadə edənindir. (2) Bu sözlərdən də başa düşüldüyü -və sonrakı səhifələrdə təfərrüatlarıyla nəzərdən keçirəcəyimiz- kimi, faşizm əslində bəşəriyyətin, Darvinizmin uzaqgörənlikləri istiqamətində "meşə qanunlarına" görə təşkil edilməsinin ideologiyasıdır. Faşizmin başqa bir xüsusiyyəti də irqçiliyə əsaslanan, təcavüzkar bir milliyyətçilik anlayışıdır.

Bu milliyyətçilik anlayışı insanın öz millətini sevməsi və onun üçün çalışması kimi ümumiləşdiriləcək yumşaq milliyyətçilik anlayışından çox fərqlidir. Faşizmin təcavüzkar milliyyətçiliyi, öz millətinin bütün digər millətlərə təzyiq göstərməsini, onları əzməsini, kölələşdirməsini qarşısına məqsəd qoymuşdur. Bu xəyal uğruna öz millətinə böyük işgəncələr verməkdən də çəkinməz. Faşistlərin milliyyətçiliyi, əslində milliyyətçilik anlayışını müharibə, işğal, qırğın kimi siyasi istəklərlə və "qan tökmə" məqsədinə alət etməkdən ibarətdir. Faşist bir rejim, digər millətlərə təzyiq göstərmək istədiyi kimi, öz millətinə qarşı da təzyiq və gücdən istifadə edir. Faşizmdəki əsas ictimai siyasət bir fikri qəbul etdirməkdə təkid etmək, məcburən qəbul etdirməkdir. Faşizm, həm ayrı-ayrı fərdlərin, həm də cəmiyyətin bütün təbəqələrinin düşüncə və davranışını eyni istiqamətdə formalaşdırmağı qarşısına məqsəd qoyar.

Bu məqsədə nail olmaq üçün hər cür təbliğat üsuluyla yanaşı güc və zorakılıqdan istifadə edər. Özü kimi düşünməyən hər kəsi düşmən elan edər. Hətta, nasist Almaniyasında olduğu kimi böyük bir qırğın da törədə bilər. Bütün bunlar faşizmin meydana gətirdiyi cəmiyyət quruluşunun və siyasi rejimin çox qısa bir tərifidir. Amma əsl məsələ, faşizmin haradan meydana gəldiyini və sonra necə olub da yayıldığını, hakimiyyəti ələ keçirdiyini, kütlələri arxasınca sürüdüyünü başa düşə bilməkdir.

Bunu başa düşmək əhəmiyyətlidir, çünki faşizm II Dünya müharibəsindən sonra tarixə basdırılmış sayılsa da, hələ də müxtəlif formalarda ortaya çıxır. Faşizm yalnız bir siyasi sistem deyil, həmçinin bir mədəniyyətdir və bu mədəniyyət nasist Almaniyası və Mussolini İtaliyası kimi siyasi rejimlər qurmasa belə, dünyanın hər bir yerində insanlara əzablar verməyə davam edir. Buna görə də indi faşist mədəniyyətin mənşəyini araşdıracaq və faşizmin necə olub da 20-ci əsrin birinci yarısında bütün dünyanı sarsıdan, zülmlə dolduran bir güc halına gələ bildiyini görəcəyik.

# FAŞİST MƏDƏNİYYƏTİN MƏNŞƏLƏRİ

Faşizm Avropa qaynaqlı bir ideologiyadır. 19-cu əsrdə bəzi Avropalı mütəfəkkirlər tərəfindən faşizmin təməlləri atılmış və 20-ci əsrdə də İtaliya, Almaniya kimi Avropa ölkələrində tətbiq olunmuşdur. Faşizmi mənimsəyən və tətbiq edən digər nümunələr də, bu ideologiyanı Avropadan "idxal" etmişlər. Buna görə də faşizmin mənşəyini araşdırmaq üçün, Avropa tarixinə baxmaq zəruridir. Əlbəttə ki, Avropa tarixinin çox fərqli mərhələləri və dövrləri vardır. Ancaq ən ümumi mənada baxıldığı təqdirdə, mədəni baxımdan bütün Avropa tarixini üç əsas dövrə bölmək olar: 1) Xristianlıqdan əvvəlki (bütpərəstlik) dövr; 2) Xristianlığın mədəni cəhətdən Avropaya hakim olduğu dövr; 3) Xristianlıqdan sonrakı (materialist) dövr. Son dövrü "xristianlıqdan sonrakı dövr" olaraq xarakterizə etməyimiz bəlkə ilk başda qəribə gələ bilər. Çünki Avropa cəmiyyətlərində bir din kimi xristianlıq hələ də geniş kütlələr tərəfindən qəbul edilir.

Amma xristianlıq, Avropa mədəniyyətinin əhəmiyyətsiz bir parçası halına gətirilmişdir, yalnız əslindən uzaqlaşdırılmış bir xristianlıq yaşanır. Cəmiyyətə istiqamət verən əsl təşkilat və anlayışlar dinin deyil, materialist fəlsəfənin qəbullarına görə təyin olunmuşdur. 18-ci əsrdə başlayan din əleyhdarı düşüncə, 19-cu əsrdə materialist fəlsəfənin elmə və düşüncəyə hakim olmasıyla özünün pik nöqtəsinə çatmışdır. 20-ci əsr isə materializmin qanlı nəticələrinin yaşandığı əsr olmuşdur. Bu üç dövrə baxdığımızda isə, faşist mədəniyyətin 1-ci və 3-cü dövrə aid olduğunu görərik. Yəni faşizm bütpərəst mədəniyyətin bir parçası kimi meydana gəlmiş və sonra da materialist mədəniyyətin bir parçası olaraq yenidən həyata keçmişdir.

Avropada xristian mədəniyyətinin hakim olduğu 1000 ildən çox müddət ərzində isə, faşist bir ideologiya və tətbiqetmə yaşanmamışdır. Bunun təməlində xristianlığın, sülhsevər və ədalətli bir din olması durur. Şəfqət, mərhəmət, fədakarlıq, sevgi, təvazökarlıq kimi əxlaqi fəzilətləri qəbul edən və cəmiyyətə yerləşdirməyə çalışan xristian mədəniyyəti, faşizmlə tamamilə ziddiyyətdə olmuşdur. Bu isə, xristianlığın ilahi bir din olma xüsusiyyətindən qaynaqlanır. Xristianlıq Allahın hz. İsaya vəhy etdiyi haqq dinlə meydana gəlmişdir. Hz. İsadan sonrada bəzi təhriflərə məruz qalmış, əslindən ayrılmış və bəzi azğın inanclarla pozulmuşdur. Amma yenə də haqq dinin özündə olan bəzi əsas əxlaqi dəyərlər (yuxarıda saydığımız şəfqət, mərhəmət, fədakarlıq, sevgi, təvazökarlıq kimi anlayışlar) xristianlıqda varlığını qorumuşdur. İndi xristianlıqdan əvvəlki dövrdə Avropaya qısaca bir nəzər salaq və faşizmin mənşəyini araşdıraq.

## Bütpərəst aləmindəki faşistlər

Xristianlıqdan əvvəlki Avropa mədəniyyətinin ən fundamental xüsusiyyəti, bütpərəst inanclara, yəni çoxtanrılı batil dinlərə sahib olması idi. Avropalılar ibadət etdikləri bu saxta ilahların özlərinə həyatın fərqli istiqamətlərində yol göstərdiyi və kömək etdiyi kimi azğın inanclara sahib idilər. Bunların ən əhəmiyyətliləri arasında isə, demək olar ki, hər bütpərəst cəmiyyətdə olan döyüş bütləri idi. Bütpərəst inancda döyüş bütlərinə göstərilən bu rəğbət bu mədəniyyətdə zorakılığın müqəddəs görülməsinin bir nəticəsi idi. Bütpərəst qövmlər ibtidai bir qövmdülər və daima döyüş əhval-ruhiyyəsində yaşayırdılar. Qövm üçün öldürmək, qan tökmək, sanki müqəddəs bir vəzifə sayılırdı. Zorakılığın ya da vəhşiliyin demək olar ki, hər növü bütpərəst aləmində özünə qanuni bir yer tapa bilirdi. Zorakılığı qadağan edən, bunun səhv olduğunu izah edən heç bir əxlaqi qaynaq yox idi. Bütpərəst aləminin ən "mədəni" dövləti hesab edilən Roma belə, insanların vəhşi heyvanlar tərəfindən parçalandığı ya da ölümü ilə mübarizə apardıqları diyarı idi. Roma rəhbərləri çox vaxt zalımlıqları ilə tarixə keçirdilər. Məşhur Neron öz anası, həyat yoldaşı və ögey qardaşı başda olmaqla çoxsaylı insanı öldürtdürərək hakimiyyətə gəlmişdi. Ölkəsindəki xristianları meydanlarda vəhşi heyvanların qabağına atdırmış, sırf inanclarına görə minlərlə insana işgəncə vermişdi. Roma şəhərinə tamamilə od vuraraq yandırtması və bu qorxunc mənzərəni sarayının pəncərəsindən lir çalıb seyr etməsi isə onun zalımlığına dair tarixə keçmiş məşhur məlumatlardandır.

Romada bu vəhşilik mədəniyyəti hakim olduğu halda, Vandallar, Qotlar, Viziqotlar kimi şimal bölgələrində yaşayan kobud bütpərəst qövmlər daha çox vəhşi idilər. Bu qövmlər bir tərəfdən bir-birlərini qırır, bir tərəfdən də Romanı talan etməyə çalışırdılar. Bütpərəst aləmi yalnız zorakılığın hakim olduğu, üstəlik bu gücün hər cür istifadəsinin guya əxlaqi sayıldığı, hətta ciddi bir əxlaq anlayışının belə mövcud olmadığı bir aləmdi. Bütpərəst aləmində bugünkü mənada "faşizm" deyə biləcəyimiz bir sistemi tətbiq edən ən konkret nümunə isə, **yunan şəhər dövləti Sparta idi**.

## Bütün faşistlərin tipik modeli: Sparta

E.ə. 8-ci əsrə yaxın Lukurgus adlı biri tərəfindən hərbi bir dövlət olaraq qurulduğu məlum olan Sparta, sözün əsl mənasında bir döyüş və şiddət dövləti idi. Spartada qatı bir təhsil sistemi qurulmuşdu. Buna görə də dövlət insandan daha çox əhəmiyyətli idi. Buna görə də insanların həyatı, dövlətə faydalı olub olmayacaqları

meyarına görə təyin olunurdu. Sağlam və **güclü olaraq dünyaya gələn Spartalı oğlanlar bütün ömürlərini dövlətin xeyri naminə sərf etdiyi halda, xəstə körpələr dağlarda ölümə məhkum edilirdi**. (Nasist Almaniyasında da spartalıların bu tətbiqləri nümunə götürülmüş və Darvinizmin də təsiriylə "sağlam və üstün bir irq" üçün xəstə olanların yox edilməsi lazım olduğu müdafiə olunmuşdur) Spartada valideynlər oğlan uşaqlarına yeddi yaşına qədər baxmaqda məsuliyyət daşıyırdılar. Uşaqlar 7 yaşdan 12 yaşına qədər 15 nəfərlik bir qrupun üzvü olurlar və qanunlara tabe olmaqla uğur qazananlar lider olaraq seçilirdi. Uşaqlar yalnız idman edərək bədənlərini gücləndirər və döyüşə hazırlanarlardı. Oxuyub-yazmaq əhəmiyyətli sayılmaz, musiqi və incəsənətə çox maraq göstərilməzdi. Uşaqların öyrənmələrinə və oxumalarına izn verilən mahnılar yalnız döyüş və şiddət xarakterli mahnılardı. (Mussolini və Hitlerin 4 yaşından etibarən faşist təhsilə almağa başlatdığı uşaqlar da spartalı uşaqlar ilə demək olar ki, bənzər təhsili almışdırlar.) Faşizmin incəsənətə, ədəbiyyata və təhsilə əhəmiyyət verməyərək, yalnız döyüşçü ruhlu insanlar yetişdirməsi, bir Sparta ənənəsidir. Sparta haqqında ən ətraflı izahlar verən mütəfəkkirlərin başında, məşhur yunanlı filosof Platon gəlir. Platon demokratiya ilə idarə olunan Afinada yaşamasına baxmayaraq, Spartadakı faşist rejimə heyran qalmış və kitablarında Spartanı nümunəvi bir dövlət modeli olaraq göstərmişdir. Platonun bu faşist meylindən ötrü 20-ci əsrin qabaqcıl mütəfəkkirlərindən biri olan Karl Popper, *The Open Society and Its Enemies* (Açıq Cəmiyyət və Onun Düşmənləri) adlı məşhur kitabında, Platonu açıq cəmiyyətin ilk düşməni və repressiv rejimlərin ilk ilham mənbəyi olaraq göstərər. Popper Platonun Spartadakı körpə cinayətlərini belə soyuqqanlılıqla müdafiə etdiyini izah edir və onun **"yevgenika"** anlayışının ilk nəzəri müdafiəçisi olduğunu belə bəyan edir: [Platona görə] **idarəçi sinfin özünü üstün bir irq olaraq hiss etməsi** çox əhəmiyyətlidir. Platon "əsgərlərin irqi xalis olaraq saxlanılmalıdır" deyərkən (və beləcə körpə cinayətlərini müdafiə edərkən), o vaxtdan bəri təkrar edilən və heyvanları böyük bir diqqətlə cütləşdirərkən öz irqimizə laqeyd yanaşdıq istiqamətindəki irqçi tezisini inkişaf etdirir. (Körpə cinayətləri Afinanın bir tətbiqi deyil, Platon bunun Spartada yevgenik məqsədlərlə tətbiq edilmiş, bunun antik bir tətbiq olduğunu və buna görə də yaxşı olmalı olduğunu düşünmüşdür). Bu prinsiplərin **təcrübəli bir heyvan tərbiyəçisi tərəfindən itlərə, atlara və ya quşlara tətbiq olunan cütləşdirmə üsulu kimi, üstün irqin yetişdirilməsi üçün də tətbiq olunmasını** istəyir. Platon: -"Əgər onları bu şəkildə cütləşdirməsəniz, quşlarınızın və ya itlərinizin irqinin tezliklə dəyişikliyə uğrayacağını düşünmürsünüzmü?"-deyə soruşur və sonra da bu nəticəyə gəlir, "bu prinsiplər insan irqi üçün də məqbuldur". Yəni bir əsgərdən və ya mühafizəçidən tələb olunan irqi xüsusiyyətlər, bir çoban itindən tələb olunan xüsusiyyətlər kimidir. Platon **"döyüşçü-idmançılarımız gözətçi itlər kimi ayıq-sayıq olmalıdır"** deyir və sonra da bunları qeyd edir: "Əlbəttə ki, gözətçilik etmək üçün normal uyğunluqları nəzərə alındıqda, cəsur bir gənclə yaxşı qidalanmış bir it arasında fərq yoxdur" (3).

Platonun insanları bir heyvan növü kimi qəbul edən və "cütləşdirmə" üsuluyla insanların "təkamül keçirəcəyini" irəli sürən bu fikirləri 19-cu əsrdə Darvinizmlə birlikdə yenidən dünyanın gündəminə gələcək, 20-ci əsrdə də nasistlər tərəfindən tətbiq ediləcəkdi. Bunu sonrakı səhifələrdə araşdıracağıq. Platon Spartadakı modeli müdafiə edərkən, faşizmin digər bir xüsusiyyətini, yəni cəmiyyətin dövlət tərəfindən böyük bir təzyiqlə idarə edilməsini də müdafiə etmişdir. Platona görə bu təzyiq gündəlik həyata o qədər hakim olmalıdır ki, insanlar dövlətin əmrlərindən kənar heç bir şey düşünə bilməz hala gəlməli, öz ağıl və iradələrini tamamilə bir kənara qoyaraq, sanki beyinləri yuyulmuş bir şəkildə hərəkət etməlidirlər. Karl Popperin kitabının dərhal başında faşist zehniyyətin tam bir ifadəsi olaraq qeyd etdiyi Platona aid aşağıdakı sözlər, faşist rejimin quruluşunu təsvir edir:

Ən əsas prinsip budur ki, erkək və ya dişi olsun heç kəs lidersiz olmamalıdır. **Heç kimin beyni, bir şeyi öz təşəbbüsü ilə etməsinə izn verəcək şəkildə düşünməyə alışdırılmamalıdır...** Ən kiçik mövzuda belə liderliyin rəhbərliyi altında olmalıdır. Məsələn, səhər yuxudan oyanması, hərəkət etməsi, yuyunması və ya yemək yeməsi, yalnız əgər bunları etməsi əmr edilmişsə reallaşmalıdır. Bir sözlə, **ruhunu elə bir şəkildə tərbiyə etməlidir ki, əsla müstəqil olaraq davranmağı xəyal etməməli və bunu etmə qabiliyyətindən də tamamilə məhrum hala gəlməlidir (4).**

Bu düşüncə və tətbiqləriylə, spartalılar və Platon, faşizmin əsas xüsusiyyətlərini də ortaya qoymuşlar: Bu xüsusiyyətlər insanları heyvan növü kimi görən bir anlayış, fanatik bir irqçilik, müharibənin və qarşıdurmanın ucaldılması, cəmiyyətin dövlətin təzyiqiylə və "beyin yuma" üsullarıyla idarə olunmasıdır.

Bənzər faşizm tətbiqləri, bəzi digər bütpərəst cəmiyyətlərdə də müşahidə olunmuşdur. Qədim Misiri idarə edən **Fironların** qurduğu sistem, bəzi istiqamətləriylə Sparta faşizmini xatırladar. Misir Fironları da güclü bir hərbi intizama sahib dövlət sistemləri qurmuşlar və bundan öz xalqlarına təzyiq göstərmək üçün istifadə etmişdirlər. **Hz. Musa** dövründə Misiri qəddarcasına idarə edən Firon -tarixi mənbələrdə II Ramzes olaraq adlanar- Spartadakı körpə qırğınlarını xatırladan bir zalımlıqla ölkəsindəki bütün yəhudi oğlan uşaqlarının qətl edilməsini əmr etmişdir. Bu Fironun öz xalqına qarşı tətbiq etdiyi fikri təzyiq də, Platonun tərif etdiyi faşist təzyiq sistemini xatırladır. Allahın Quranda bildirdiyi kimi, Firon bütün xalqına, **Firon dedi: "Mən sizə ancaq öz düşündüyümü bildirirəm, mən sizə ancaq doğru yolu göstərirəm" (Mümin surəsi, 29)** deyərək totalitar bir təlqin vermişdir. Özünün bütpərəst inancını rədd edərək, hz. Musanın gətirdiyi haqq dinə inanan kəsləri isə "...**Mən sizə izin verməmişdən əvvəl siz ona iman gətirdiniz?" (Əraf surəsi, 123)** və **"əllərinizi və ayaqlarınızı çarpaz kəsəcək, sonra da hamınızı çarmıxa çəkəcəyəm" (Əraf surəsi, 124)** deyə təhdid etmişdir.

## Faşizmin din qarşısında geri çəkilməsi

Avropaya hakim olan faşist-bütpərəst mədəniyyət 2-ci və 3-cü əsrlərdə xristianlığın əvvəlcə Romaya sonra da bütün Avropaya yayılmasıyla birlikdə mərhələli şəkildə ortadan qalxdı. Xristianlıq nə qədər ki, əhəmiyyətli təhriflərə məruz qalsa da, hz. İsanın insanlara təbliğ etdiyi haqq dinin əsas əxlaqi xüsusiyyətlərini Avropa cəmiyyətlərinə daşıdı. Əvvəllər zorakılığı, qarşıdurmanı, qan tökməyi müqəddəs və qanuni hesab edən, daima bir-biri ilə zidd düşən fərqli qəbilələrdən, irqlərdən, şəhər dövlətlərindən ibarət Avropa əhəmiyyətli bir dəyişiklik keçirdi:

**1) İrqçilik və qəbilə döyüşləri aradan qalxdı:** Bütpərəst aləmdə hər fərqli qəbilə, hər fərqli irq digərini düşmən kimi görür və bu fərqli qruplar arasında daimi bir qarşıdurma yaşanırdı. Hər bütpərəst cəmiyyətinin öz-özünə uydurduğu müxtəlif bütlər, müxtəlif totemlər vardı və bunlar üçün döyüşürdülər. Xristianlıqla birlikdə, tək bir inanc, tək bir mədəniyyət və hətta tək bir dil bütün Avropaya hakim oldu və bütpərəst aləmin qarşıdurmaları aradan qalxdı.

**2) Şiddət əvəzinə sülh və mərhəmət anlayışları müqəddəs hala gəldi:** Bütpərəst cəmiyyətlərdə qan tökmək, insanlara əzab vermək, işgəncə vermək, bir qəhrəmanlıq kimi görülür, xəyali "döyüş tanrı"larını razı salacaq qanuni bir hərəkət hesab edilirdi. Xristianlıqla birlikdə, insanların bir-birlərinə, (düşmənlərinə belə) sevgi və mərhəmətlə yaxınlaşmaları lazım olduğu, qan tökmənin Allah Qatında böyük bir cinayət olduğu həqiqəti Avropa cəmiyyətləri tərəfindən öyrənildi.

**3) İnsanı bir heyvan növü kimi görən anlayış aradan qalxdı:** Spartalıların döyüşçülərini "mühafizəçi itlər"lə bir tutması, bütpərəst cəmiyyətlərdə geniş yayılmış azğın **"animist"** inancların bir növü idi. Animizm təbiətin və təbiətdəki heyvanların bir ruha sahib olduğu mənasını verirdi. Buna görə də animizmə görə bir insanla bir heyvan və ya bir bitki arasında əhəmiyyətli bir fərq yox idi. Din əxlaqının hakimiyyəti ilə birlikdə, bu batil inanc ortadan qalxdı və insanın Uca Allahın verdiyi bir ruha sahib olduğu, heyvanlardan tamamilə fərqli bir varlıq olduğu və bundan ötrü də heyvanlarla eyni qanunlara tabe ola bilməyəcəyi həqiqəti Avropa cəmiyyətləri tərəfindən başa düşüldü.

Bu üç maddədə göstərilən bütpərəst xüsusiyyətlər, yəni irqçilik və qan tökmək və insanın bir heyvan növü hesab edilməsi, faşizmin əsas xüsusiyyətləridir. Bu meyllər, Avropada xristianlıq tərəfindən məğlubiyyətə uğradılmışdır. Yaxın Şərqdə isə eyni qələbə, İslam əxlaqı tərəfindən ərəb bütpərəstliyinə qarşı əldə olunmuşdur. Ərəblər (və digər Yaxın Şərq və Orta Asiya cəmiyyətləri də) İslamdan əvvəl döyüşçü, qan tökən, irqçi bir mədəniyyətə sahib idilər. Hətta Spartada tətbiq olunan "istənilməyən körpələrin ölümə məhkum edilməsi" vəhşiliyi, bütpərəst ərəblərdə də qız uşaqlarının

diri-diri torpağa basdırılması şəklində tətbiq olunmuşdur. Quranda bu vəhşi tətbiq belə xəbər verilir:

**Diri-diri torpağa basdırılmış qız uşağı soruşulacağı zaman - hansı günaha görə öldürülmüşdür. (Təkvir surəsi, 8-9)**

**Onlardan birinə, Mərhəmətli Allaha aid etdikləri qız uşağı ilə müjdə verilsə, hirsindən üzü qapqara qaralar. (Zuxruf surəsi, 17)**

Ərəblər və digər Yaxın Şərq və Orta Asiya cəmiyyətləri, ancaq İslam əxlaqıyla şərəfləndikdən sonra qan tökməkdən uzaq, sülhsevər, mülayim, mədəni bir mədəniyyətə qovuşmuşlar, keçmiş qəbilə döyüşlərindən, bədəvi vəhşiliyindən xilas olaraq dini bir birlik içində dinclik və sabitlik tapa bilmişdirlər.

## Faşizmin meydana gəlməsi və neo-bütpərəstlik

Avropadakı bütpərəst mədəniyyətin xristianlıq tərəfindən basdırılmasına baxmayaraq yox olmamışdır. Müxtəlif təlimlərlə, bəzi təriqətlərlə, masonluq kimi gizli təşkilatlarla yaşamağa davam etmiş və Avropa tarixinin 16-cı və 17-ci əsrlərində yenidən diqqətə çarpan bir şəkildə ortaya çıxmışdır. Müxtəlif Avropalı mütəfəkkirlər, Platon və ya Aristotel kimi qədim yunan mütəfəkkirlərinin kitablarından təsirlənərək bütpərəst aləmin anlayışlarını yenidən Avropaya daşımağa başlamışlar. Neo-bütpərəstlik, yəni yeni-bütpərəstlik deyilə bilən bu cərəyan, çox uzun bir müddət nəticəsində getdikcə güclənmiş və 19-cu əsrdə də xristianlığa qarşı üstün gələrək Avropanı fikirlə təsiri altına almışdır. Bu uzun prosesi burada təfərrüatlı şəkildə qeyd etməsək də, bəzi əsas şeyləri ifadə etmək faydalı olar. Neo-bütpərəstliyin ilk qabaqcılları "Humanistlər" olaraq tanınan mütəfəkkirlərdir. Bu insanlar qədim yunan mənbələrindən təsirlənərək Platon, Aristotel kimi mütəfəkkirlərin bütpərəst fəlsəfələrini mənimsəmiş və yaymağa çalışmışlar. "Humanizm" məfhumu ilə ifadə etdikləri inanc isə, Allahın varlığını və insanın Allah qarşısındakı məsuliyyətini görmək istəməyən, insanı öz başına üstün və uca bir varlıq kimi təsvir edən azğın bir fəlsəfədir. Humanizmin təsirləri 17-ci və 18-ci əsrdə ortaya çıxan İşıqlanma fəlsəfəsiylə daha geniş ölçülərə çatmışdır. İşıqlanma fəlsəfəçiləri qədim Yunanistanda meydana gəlmiş bir fəlsəfə olan materializmi mənimsəmiş və qızğın şəkildə müdafiə etmişlər (Materializm, Leucippus və Democritus kimi yunan mütəfəkkirləri tərəfindən ortaya atılan, hər şeyin maddədən ibarət olduğunu hesab edən bir xurafat fəlsəfəsidir). Bütpərəstliyin yenidən ortaya çıxması, maarifçilik fəlsəfəsinin siyasi nəticəsi olaraq qəbul edilən fransız inqilabında çox diqqətə çarpan bir şəkildə ifadə edilmişdi. Fransız inqilabının qanlı "terror" dövrünə liderlik edən Yakobinlər, xristianlıq əvəzinə bütpərəstliyi mənimsəyir və

xristianlığa olan nifrətləri də xeyli artırırdı. İnqilabın ən qızğın günlərində Yakobinlərin fəal təbliğatı nəticəsində geniş şəkildə "xristianlıqdan çıxma" hərəkatı baş verdi. Hətta bununla yanaşı xristianlıq əvəzinə bütpərəst simvollar əsasında yeni bir "ağıl dini" ortaya atıldı. İlk əlamətləri 14 iyul 1790-cı ildə Respublika bayramında görülən "inqilabçı ibadət" getdikcə yayılmağa başladı. Yakobinlərin əliqanlı lideri Robespierre, "inqilabçı ibadət"ə yeni qaydalar gətirmiş, bu ibadətin qanunlarını sənəd halına gətirərək adını "Uca Varlıq İbadəti" adlandırmışdı. Bu hadisənin təəccüblü bir nəticəsi məşhur Notrdam kilsəsinin "ağıl məbədi"nə çevrilməsi idi. Kilsənin divarlarındakı xristian fiqurları sökülmüş və mərkəzdə "ağıl tanrısı" adlandırılan qadın heykəli, yəni bütpərəst bir büt yerləşdirilmişdi.

Bu bütpərəst meyl, inqilabçılar tərəfindən müxtəlif simvollarla da ifadə edilirdi. Fransız inqilabında inqilabçı gözətçilər tərəfindən geyinilən və bir çox illüstrasiyada inqilabın simvolu kimi istifadə edilən qırmızı başlıq, bütpərəst aləmindəki Mitra əfsanəsindən miras qalan bütpərəst bir emblemdi.(5) Bütpərəst mədəniyyətinin bu şəkildə yenidən ortaya çıxması və Avropaya fikirlə hakim olmağa başlaması, bütpərəst aləminə aid bir sistem olan faşizmin də yenidən ortaya çıxmasına səbəb olurdu. Necə ki, Spartada tətbiq olunan faşist sistemin bir bənzəri, yəni nasist Almaniyası bu bütpərəst mədəniyyətə dözəcəkdi. Ancaq 18-ci əsrin sonunda baş verən fransız inqilabından 20-ci əsrin əvvəlindəki nasist Almaniyasına keçmək üçün bəzi əhəmiyyətli mədəni dəyişikliklər lazım idi. Bu dəyişikliklər 19-cu əsrdəki bəzi mütəfəkkirlər tərəfindən reallaşdırıldı. Bunların ən əhəmiyyətlisi Çarlz Darvin idi.

## Darvinizm və bütpərəst "təkamül" xurafatının dirilməsi

Bütpərəst aləminə aid olan, ancaq 18-ci və 19-cu əsrdə yenidən Avropaya daşınan batil inanclardan biri, bütün canlıların təsadüflər nəticəsində və bir-birindən törəyərək meydana gəldiklərini irəli sürən "təkamül nəzəriyyəsi" idi. "Canlılar və insan necə yarandı?" Allahın varlığından xəbəri olmayan, bunun əvəzinə öz uydurduqları bir çox saxta məbuda ibadət edən müşriklər bu suala "təkamül" deyə cavab vermişdilər. İlk dəfə qədim Şumer kitabələrində rast gəlinən təkamül anlayışı, əslində qədim Yunanistanda formalaşdı. Tales, Anaksimenderes və Empedokles kimi bütpərəst filosoflar, canlı varlıqların, yəni insan, heyvan və bitkilərin hava, od və ya su kimi cansız maddələrdən özbaşına əmələ gəldiklərini iddia etdilər. Bu nəzəriyyələrinə görə ilk canlılar suda və birdən-birə, özbaşına ortaya çıxmış, bəzi heyvanlar vaxt keçdikcə suyu tərk etmiş və quruya uyğunlaşmışdılar. Tales uzun müddət Misirdə yaşamışdı. Misirdə isə "canlıların özbaşına palçıqdan əmələ gəldiyi" xurafatı geniş yayılmışdı. Misirlilər Nil çayının suyu çəkildiyi vaxtda ətrafa yayılan qurbağaların bu şəkildə əmələ gəldiyini güman edirlər. Tales də bu xurafatı qəbul etmiş və buna bəzi fikirlər əlavə edərək bütün canlıların özbaşına əmələ gələ bildiyini irəli sürmüşdü. Tales bu iddiaları

təcrübəyə və ya müşahidəyə deyil, yalnız məntiqi əsaslara əsaslanaraq irəli sürürdü. Qədim Yunanıstandakı digər təkamülçü filosoflar da eyni metoddan istifadə etdilər. Talesin bir şagirdi olan Anaksimenderes, təkamül nəzəriyyəsini inkişaf etdirdi. Onun qərb düşüncə həyatına daxil etdiyi iki böyük materialist anlayış vardır. Bunlardan birincisi **kainatın sonsuzdan gəlib sonsuza getdiyi**, ikincisi isə Tales dövründə yavaş-yavaş formalaşmağa başlayan **canlıların bir-birlərindən təkamül keçirdikləri** fikridir. Hətta "təbiət" adını daşıyan klassik şeiri, təkamül nəzəriyyəsinin izah edildiyi ilk yazılı əsərdir. Anaksimenderes bu şeirində heyvanların, günəş işığıyla buxarlanan bir palçıqdan əmələ gəldiyini iddia etmişdi. İlk heyvanların tikanlı və pulcuqlu qabıqlara sahib olduğunu və dənizlərdə yaşadığını irəli sürmüşdü. Bu balığa bənzəyən varlıqlar daha sonra dəyişiklik keçirmiş, quruya keçmiş, pulcuqlu qabıqlarını tökmüş və insana çevrilmişdi.(6) Anaksimenderesin təkamül nəzəriyyəsinə necə bir təməl meydana gətirdiyi isə fəlsəfə kitablarında bu şəkildə təsvir edilir: ...Başlanğıcda bütün varlıqlar, suda yaşayan varlıqlardı. Sonradan suların çəkilməsi, quru parçalarının meydana gəlməsi ilə **bu sularda yaşayan varlıqlar quruda yaşayan canlılar formasında dəyişiklik keçirdi.** Bu nəzəriyyə təkamül nəzəriyyəsinin ilki ya da başlanğıcı hesab edilə bilər.(7)

Bir sözlə, Darvinizmin iki əsas ünsüründən biri, yəni canlıların təsadüflərlə bir-birlərindən törədikləri fərziyyəsi, birbaşa bütpərəst fəlsəfəsinin ortaya atdığı bir iddia idi. Darvinin nəzəriyyəsinin ikinci əhəmiyyətli ünsürü olan "həyat mübarizəsi" anlayışı da yenə bütpərəst bir inancdır. Təbiətdəki canlılar arasında bir həyat döyüşü olduğu tezisini ilk irəli sürənlər yunan fəlsəfəçiləridir. Bütpərəst mütəfəkkirlər tərəfindən, təcrübəyə və müşahidəyə deyil, mücərrəd ağıl icra etməyə əsaslanaraq ortaya atılan təkamül fikri, 18-ci əsr Avropasında yenidən əks-səda doğurmuşdur. Bütpərəst düşüncəsindəki təkamül fikri, "Böyük Yaranma Zənciri" olaraq adlandırılmış və təkamül nəzəriyyəsinin ilk qabaqcılları olan **Benoit de Maillet, Pierre de Maupertuis, Comte de Buffon** və **Jean Baptiste Lamark** kimi fransız elm adamları bu anlayışdan təsirlənmişlər. Buffon *Histoire naturelle* adlı kitabının dərhal əvvəlində, özünü "Böyük Yaranma Zənciri doktrinasının şərhçisi" olaraq xarakterizə edir.(8)

Buffondan Lamarka keçən təkamülçü anlayışı ondan da Çarlz Darvinə miras qalmışdır. Çarlz Darvinin babası olan Erasmus Darvin də bütpərəst inanclara sahib bir təkamlüçü idi. Erasmus Darvin Şotlandiya Edinburghdakı məşhur Canongate Kilwining mason lojasının ustadlarından biri idi. Üstəlik, Fransadakı Yakobinlərlə və din düşmənçiliyini bir nömrəli vəzifə edən masonik *İlluminate* təşkilatıyla da yaxın əlaqəsi vardı. Yaratdığı səkkiz min $km^2$-lik sahəsi olan botanik bağçada apardığı tədqiqatlarla Darvinizmə təməl təşkil edəcək məntiqləri meydana gətirmiş və bunları *The Temple of Nature* (Təbiət məbədi) və *Zoonomia* adlı kitablarında qeyd etmişdi. Erasmus Darvinin kitabına verdiyi ad, yəni **"təbiət məbədi"** anlayışı, həqiqətdə sahib olduğu bütpərəst

inancın bir ifadəsi idi. Bu təbiətin yaradıcı bir gücə sahib olduğuna inanan keçmiş azğın bütpərəst inancların bir təkrarı idi.

## Darvinizmin faşizmə yaratdığı zəmin

Şumer və yunan bütpərəstlərindən miras qalan "Təkamül" əfsanəsi, Çarlz Darvinin 1859-cu ildə nəşr olunan *Növlərin Mənşəyi* adlı kitabıyla Qərb dünyasının gündəminə gəldi. Darvin, bununla və daha sonra nəşr olunacaq *İnsanın Törəməsi* adlı kitabıyla, xristianlıqla birlikdə Avropadan silinmiş bəzi bütpərəst anlayışları yenidən gündəmə gətirirdi. Həm də bunları "elm" pərdəsi altında qanuniləşdirirdi. Darvinizmin qanuniləşdirdiyi- və sonradan faşizmin ortaya çıxışına zəmin hazırlayacaq- bütpərəst anlayışlar, belə sıralana bilər:

**1) Darvinizm irqçiliyə qanunilik qazandırırdı:** Darvin *Növlərin Mənşəyi* adlı kitabının alt başlığında belə yazmışdı: "Təbii seleksiya və həyat mübarizəsində üstün irqlərin qorunması yoluyla". Darvin bu ifadəylə, təbiətdəki bəzi irqlərin digərlərinə görə üstün olduğunu iddia edirdi. Bu iddiasının insan irqlərinə aid cəhətini *İnsanın Törəməsi* adlı kitabında izah etdi: Avropalı ağ irqlərin, zəncilər, asiyalılar, türklər kimi irqlərə görə üstün olduğunu və onları kölələşdirilə biləcəklərini irəli sürdü.

**2) Darvinizm qan tökməyə qanunilik qazandırırdı:** Darvin yenə kitabının alt başlığından da aydın olduğu kimi, təbiətdə daimi bir "həyat mübarizəsi" olduğunu irəli sürmüşdü. Bu həyat mübarizəsinin həm irqlər, həm də fərdlər arasında yaşandığını, bunun daimi bir mübarizə olduğunu, hər irqin və ya fərdin öz mənfəətləri üçün digərlərini məhv etməsinin çox normal olduğunu iddia etmişdi. Bir sözlə, Darvin xristianlıqla birlikdə Avropaya hakim olan yardımlaşma, fədakarlıq və qənaətkarlıq anlayışları əvəzinə, yeganə qaydanın zorakılıq və qarşıdurma olduğu bir "meydan" təsvir etmiş və bunu müdafiə etmişdi. Bütpərəst dünyaya (Roma İmperasiyasına) aid bir vəhşilik səhnəsi olan "meydan", Darvinizmlə birlikdə yenidən dirilmiş olurdu.

**3) Darvinizm insanların bioloji islahı olan (yevgenika) anlayışını yenidən gündəmə gətirirdi:** Spartada tətbiq olunan və Platonun "döyüşçü-idmançılarımız gözətçi itlər kimi ayıq-sayıq olmalıdır" deyərək müdafiə etdiyi irq islahı (yevgenika) anlayışı, Darvinizmlə birlikdə yenidən Qərb dünyasının gündəminə gəlirdi. Darvin *Növlərin Mənşəyi adlı kitabında* fəsillər boyu "heyvan irqlərinin islahı"ndan bəhs etmiş, *İnsanın Törəməsi* adlı kitabında isə insanların da bir heyvan növü olduğunu müdafiə etmişdi. Necə ki, qısa müddət sonra Darvinin əmisi oğlu Frensis Qalton, əmisinin bu iddialarını

bir addım irəli aparacaq və müasir yevgenika nəzəriyyəsini ortaya atacaqdı. (Yevgenikayı rəsmi siyasət kimi tətbiq edən ilk dövlət isə nasist Almaniyası olacaqdı.)

Göründüyü kimi, Darvinin nəzəriyyəsi ilk başda yalnız biologiya elmini maraqlandıran bir qayda kimi görünsə də, birbaşa yeni bir ictimai və siyasi anlayışın əsasını meydana gətirirdi. Necə ki, bu həqiqət qısa zamanda özünü büruzə verdi və Darvinizmin qurduğu bu yeni anlayışa **"sosial darvinizm"** adı verildi. Sosial Darvinizm bu gün bir çox tarixçinin qəbul etdiyi kimi, faşizmin və nasist ideologiyasının ən əhəmiyyətli əsasını meydana gətirdi. Darvinizmin döyüşü və münaqişəni qanuni kimi göstərən təsiri, Amerikalı tarixçi Paul Krookun Kembric Universiteti tərəfindən çap olunmuş *Darwinism, War and History: The Debate over the Biology of War from the `Origin of Species' to the First World War* (Darvinizm, Döyüş və Tarix: "Növlərin Mənşəyi"ndən I Dünya müharibəsinə qədər döyüşün biologiyası üzərindəki müzakirə) adlı kitabında çox təfərrüatlı olaraq analiz edilir. Krookun bildirdiyinə görə, Darvinizm, döyüşü "bioloji bir lazımlılıq" olaraq göstərərək, istər I Dünya müharibəsinin, istərsə də müxtəlif döyüşçü faşist kütlələrin fikri əsasını meydana gətirmişdir. Krook belə yazır:

...Darvinist təlimlər gücü, statusu, üstünlüyü, hücum və zorakılığı təsdiq etdi. Mədəniyyətlər, cinsiyyətlər, siniflər və irqlər arasındakı fərqliliklər, insanın seçilmə mübarizəsində sabit bioloji ayrı-seçkiliklərə nisbətən zəifləmişdi. **Darvinin döyüş modeli, döyüşləri və imperialist mübarizəni "bioloji bir lazımlılıq" kimi göstərərək hərbi və irqçi tətbiqlərə haqq qazandırdı.(9)** ... (Darvinizm nəticəsində) Döyüş məntiqli hala gətirildi... Frederik Verthamın irəli sürdüyü kimi əgər vəhşilik bütün insanların təbiətində varsa və əgər hamımız günahkarıqsa, onda heç kim günahkar deyildi... I Dünya müharibəsi, neo-Darvinist genetikada və instinkt nəzəriyyəsində yeni bir terminlə şifrələnən vəhşilik əfsanəsinin son haqlılığı olaraq təsvir edilə bilər.(10)

Darvin Tomas Hobbesin deyimi olan "döyüşün təbiəti" sözünü böyük kitabı olan *"Təbii seleksiya"*da paraqraf başlığı olaraq istifadə etməyi düşünmüşdü... "Darvin təbiətdəki orqanizmlərin həyatını təmsil edən olduqca dramatik bir dildən istifadə edərək, **döyüşlərlə, müvəffəqiyyətlərlə, qıtlıqlarla, yoxsulluqlarla və qırğınlarla dolu bir həyat mübarizəsi** olduğu imicini yaratdı *Növlərin Mənşəyini* tamamilə dolduran bir imic.(11) Krookun da ifadə etdiyi kimi Darvin "Növlərin Mənşəyi"ni qarşıdurma və döyüş olaraq göstərmiş və insanların da heyvanlardan törəmiş bir "növ" olduğunu irəli sürmüşdü. Bu hiyləgərlik, döyüş çığırtılarının, qan tökmə ideologiyasının, bir sözlə, faşizmin yarğan kimi böyüməsinə səbəb olacaqdı.

## Vəhşiliyi tərifləyən xəstə beyin: Fridrix Nitsşe

Darvinizmin gətirdiyi neo-bütpərəst anlayışını mənimsəyən, şərh edən və bu yolla faşizmin təməllərini quran çox əhəmiyyətli bir 19-cu əsr mütəfəkkiri daha vardır: Alman filosofu Fridrix Nitsşe. Nitsşe 1844-cü ildə Leypsiq yaxınlığındakı bir alman kəndində anadan olmuş və gənc yaşında yunan dilini öyrənərək yunan mədəniyyətinə maraq göstərmişdir. 1868-ci ildə İsveçrənin Bazel şəhərində fəlsəfə müəllimliyinə başladı. Nitsşe xristianlıq və İslam, yəhudilik kimi digər ilahi dinlərə nifrət edir və qədim Yunanistanın bütpərəst mədəniyyətinə heyranlıq duyurdu. Bazeldə dövrün məşhur bəstəkarı Vaqner ilə yaxın dost oldu. "Tanrıların Alaqaranlığı" (*Die Gotterdammerung*) adlı bəstəsiylə məşhurlaşmış Vaqner də yenə bütpərəst mədəniyyətinə heyran, ilahi dinlərə isə düşmən olan bir alman irqçisi idi. (Hitler dövrü ərzində Vaqner, Almaniyanın ən böyük mədəni dahisi qəbul ediləcəkdi). Nitsşenin kitablarını nəşr edən Peter Gast, onu **"dünyadakı ən qatı ateist və xristianlıq dininin düşmənlərindən biri"** olaraq xarakterizə etmişdi.(12) Nitsşenin ən məşhur kitablarından birinin adının *Dəccal* (*Anti-Christ*) olması, onun dinə olan nifrətinin digər bir ifadəsi idi. Nitsşe *zərdüşt belə buyurdu* adlı kitabıyla da, ilahi dinlərdən kənar bir əxlaq anlayışı yaratmağa çalışmışdı. Nitsşenin ömür hekayəsini qələmə alan tarixçi H.F. Petersin ifadəsiylə, Nitsşenin fəlsəfəsi Roma və yunan bütpərəstliyinə əsaslanır və "dünyanı dəyişdirəcək yeni bir Sezar tapmaq" axtarışının nəticəsi idi. Nitsşe xüsusilə xristianlıq, İslam və yəhudilikdə ortaq olan əxlaq anlayışına böyük nifrət bəsləyirdi. Nitsşeyə görə bu əxlaqın təməli olan şəfqət, mərhəmət, təvazökarlıq, sevgi kimi anlayışlar tərk edilməli və bunun əvəzinə döyüşçülüyü, mərhəmətsizliyi qəbul edən guya "üstün insan əxlaqı" yaranmalıydı.

Nitsşe *Thus spake zarathustra* adlı kitabında, "bütün yazılı əsərlər arasında, mən yalnız insanın qanıyla yazdıqlarımı xoşlayıram. Qanla yazın, beləliklə də qanın ruh olduğunu başa düşərsiniz" demişdir. (Nitsşe Fridrix, Thus Spake Zarathustra, Birinci Bölüm, "Okuma ve Yazma" üzerine)

Nitsşe həmçinin irqçi idi. İnsanların bir qisminin **"üstün insan"** (Übermensch) olduğunu, digərlərinin bunlara xidmət və itaətlə məsul olduğunu müdafiə edirdi. Üstəlik bu qondarma "üstün insanların" quracağı aristokratik bir dünya nizamını müdafiə edirdi. Nitsşenin bu nəzəriyyəsi Hitlerin orduları tərəfindən 1939-cu ildə II Dünya müharibəsinin başlamasıyla tətbiq olunmağa başlayacaqdı. Nitsşenin bu iki xüsusiyyəti, yəni irqçiliyi və şiddətə olan meyli diqqət yetirilsə Darvinizmlə böyük bir uyğunluq təşkil etdiyi görünər. Necə ki, Nitsşe fəlsəfəsini inkişaf etdirərkən Darvindən böyük ölçüdə təsirlənmişdir. Əvvəlcə Darvinin insan irqləri arasında apardığı ayrı-seçkilik, Nitsşenin "üstün insan-aşağı insan" tərifinə uyğun gəlmişdir. Üstəlik Nitsşe dinə qarşı bəslədiyi nifrəti də, Darvinizmin ateizmiylə birləşdirmişdir. Darvinist yazıçı Daniel C. Dennett, *Darwin's Dangerous İdea* adlı kitabında Darvinin Nitsşe üzərindəki təsirini belə ifadə edir: **"Fridrix Nitsşe Darvində çox kosmik bir mesaj tapmışdır... Əgər**

**Nitsşe egzistansiyalizmin atası isə, onda bəlkə Darvinin də bu fəlsəfənin babası sifətini qazanmağı haqqı çatır".**(13)

Dennet, kitabında Darvinin və Nitsşenin fikirlərinin çox üst-üstə düşdüyünü təfərrüatlı olaraq izah edir, Nitsşenin bəzi məqalələrində Darvini tənqid edən kimi görünməsinə baxmayaraq, həqiqətdə Darvinist düşüncəni eynilə mənimsədiyinə dair bir çox nümunə verir.

Nitsşenin ölümündən sonra fəlsəfəsini müdafiə edən və onu təmsil edən ən əhəmiyyətli adam bacısı Elizabet Nitsşe olmuşdur. Elizabet Nitsşe, Hitler Almaniyasında nasist ideologiyasının əhəmiyyətli bir müdafiəçisi olaraq məşhurlaşmış və qardaşının irəli sürdüyü "üstün insan" modelinin Hitler tərəfindən reallaşdırıldığını elan etmişdir.(14) Nitsşenin nasist ideologiyası üzərindəki böyük təsiri bir çox tarixçi tərəfindən vurğulanan konkret bir həqiqətdir. Tarixçi V. Kleo Skousen, **"Hitlerin *Döyüşüm* adlı kitabını yazması, sanki Nitsşenin məzarından danışması kimi olmuşdur"** deyir.(15) Başqa bir tarixçi Corc Likzheim isə belə yazır: **"Nitsşe olmadan, Hitlerin SS birliklərinin Şərqi Avropada törətdikləri qırğınları davam etdirəcək ilhama sahib ola bilməyəcəklərini demək heç də şişirtmə deyil".**(16) Tarixçi H.F Petersin tərifiylə desək, **"Nitsşe faşizmin atasıdır".(**17) Nasist ideoloqu Alfred Rozenberq *20-ci Əsrin Əfsanəsi* adlı kitabında Nitsşeyi tərifləmişdir. Nasistlərin gənclik qolu xüsusiyyətindəki "Hitler Gəncliyi" (Hitlerjugend) təşkilatı, Nitsşenin *Zərdüşt belə buyurdu* adlı kitabını sanki "müqəddəs kitab" olaraq mənimsəmişdir. Adolf Hitler Nitsşenin xatirəsinə xüsusi bir abidə inşa etmiş, üstəlik bununla yanaşı "alman gəncliyinin Nitsşenin üstün irq doktrinasını öyrənə biləcəkləri bir təhsil mərkəzi və kitabxana"nın təməlini atmışdır.(18) "Fridrix Nitsşe zum Gedächniserbau" (Fridrix Nitsşe monumental binası) Hitler tərəfindən 1938-ci ilin avqustunda açılmışdır.

Nitsşenin təsiri yalnız Alman faşizmiylə məhdudlaşmamış, faşizmin ana vətəni İtaliyada da böyük olmuşdur. İtalyanın faşist diktatoru **Mussolininin fikir atası hesab edilən Gabriele D'Annunzio Nitsşe fəlsəfəsindən çox təsirlənmişdir,(**19) Mussolininin də danışıqlarında Nitsşeyə istinadlar etdiyi və onun kitablarından təsirləndiyi, tarixçilər tərəfindən qeyd edilir.(20) Faşizmin banisi olan Nitsşenin 20-ci əsrdə bəşəriyyətə gətirdiyi fəlakətlər bu alman filosofun Darvinist düşüncələrinin nə cür səhv olduğunu göstərən tarixi bir dəlil olmuşdur. Allahın insanlara vəhy yolu ilə öyrətdiyi üstün əxlaqa qarşı çıxan, bunun əvəzinə bütpərəst cəmiyyətlərin qan tökücü, zalım mədəniyyətinə etina edərək bunu müasir dövrə daşımağı qarşısına məqsəd qoyan, Darvinin insanları heyvan kimi görən, onları üstün irq və aşağı irq deyə qruplaşdıran fikirlərini insanlara təlqin edən Nitsşe, dinsizliyin insanları və cəmiyyətləri sürüyəcəyi qaranlıq dünyanı ən yaxşı şəkildə təmsil edir. Nitsşenin həyatı da bu cəhətdən ibrətamizdir. 44 yaşında olarkən ruhi bir xəstəliyə tutulmuş və getdikcə artan xəstəlik nəticəsində tamamilə havalanaraq ölmüşdür. 1902-ci ildə P.J Mobius adlı bir həkim,

insanlara **"Nitşşe barəsində diqqətli olmalarının lazım olduğunu, çünki fikirlərinin xəstə bir beynin məhsulu olduğunu"** xəbər vermişdir.(21) Amma almanlar bu xəstə beynin xəstə fəlsəfəsinə etibar etmiş və bu da nasist Almaniyasını meydana gətirmişdir. Nitsşenin şəxsi həyatı, ən az fəlsəfəsi qədər qaranlıq və xəstədir. Nitsşenin aqibəti də tarix boyu yaşamış bütün inkarçılar kimi çox pis olmuşdur. Nitsşe bir dəlixanada, sifilisdən ölmüşdür.(22) Ayələrdə belə buyurulur:

**Küfrə can atanlar səni kədərləndirməsin. Çünki onlar Allaha heç bir zərər yetirə bilməzlər. Allah istəyir ki, onlara axirətdə heç bir şey nəsib etməsin. Onlar üçün böyük bir əzab vardır. Doğrudan da, imanı əldən verib küfrü alanlar Allaha heç bir zərər yetirə bilməzlər. Onları ağrılı-acılı bir əzab gözləyir. Kafirlər elə güman etməsinlər ki, Bizim onlara möhlət verməyimiz xeyirlərinədir. Biz onlara ona görə möhlət veririk ki, günahlarını daha da artırsınlar. Onlar üçün alçaldıcı bir əzab hazırlanmışdır. (Ali İmran surəsi, 176-178)**

## Yevgenika cinayətlərinin banisi: Frensis Qalton

20-ci əsr faşizminin təməllərini quran başqa bir əhəmiyyətli 19-cu əsr ideoloqu, "yevgenika" nəzəriyyəsinin banisi olaraq tanınan Frensis Qaltondur. Yevgenika anlayışından əvvəlki səhifələrdə bəhs etmişdik. İnsanları bir heyvan növü kimi görən, bundan ötrü də heyvanlar üçün olan qaydaları insanlara tətbiq edən bir zehniyyətin məhsulu olan yevgenika, insan nəslinin də inəklər və ya itlər kimi "heyvan yetişdirilməsi" üsuluyla inkişaf etdirilməsini qarşısına məqsəd qoymuşdu. Yevgenikaya görə bir cəmiyyətdəki əlillərin və xəstələrin çoxalmasının qarşısı alınmalı, (lazım gəlsə bunlar öldürülməlidir) sağlam fərdlər isə bolluca "cütləşdirilərək" sağlam və güclü nəsillər yaradılmalıydı. Bu siyasət, bütpərəst aləminin döyüşçü şəhər dövləti olan Spartada tətbiq edilmiş və Platon tərəfindən də müdafiə olunmuşdu.

Yevgenika xristianlığın hakimiyyətiylə birlikdə tarixin tozlu rəflərinə qoyulmuşdu ki, Çarlz Darvin *Növlərin Mənşəyi* adlı kitabını nəşr etdi. Darvin kitabının ilk hissələrini heyvan yetişdirilməsi mövzusuna ayırmış, məhsuldar inək və ya at cinsləri meydana gətirən yetişdiricilərə diqqət çəkmiş, sonra da *İnsanın Törəməsi* adlı kitabında bu üsulu insanlara tətbiq etməyin mümkün olduğunu irəli sürmüşdü. Darvinin açdığı yevgenika yolunu genişləndirən və yevgenikayı əhatəli bir proqram olaraq təsvir edib dünya gündəminə gətirən adam isə, Darvinin əmisi oğlu Frensis Qalton oldu. Qalton ehtimal edilə biləcəyi kimi, Darvinin qızğın bir pərəstişkarı və davamçısı idi. *Memories of My life (Həyatımın Xatirələri)* başlıqlı tərcümeyi-halında belə yazırdı:

1859-ci ildə *Növlərin Mənşəyi* adlı kitabın Çarlz Darvin tərəfindən nəşr edilməsi,

bəşəriyyətin ümumi düşüncəsində olduğu kimi mənim şəxsi zehni inkişafımda da çox böyük bir dönüş nöqtəsi olmuşdu. Bu (kitabın) təsiri bir çox xurafatçı maneənin bir zərbəylə bir anda yox edilməsi, bütün keçmiş hakimiyyət orqanlarına qarşı bir üsyan ruhunun yüksəlməsi mənasını verirdi (23). Qaltonun öz aləmində "xurafatçı manelər" və "keçmiş orqanlar" kimi anlayışlarla pisləyərək bəhs etdiyi anlayışlar, dini inanclar və dini qurumlar idi. Yəni Darvin Qaltonun guya "böyük bir dönüş nöqtəsi" yaşamasına və inancını itirib dinsizləşməsinə səbəb olmuşdu. Qaltonun dinsizləşməsi, bütpərəst aləminin irqçiliyini mənimsəməsiylə nəticələndi. Qalton Darvinin yanaşı başqa bir təkamülçü ideoloq olan fransız həkim və antropoloq Paul Brocadan da təsirlənmişdi. Broca insan zəkasının beyin (və bu səbəbdən kəllə) həcmiylə düz mütənasib olduğunu irəli sürmüş və bunu guya "isbat etmək" üçün də Paris qəbiristanlıqlarını dəlik-deşik edərək yüzlərlə kəllə ölçmüşdü. Qalton Brocanın beyin həcmi ilə əlaqədar -və səhv olduğu sonradan qəti olaraq sübut ediləcək - xurafatları ilə əmisi Çarlz Darvinin "heyvan yetişdirilməsi" məntiqlərini birləşdirdi. Nəticədə, bəzi insan irqlərinin digərlərindən daha üstün olduğu və üstünlərlə zəiflərin bir-birindən mütləq ayrılmalı olduğu şəklindəki "yevgenika" nəzəriyyəsi meydana gəldi. Qalton fikirlərini ilk növbədə 1869-cu ildəki *Hereditary Genius (İrsi Dahi)* adlı kitabında qeyd etdi. Kitabda ingilis tarixində aşkarladığı bəzi "dahilik"lərdən bəhs edir və bunların özlərinə xas irqi xüsusiyyətlər daşıdığını müdafiə edirdi. (Bu "dahi"lərin arasında əmisi Darvini yerləşdirməyi unutmamışdı). Qalton bu iddiasından sonra, ingilis milləti içində genetik olaraq digərlərindən üstün olan ayrı bir qanın olduğunu və bu qanın qorunması üçün tədbirlər görülməsinin lazım olduğunu irəli sürürdü. Bu nəzəriyyə yalnız ingilislər üçün deyil, bütün irqlər üçün də məqbuldu. Kanadalı yazıçı Lan Taylor, darvinizmin sosial təsirlərini ələ aldığı *İn the Minds of Men* adlı kitabında belə yazır: Qalton **bəzi irqlərin irsi olaraq üstün olduqlarını və üstünlüyün keçmişdən gələn və gələcəyə uzanan sabit və dəyişməz bir fakt olduğunu** irəli sürürdü... Qaltonun bu iddiasının nəticəsi isə, bəşəriyyətin xeyri naminə, üstün gen hovuzunun aşağı gen hovuzuyla qarışmasının hər nə bahasına olursa olsun qarşısının alınmasının lazımlığı idi.(24) Qalton "üstün irqlə aşağı irqlərin qarışmasının qarşısının alınması" üçün qanuni tədbirlərin tətbiq olunmasının lazım gəldiyini də müdafiə edirdi. Qaltona görə nikahlar bu təkamül məqsəd nəzərə alınaraq qanunla bağlanmalıydı. Onda bir müddət sonra "çox üstün bir insan irqi yaradıla biləcəkdi". Qalton bu irqçi-təkamülçü nəzəriyyəsinə ad tapmaq üçün də, nəzəriyyəsinin bir vaxtlar konkret şəkildə tətbiq olunduğu bütpərəst aləminə yönəldi. Yunanca "yaxşı doğum" mənasını verən "yevgenika" sözünü o tapdı və ilk dəfə istifadə etdi. Yevgenika dövrün ibtidai elm anlayışı içində qısa müddətdə geniş kütlələr tərəfindən dəstəkləndi. Darvinizmi qəbul edənlər qaçılmaz olaraq yevgenikayı da qəbul edirdilər. Sonda 1901-ci ildə London Universitetinin nəzdində Eugenic Education Society (Yevgenika Təhsil Dərnəyi) quruldu. Dərhal sonra qurulan British Eugenics Society isə, yevgenika məqsədiylə cəmiyyətdəki bütün şikəstlərin

"sterilizasiya edilməsi", yəni xədimləşdirilməsi lazım olduğunu müdafiə etdi. Çarlz Darvinin oğlu Leonard Darvin 1911-1928-ci illər arasında bu dərnəyin başçısı və gəlib-keçmiş ən aktiv üzvü idi.

Yevgenika İngiltərədən sonra ABŞ-da da özünə tərəfdarlar tapdı. 1920-ci və 1930-cu illərdə Amerikadakı təkamülçü dairələr yevgenika mövzusunda böyük bir təbliğat həyata keçirdilər və bəzi əyalətlər "Sterilizasiya Qanunları" olaraq məlum olan irqçi qanunlar çıxardılar. Bu qanunlar genetik cəhətdən zəif və ya xəstə olduğu düşünülən qadın və kişilərin əməliyyat yoluyla xədimləşdirilməsini nəzərdə tuturdu. Bu qanunlar bu gün ABŞ-da "üz qarası bir irqçilik nümunəsi" olaraq qəbul edilir. Üstəlik, nəzəriyyəsinin elmi həqiqətlərə tamamilə zidd bir xurafat olduğu da qəbul edilir. 2000-ci illərdə çıxarılan insan genomu xəritəsi, fərqli insan irqləri və fərdləri arasındakı genetik fərqin çox-çox kiçik olduğunu və bu fərqliliklərə əsaslanan bir çoxalma siyasəti yürütməyə çalışmağın çox axmaq olduğunu göstərmişdir. İnsan irqlərini Allah bərabər olaraq yaratmışdır. Allah Quranda insanlara belə bildirir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız (irq və ya nəsil cəhətdən üstün olanınız deyil) Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Zəif və irsi cəhətdən xəstə olan insanlara qarşı tətbiq olunacaq çıxış yolu isə, onları bir heyvan kimi "sterilizə etmək" deyil, şəfqət və mərhəmət prinsiplərinin tələbinə əsasən müalicə etmək və qorumaq olmalıdır. Ancaq Allahın bizə öyrətdiyi din əxlaqının bir tələbi olan bu yanaşma əvəzinə, Qərb dünyasında 20-ci əsrin əvvəllərində bütpərəst mədəniyyətin və təkamül nəzəriyyəsinin bir nəticəsi olan yevgenik yanaşma qəbul edilmişdir. Bu bütpərəst və təkamülçü nəzəriyyənin nə cür böyük bir vəhşiliyə səbəb olduğu isə, əsl mənada Almaniyanı, nasist Almaniyasını araşdırdığımızda ortaya çıxır.

## Nasistlərin irq nəzəriyyəçisi: Ernst Hekkel

Darvindən nasistlərə gedən yolda nəzərdən keçirməyimiz lazım olan son ad, 20-ci əsrin əvvəlində Almaniyanın ən məşhur Darvinisti və ən qatı yevgenika tərəfdarı olan zooloq Ernst Hekkeldir. Hekkel elm aləmində "Bireyoluş Soyoluşun təkrarıdır" deyə məlum olan nəzəriyyə ilə tanınır. Bu təkamülçü nəzəriyyəyə görə, hər canlı ana bətnindəki inkişafı əsnasında, atalarının yaşadığı qondarma "təkamül müddəti"ni yenidən yaşayır. Hekkel Darvindən təsirlənərək ortaya atdığı bu nəzəriyyəni dəstəkləyə bilmək üçün bəzi embrion şəkilləri çəkmişdir. Ancaq sonradan Hekkelin bu şəkillərdə qəsdən təhriflər apardığı və nəzəriyyəsinin həqiqətdə elmi bir saxtakarlıqdan başqa bir şey olmadığı aydın olmuşdur. Hekkel elmi Darvinizmə uyğunlaşdırmaq üçün saxta

dəlillər hazırlayan bir fırıldaqçıdır. Hekkelin saxta elminin başqa bir nümunəsi isə nəzəriyyəsidir. Çarlz Darvin, Frensis Qalton və Leonard Darvin kimi adlardan götürdüyü yevgenika nəzəriyyəsini daha da irəli aparmış və qədim Yunanistandakı Sparta modelinə, yəni uşaq qırğınlarına geri qayıtmağı təklif etmişdir: Hekkel, *Wonders of Life* adlı kitabında, **"şikəst doğan körpələrin heç vaxt itirmədən öldürülməsini"** müdafiə etmiş və bu körpələrin hələ bir şüura sahib olmadıqlarını irəli sürərək "bunun bir cinayət hesab olunmadığını" iddia etmişdir.(25) Hekkel yalnız şikəst doğan körpələrin deyil, guya cəmiyyətin təkamül keçirməsinə mane olan bütün xəstə və şikəst insanların "təkamül qanunları"nın tələbinə görə aradan götürülməsini istəmişdir. Xəstələrin müalicə edilməsinə qarşı çıxmış, bu müalicənin təbii seleksiyaya mane olduğunu irəli sürərək belə yazmışdır: Sağalması mümkün olmayan yüz minlərlə xəstə, məsələn ruhi xəstələr, cüzam xəstələri, xərçəng xəstələri süni şəkildə yaşadılır, amma bu özlərinə və ya cəmiyyətə heç bir fayda vermir... Bu pislikdən xilas ola bilmək üçün, səlahiyyətli bir komissiyanın qərarı və nəzarəti altında **xəstələrə güclü və təsirli bir zəhər verilməlidir.**(26)

Hekkelin nəzəriyyəsini qurduğu bu vəhşilik, nasist Almaniyası tərəfindən tətbiq ediləcəkdi. Nasistlər hakimiyyətə gəldikdən qısa bir müddət sonra, rəsmi bir yevgenika siyasəti başlatdılar. Alman cəmiyyəti içindəki ruhi xəstələr, şikəstlər, anadangəlmə korlar və irsi xəstəliklərə tutulanlar, xüsusi **"sterilizasiya mərkəzləri"**ndə toplandılar. Bu kəslərə Alman irqinin xalisliyini və təkamül prosesini korlayan parazitlər kimi baxılırdı. Necə ki, bir müddət sonra cəmiyyətdən təcrid edilən bu insanlar, Hitlerdən gələn gizli bir təlimata əsasən öldürülməyə başlayacaqdılar. Ernst Hekkelin fikirlərinin və ümumiyyətlə Darvinist ideologiyanın, nasizmin təməli olması, mövzunu tədqiq edən bir çox tarixçi tərəfindən dilə gətirilmiş bir həqiqətdir. Amerikalı tarixçi Daniel Gasman, *The Scientific Origins of National socialism: Social Darwinism in Ernst Haeckel and the German Monist League* (Nasizmin Elmi mənşələri: Ernst Hekkelin Sosial Darvinizmi və Alman Monist Birliyi) adlı kitabında, bu mövzuda çox əhatəli dəlillər təqdim edir. Daniel Qasmana görə, **"Hekkel Almaniyanın irqçilik, faşizm və imperializmə dəstək verən ən əhəmiyyətli ideoloqu"** sifətini daşıyır.(27) Hekkel nasizmə həm ideoloji, həm də təşkilati bir miras qoyub getmişdir. Bir tərəfdən yevgenika və irqçilik nəzəriyyəsini yaratmış, bir tərəfdən də "Monist Birliyi" adlı ateist bir dərnək qurmuş və bu dərnək nasistlərin xalqın təhsilli təbəqəsində əks-səda tapmasında böyük rol oynamışdır. Kembric Universiteti tarixçisi və *London Times* qəzetinin yazıçısı Ben Macintyre, Hekkelin nasistlərə miras qoyub getdiyi Darvinist düşüncəni belə izah edir:

Alman embrioloq Hekkel və onun Monist Birliyi, dünyaya və xüsusilə də Almaniyaya, xalqların bütün tarixinin təbii seleksiya ilə izah edilə biləcəyini deyirdilər. Hitler və onun yanlış nəzəriyyələri, irqi təmizlik və ən uyğun olanların yaşaması

naminə irqləri kütləvi şəkildə yox etməyə cəhd edərək bu elmi saxtakarlığı siyasətə çevirdi. **Hitler kitabına *Mein Kampf* (Mənim Döyüşüm) adını verməklə, əslində Hekkelin Darvinin "həyat döyüşü" anlayışına etdiyi tərcüməni əks etdirirdi.**(28) Nasizmin və digər faşist ideologiyaların təməlindəki bu Darvinist təsiri, kitabın sonrakı hissələrində daha təfərrüatlı olaraq nəzərdən keçirəcəyik.

## Bütpərəstliyin qayıtması: Faşizm

Bu hissənin əvvəlində faşizmin bütpərəst mədəniyyətlərdə ortaya çıxan bir vəhşilik sistemi olduğunu ifadə etmişdik. Faşizmin bu vəhşiliyinin əsas səbəbi, "gücə tapınma" fəlsəfəsinə əsaslanmasıdır. Faşizmdə yeganə müqəddəs dəyər gücdür. Güclü olan haqlıdır. Güclü olanın üstün gəlməyə, zəifləri əzməyə haqqı çatar. Faşistlər güclü olanlara heyran qalar, zəiflərə qarşı isə nifrət və alçaltma hissləri bəsləyərlər. Döyüşmək, qan tökmək, mərhəmətsiz və qəddar olmaq bu azğın əxlaqın əsas prinsipləridir. Spartada, Roma İmperatorluğunun qanlı meydanlarında və ya şimal bölgəsində yaşayan kobud bütpərəst qövmlərdə ortaya çıxan bu azğın əxlaqın qarşısında isə, Uca Allahın bizə öyrətdiyi gözəl əxlaq durur. Din əxlaqına görə, əhəmiyyətli olan anlayış "güc" deyil "haqq"dır. İnsanlar güclərinə görə deyil, Allahın bildirdiyi haqqa tabe olub olmamalarına görə qiymətləndirilərlər. Güclü olan, zəifləri əzməklə, onlara təhkim etməklə deyil, onlara şəfqət və mərhəmət göstərməklə məsuldur. İnsanın vəzifəsi mərhəmətsiz və qəddar olmaq, qan tökmək deyil, əksinə şəfqətli və sülhsevər olmaq, zəifləri qorumaqdır. **19-cu əsrdə kök salan müasir faşizm Allahın insanlara əmr etdiyi bu gözəl əxlaqa qarşı çıxan və bunun əvəzinə müşriklərin irqçi, qan tökən, zalım mədəniyyətini yenidən dirçəltmək istəyən ideoloqların bir məhsuludur. Fransız inqilabı ilə başlayan neo-bütpərəst cərəyan, Fridrix Nitsşe ilə formalaşmış və oradan da nasist ideologiyasına köçürülmüşdür. Çarlz Darvin, Frensis Qalton və Ernst Hekkel kimi təkamülçülər isə, Allahın varlığını inkar edərək, bütün həyatı bir "həyat mübarizəsi" kimi göstərərək və irqçiliyi qanuniləşdirərək, yüksələn bu yeni bütpərəstliyə uydurma elmi bir dəstək vermişlər.**

Amerikalı tarixçi Gene Eduard Veiz, *Modern Fascism: Liquidating the Judeo-Christian Worldview* (Müasir Faşizm: Xristian-yəhudi dünyagörüşünün yox edilməsi) başlıqlı kitabında bu həqiqəti qısaca olaraq belə qeyd edir: **"Faşizm müasir dünyanın bütpərəstliyə duyduğu həsrətdir. Faşizm bir mədəniyyətin Allaha olan üsyanıdır".**(29) Nasizm bu həqiqəti çox açıq bir şəkildə ortaya qoymuşdur. Naisistlər istər təşkilatlanma mərhələlərində, istərsə də 1933-cü ildə başlayan hakimiyyətləri ərzində, bütpərəstliyi müdafiə etmişlər və Alman cəmiyyətini xristianlıqdan ayıraraq, bütpərəst inanclara qaytarmağa çalışmışlar.

Nasistlərin ən əhəmiyyətli ideoloqu olan Alfred Rozenberq, hələ 20-ci illərdə, xristianlığın Hitlerin rəhbərliyi altında qurulacaq yeni Alman Krallığı (III Reyx) üçün lazımi olan ruhi enerjini təmin edə bilmədiyini, bundan ötrü də Alman irqinin qədim bütpərəst dininə geri qayıtması lazım olduğunu açıq şəkildə müdafiə etmişdir. Rozenberqə görə, nasistlər hakimiyyətə gəldikləri vaxt kilsələrdəki dini simvollar yerinə svastikalar, Hitlerin *Döyüşüm* adlı kitabı və almanların məğlub edilməzliyini təmsil edən qılınclar yerləşdirilməli idi. Hitler Rozenberqin bu fikirlərini mənimsəmiş, ancaq cəmiyyətdən böyük reaksiya alacağını düşünərək, sözügedən yeni Alman dini nəzəriyyəsini tam olaraq tətbiq etməmişdir.(30) Ancaq nasist rejimi əsnasında yenə də əhəmiyyətli neo-bütpərəst tətbiqləri yaşanacaqdır. Hitlerin hakimiyyəti ələ keçərməsindən bir müddət sonra, xristianlıqdakı müqəddəs günlər və bayramlar ləğv edilmiş və yerlərinə batil bütpərəst dininin guya müqəddəs günləri qoyulmuşdur. Nikah mərasimlərində "Yer Ana" ya da "Göy Baba" kimi xəyali bütpərəst tanrılarına müraciət olunmuşdur. 1935-ci ildə məktəblərdə şagirdlərə xristian duaları etdirilməsi qadağan edilmiş, sonra da xristianlıqla əlaqədar dərslərin hamısı ləğv edilmişdir. Nasistlərin bütpərəst ideologiyalarını (və azğın homoseksual meyllərini) mövzu gətirən *The Pink Swastika* (Çəhrayı Svastika) adlı kitabda ifadə edildiyi kimi, **"Yunan bütpərəstliyinin yenidən ortaya çıxması, nasist şəxsiyyətinin çox vacib bir xüsusiyyətidir".** (31) Eyni kitabda, nasist şəxsiyyətinin əsasını meydana gətirən bu bütpərəst hərəkatın içində, azğın homoseksual bir meylin olduğu da vurğulanır. Kitabda nasistlərin bütpərəst yunan mədəniyyətinə olan bağlılıqları haqqında isə maraqlı bir nümunə verilir:

Almaniyadakı Nitsşe faşizmini xalq arasında yayan "ziyalılar" kimlərdir? Bunlardan biri, o dövrdə Almaniyanın ən məşhur şairlərindən biri olan və oğlan uşaqlarına qarşı anormal şəkildə cinsi meylləri olduğu məlum olan Stefan Corc idi. **Corc və tərəfdarları Griechendeutschen (Helenistik Almanlar) anlayışını gündəmə gətirmişdilər...** Corc 1928-ci ildə nəşr olunan *Das Neue Reich* (*Yeni Krallıq*) adlı kitabında isə, **Almaniyanın yeni bir yunan dövləti halına gələcəyini** iddia etmişdi. Hitler hakimiyyətə gəldikdən sonra Stefan Corcu nasist Ədəbiyyat Akademiyasının başçısı təyin etdi.(32) Nasist hakimiyyəti əsnasında, bütpərəst mədəniyyətinin yenidən dirçəldilməsinə istiqamətli bir çox proqram həyata keçirilmişdir. Şagirdlərə məktəblərdə guya "xristianlıqdan əvvəlki şanlı alman tarixi" öyrədilmiş, nasist Almaniyasının hər bir yerində bütpərəst mədəniyyətdən miras qalan müxtəlif ayinlər və mərasimlər təşkil edilmişdir. Həqiqətdə nasistlərin bütün yığıncaq və mərasimləri klassik bir bütpərəst ayini şəklindədir. Yanan məşəllərin kölgəsi altında, şiddət və nifrət dolu şüarlarla edilən, Vaqnerin bütpərəst musiqisiylə dəstəklənən nasist nümayişləri, min illər əvvəl bütpərəst məbədlərindən və mehrablarından həyata keçirilən azğın tədbirlərdən fərqlənmir. Nasistlər bütpərəstliyi dirçəltmək üçün

incəsənətdən də istifadə etmişdirlər. Nasist hakimiyyətindən sonra incəsənətdə qədim yunan anlayışları və simvolları böyük bir üstünlük qazanmış, Aryan irqinin güclü kişi və qadınlarını göstərən bir çox heykəl, qədim Yunanıstandakı tanrı heykəllərinə bənzədilərək hazırlanmışdır. Hitler heykəllərini düzəltdirdiyi bu guya "üstün insanları" yevgenika üsullarını tətbiq etməklə yaradacağını və bunlarla bütün dünyaya hakim olub, qədim Yunanistandakı Sparta modelində zalım və qəddar bir "dünya krallığı" quracağını xəyal etmişdir. Nasist Almaniyası üçün istifadə edilən "III Reich" (Üçüncü Krallıq) deyimi, bu yuxunun ifadəsidir. (Tarixdə daha əvvəl qurulan iki böyük alman padşahlığından sonra, Hitler üçüncü və ən böyük olanını qurmağa cəhd etmişdir). Və bu xəyallar nəticəsində, dünya daha əvvəl heç görmədiyi qədər qanlı bir müharibəylə, tam 55 milyon insanın ölümüylə nəticələnən II Dünya müharibəsiylə üzləşmişdir. Sonrakı hissədə faşizmin hansı şərtlər altında hakimiyyəti ələ keçirdiyini və keçirdikdən sonra nələr etdiyini nəzərdən keçirəcəyik.

# 20-Cİ ƏSR FAŞİZMİNİN ANALİZİ

Əvvəlki hissədə faşizmin mədəni köklərini nəzərdən keçirdik, bu ideologiyanın keçmiş bütpərəst xurafatların dirçəldilməsiylə yarandığını və Darvinizm tərəfindən dəstəkləndiyini ələ aldıq. Bu məlumatlar 20-ci əsrdə ortaya çıxan faşist ideoloqların və faşist hərəkatların mənşəyini başa düşmək baxımından çox əhəmiyyətlidir. Ancaq bir də bu hərəkatların 20-ci əsrin birinci yarısında necə olub da bir çox ölkədə hakimiyyəti ələ keçirə bildiyini, hakimiyyət dövründə hansı üsullardan istifadə etdiyi və necə bir kabus meydana gətirdiyini araşdırmaq lazımdır. Məlum olduğu kimi, 20-ci əsrin ilk faşist rejimini İtaliyada Benitto Mussolini qurmuşdur. Onu Hitler Almaniyası və Franko İspaniyası təqib etmiş, beləcə Avropa I Dünya müharibəsindən dərhal sonra faşist ideologiya ilə üz-üzə gəlmişdir. 1930-cu illərdə faşizm məşhur bir siyasi ideologiya halına gəlmiş, bir çox ölkədə irili-xırdalı faşist partiyalar qurulmuş, faşistlər Avstriya və Polşada da hakimiyyəti ələ keçirmiş, beləcə bütün Avropa bu cərəyandan təsirlənmişdir.

Faşizmin ən diqqətə çarpan nümunələrinin yaşandığı Avropa ilə Latın Amerika ölkələrində və Uzaq Şərq ölkəsi olan Yaponiyada bu ideologiyanın ortaya çıxdığı şərtlər araşdırıldığı vaxt, böyük bənzərliklərlə qarşılaşırıq. Faşizm ümumiyyətlə ölkənin daxilində baş verən xaos və qeyri-sabitlikdən faydalanılaraq xalqa qəbul etdirilmiş, xilaskar bir ideologiya və sistem kimi tanıdılmışdır. Faşist hakimiyyətin qurulmasından sonra isə, xalq həm təzyiq və qorxuyla, həm də beyin yuma üsullarıyla nəzarət altında saxlanmışdır.

## Faşizmin geniş yayıldığı zəmin: ictimai depressiyalar

I Dünya müharibəsindən sonra qurulan faşist dövlətlərdə, faşizmdən əvvəl hakim olan ictimai və psixoloji zəmin bir-birinə çox bənzəyir. Çox yerdə ölkələr döyüşdə məğlub olub, itkiyə məruz qalmağın gətirdiyi əziklik və əvvəlki gücünü itirmiş ruh halına sahibdirlər. İnsanlar yoldaşlarını, uşaqlarını, yaxınlarını və sevdiklərini müharibədən ötrü itirmişlər. Buna iqtisadi şərtlərin əlverişsizliyi, siyasi qeyri-sabitlik və ölkənin yaşadığı həllsiz ruh halı əlavə olunmuşdur. İnsanlar maddi böhran içindədirlər, ölkənin problemləri ilə əlaqədar olaraq siyasi partiyalar çıxılmaz vəziyyətdir və üstəlik öz aralarında mübahisə edirlər. Məsələn, italyan faşizminin

hakimiyyətə gəlişini asanlaşdıran ən əhəmiyyətli faktor, I Dünya müharibəsindən sonra xalqın qarşı-qarşıya qaldığı səfalətdi. Döyüş nəticəsində 600 000-dən çox insan ölmüşdü. Yarım milyona qədər insan şikəst qalmışdı, iqtisadi böhran və işsizlik hakim idi. Əhalinin əksəriyyəti dullar və yetimlərdən ibarət idi. Müharibə italyanlara böyük itkilər gətirmiş, amma nəticədə məqsədlərinin çox azına nail ola bilmişdilər. Bundan başqa müharibədən əldən düşmüş və yorğun çıxmış bir çox xalqda olduğu kimi, italyan xalqı arasında da görkəmli qələbələrin və təmtəraqlı günlərin həsrəti çəkilirdi. Bu psixologiya əslində 19-cu əsrin sonlarından etibarən xeyli güclənməyə başlamışdı. Keçmiş dövrlərdəki böyük İtaliya (yəni Roma İmperasiyası) həsrətlə xatırlanır və keçmiş Roma torpaqları üzərində haqq iddia edilirdi. Həmçinin dünyada söz sahibi olan böyük ölkələrə qarşı da rəqabət hissi bəslənilir və İtaliyanın da onlarla eyni səviyyəyə gəlməsi və ya digər bir sözlə "layiq olduğu yerə" çıxması gözlənilirdi. Bu düşüncələr içində romantik bir sistemə daxil olan İtalyanlar Fransa, İngiltərə və Almaniya kimi böyük dövlətlərlə eyni gücə çatmağı ümid edirdilər. Almaniyada nasizmin kök salmasında da ictimai, siyasi və iqtisadi böhranlar əsas rolu oynadı. I Dünya müharibəsində məğlub olmuş Almaniyada, məğlubiyyətin gətirdiyi xəyal qırıqlığına işsizlik və maliyyə böhranı da əlavə olundu. İnflyasiyanın səviyyəsi dünya tarixində az müşahidə olunan bir göstəriciyə yüksəldi. Kiçik uşaqlar, milyonlarla marklık dəstələrlə oyun oynayırdılar, çünki hər saat öz dəyərini itirən pul işə yaramaz bir kağız halına gəlirdi. Almanlar sındırılan qürurlarını bərpa etmək və təkrar normal standartda bir həyat yaşamaq istəyirdilər. Nasizm bu vədlə ortaya çıxacaq və dəstək toplayacaqdı. İspaniyadakı faşizmdən əvvəlki zəmin də digərlərinə xeyli bənzəyirdi. 19-cu əsrin əvvələrində İspaniyanın, Amerikanın hər iki tərəfindəki müstəmləkələrini itirməsi ölkədə xeyli pis bir əhval-ruhiyyə yaratmışdı. 20-ci əsrin əvvəllərində isə İspaniya yarı çökmüş bir dövlət vəziyyətində idi. İqtisadiyyatı məhv olmuşdu, soylulara verilən imtiyazlar ölkədə böyük haqsızlıqlara səbəb olurdu. İspan xalqı da keçmişdəki böyük və güclü İspaniyanın xeyli həsrətini çəkirdi. Faşizmin əhəmiyyətli dərəcədə öz təsirini göstərdiyi digər bir ölkə də Yaponiyadır. Faşizmdən əvvəlki dövrdə yapon gəncləri arasında Marksist fikirlərin yayılması yuxarı təbəqədə böyük bir narahatlıq meydana gətirmişdi. Ancaq bu dağıdıcı ideologiyadan qorunmağın və xilas olmağın yollarını tapa bilmirdilər. Digər tərəfdən adət-ənənələrinə möhkəm şəkildə bağlı olan bu millət üçün ictimai sahədə baş verən bu dəyişikliklər qorxunc idi. Ailə əlaqələri zəifləmiş, boşanmalar artmış, yaşlılara hörmət edilməyən bir vəziyyət yaranmış, adət və ənənələr bir kənara qoyulmuş, fərdçiliyə qarşı bir meyil yaranmış, gənclər arasındakı korlanma böyük ölçülərə çatmışdı. Bununla əlaqədar olaraq intihar göstəricilərində də bir artım nəzərə çarpırdı. Bu halıyla ictimai quruluşun gələcəyi heç də parlaq görünmürdü. Bütün bunlar cəmiyyətdə keçmiş dövrlərə qarşı bir həsrət yaratdı. Keçmişdə yaşanan xoş günlərə çəkilən həsrət ya da keçmişdəki mühiti dirçəltmə səyi, faşist sistemlərə keçitdə xalqın düşdüyü ilk tələ olurdu.

Həmçinin o vaxtlar dünyanı təhdid edən kommunizm təhlükəsini də göz qabağında saxlamaq lazımdır. Bir çox ölkə bəlkə də beləsinə mərhəmətsiz, qanlı və repressiv bir ideologiyaya əsir olmamaq üçün "pisin yaxşısı" zənn etdikləri bir rejim olan faşizmə boyun əymiş, beləcə bir təhlükədən qaçarkən başqa bir təhlükəyə tutulmuşlar.

## Faşizmin asan hədəfləri: Cahil kütlələr

Faşist sistemin yaranmasına səbəb olan digər bir faktor kütlələrin cəhalətidir. Avropanı dəridən qabıqdan çıxaran I Dünya müharibəsiylə birlikdə təhsildə də böyük bir geriləmə yaşanmış, bir çox təhsilli gənc insan döyüş sahələrində ölmüşdür. Bu, cəmiyyətin ümumi mədəniyyət səviyyəsini aşağı salmışdır. Məhz ümumiyyətlə faşizmə dəstək verənlər, onun uğrunda mübarizə aparanlar və onun təcavüzkar siyasətlərinə alət olanlar bu cahil insanlardır. Çünki faşizmin əsas fikri dayaqları (yəni irqçilik, romantik milliyyətçilik, şovinizm, xəyalpərəstlik və s.) ancaq cahil insanlar tərəfindən böyük miqyasda qəbul edilə biləcək olduqca səthi və sadə ifadələrə əsaslanır. Özlərini hər cəhətdən çıxılmaz vəziyyətdə görən və sadə bir çıxış yolu axtaran bu kütlələr, sanki "həyatının parçasını" tapmış kimi faşist liderlərə sarılmışlar. Erik Hoffer *"qəti inananlar*" adlı kitabında belə bir şeyi aşkarlamış olur:

Adamlar böyük rejim dəyişikliyi hərəkətlərinə qaçıb uymaları üçün xeyli narazı olmalı, lakin həddindən artıq yoxsulluq içində yaşamalıdırlar. Və həmçinin yaxşı bir təlimə, səhvliyə yol verməyən bir rəhbərə və ya yeni bir texniki üstünlüyə sahib olmaq yolu ilə məğlubedilməz güc mənbəyi qapılarının özlərinə açılacağına inanmaları lazımdır. Həmçinin də gələcəyə dair vədlər və imkanlar haqqında şişirdilmiş bir inanca sahib olmaları lazımdır. Və nəticə etibarilə qoşulduqları böyük həmlənin həyata keçirilməsində qarşılaşılacaq çətinliklərdən xəbərsiz olmaları lazımdır.(33) Faşizmdən əvvəlki şərtlər nəzərdən keçirildikdə həqiqətən də xalqların bu psixologiyaya sahib olduğu görünər.

## Faşistlərin hakimiyyəti ələ keçirmə metodları

Faşizm ilk müvəffəqiyyətini İtaliyada əldə etdi. İtaliyadakı ictimai gərginliyi və sistem axtarışını fürsət bilən Mussolini döyüşün bitməsindən sonra köhnə əsgərləri, işsizləri və universitet tələbələrini bir yerə topladı. Liderlik etdiyi faşist qrup Romanın keçmişdəki xoş güzəranını geri qaytarma şüarıyla özünü tanıdırdı. Mussolini tərəfdarlarını **"Qara Köynəklilər"** olaraq tanınan yarı-hərbi bir quruluş içində

təşkilatlandırdı. Qara Köynəklilərin tətbiq etdiyi üsullar zorakılığa əsaslanırdı. Rəqib gördükləri qruplara qarşı küçə hücumları həyata keçirməyə başladılar. Roma üsulu salam tərzləriylə, mahnılarıyla, vahid formalarıyla, şüar və rəsmi paradlarla cahil və ümidsiz xalq üzərində romantik bir həyəcan meydana gətirdilər. 29 oktyabr 1922-ci ildə faşistlər altı generalın əmriylə 50 min faşist milislə gedərək Romaya daxil oldular. Kral qarşısındakı qüvvənin zorakılıq və təzyiqlə nələr edə biləcəyini və onlara müqavimət göstərməyin qeyri-mümkün olduğunu bildiyi üçün, hökuməti qurmaq məqsədiylə Mussolinini çağırdı. Bunun ardınca baş verən hadisələr nəticəsində italyan faşistləri hakimiyyəti əllərinə keçirdilər. Mussolini bir müddət sonra digər bütün siyasi partiyaları bağlatdırdı. Müxalifət liderlərinin bir qismi ölkədən xaricə getdi, bir qismi də həbs olundu. Hitler də bənzəri üsullarla hakimiyyətə gəldi. Nasist hərəkatı 1920-ci illərin əvvəlində meydana gəlmiş və hələ o illərdə məşhur Pivəxana Zərbəsi təşəbbüsüylə ilk şiddət hərəkatını reallaşdırmışdı. (Hitler 8 noyabr 1923-cü ildə qruplaşmanı xatırladan birlik əsgərləri və 600 SA əsgəriylə birlikdə Bavyera Dövlət Komissarı Qustav Qahrın çıxış etdiyi Münhen şəhər pivəxanasındakı yığıncağa basqın etdi. Hitler yığıncağın ortasında, böyük bir hirslə içəri daxil olaraq salonu işğal etdi, tavana atəş açaraq milli inqilab elan etdiyini dedi. Ancaq bu zərbə müvəffəqiyyətli olmadı, Hitler həbs olundu və 9 aylıq sürgün həyatı yaşadı). Daha sonrakı illərdə faşistlər rəqiblərini qorxudaraq, yəhudi düşmənçiliyini qızışdıraraq gücləndilər. Sonda nasist partiyası parlamentin əhəmiyyətli partiyalarından biri halına gəldi. Əlbəttə ki, bunu edərkən nasistlər eynilə italyan Faşist Partiyasının etdiyi kimi tez-tez qeyri-qanuni yollardan istifadə edirdi. 1933-cü il 30 yanvar günündə Hitler baş nazirliyə təyin edildi. Onu bu vəzifəyə gətirən yaşlı prezident Hindenburg idi. Çünki nasional-sosialist hərəkat təhlükəli bir şəkildə güclənirdi. Bunu görən Hindenburgda bir vətəndaş müharibəsinin baş verməsinə imkan verməmək məqsədiylə Hitleri bu vəzifəyə gətirdi. Hitler mart ayında yeni bir seçkiyə namizədliyini irəli sürdü. Bu seçkidə nasistlər faşist rəhbərlərin hamısının etdiyi kimi qorxutma, həzm etmə və hiylə üsullarına müraciət etdilər. Beləcə həm icra, həm də qanunvericilik gücü Hitlerin əlinə keçmiş oldu. Ancaq qısa bir müddət sonra Hitlerin səlahiyyətləri daha da artacaqdı. Necə ki, 1934-cü ilin avqustunda Hindenburgun ölümündən ötrü, prezident və baş nazirlik orqanları birləşdirildi. Hitler hər ikisinin də idarəsini öz boynuna götürdü. Hitler Mussolininin izlədiyi siyasəti təqib edirdi. Gücdən istifadə etməklə yanaşı hər cür anti-demokratik üsula da müraciət edə bilirdi. Məsələn, bütün müxalifət partiyalarını bağladı, həmkarlar ittifaqını qeyri-qanuni elan etdi, insan azadlıqlarını isə tamamiylə aradan qaldırdı. Universitet müəllimləri belə Hitlerə sədaqət andı içməli idi. Nasist təzyiqi həyatın hər sahəsinə daxil oldu. Franko isə İspaniyada qanlı bir vətəndaş müharibəsindən sonra hakimiyyətə gəldi. Hitler və Mussolini tərəfindən dəstəklənən Frankonun orduları uzun və qəddarcasına həyata keçirilən bir müharibə nəticəsində əleyhdarları olan kommunistləri məğlub edərək

İspaniyanı hakimiyyətləri altına saldılar. Sonra da Franko olduqca repressiv bir rejim qurdu və ölkəni 1975-ci ilə qədər "dəmir yumruq" siyasətiylə idarə etdi.

## Faşistlərin beyin yuma metodları

İstər italyan faşizmində, istərsə də nasist Almaniyasında diqqət çəkən özünü büruzə verən bir xüsusiyyət vardır: Faşizm cəmiyyətin beynini yumağı qarşısına məqsəd qoyan bir sistemdir. Bunun iki əsas üsulu isə təhsil və təbliğatdır. Adolf Hitler *Döyüşüm* adlı kitabında "təbliğat güclü bir silahdır və xidmət etdiyi məqsədə görə qiymətləndirilər. Məqsəd alman millətinin həyat üçün mübarizəsi olduqda isə ən qorxunc silahlar ən insani silah halına gəlir. Təbliğat xitab etdiyi zümrədə ən zəif ağıllıların belə başa düşə biləcəkləri bir səviyyədə olmalıdır" deyirdi.(34) Həqiqətən də Hitler təbliğat silahından təsirli şəkildə istifadə etdi. Məsələn, məşhur rejissor Leni Riefenstahla nasist təbliğatıyla əlaqədar bir film hazırlandı (*Olympia*). Hitlerin sanki müqəddəs bir adam kimi göstərildiyi Leni Riefenstahl tərəfindən çəkilmiş əvvəlki film *"Triumph of the Will"* də təsirli bir təbliğat xarakterli idi. Bütün bu filmlərdə, nasistlərin bütpərəst ideologiyası təriflənir və cəmiyyətə təlqin edilirdi. Olimpiya, qədim Yunanıstandakı bütprəst mədəniyyət mərkəzlərindən biri idi. Xəyali yunan Tanrısı Zevsin məşhur heykəlinin də olduğu şəhər, nasizmin bütpərəst ideologiyasının yaxşı bir simvolu idi. Yalnız Hitler deyil, bütün faşistlər təbliğat silahından məharətlə istifadə etdilər və xalqı istiqamətləndirməyi bacardılar. Mussolini **"müasir insan, aldadılmağa olduqca əlverişli bir varlıqdır"** deyərkən əslində istifadə etdiyi metodu açıq şəkildə ifadə edirdi.(35)

## Zidd fikirlərin təzyiqlərlə yox edilməsi

Faşizmin cəmiyyətin beynini yuma səyinin maraqlı bir əlaməti nasist Almaniyasında müşahidə olunan kütləvi kitab yandırma mərasimləridir. Bu mərasimlərin birincisi 1933-cü il 10 may tarixində həyata keçirildi. Əvvəllər dünyanın ən yaxşıları olaraq tanınan alman universitet tələbələri Berlin və Almaniyanın digər şəhərlərində toplanıb **"almanların sözü olmayan" fikirlərlə dolu kitabları yandırdılar.** Minlərlə kitabı ətrafında nasist salamı verərək, nasist marşı və mahnıları oxuyaraq oda atdılar. Nasist təbliğatının məsulu Cozef Goebbels Berlində şagirdlər qarşısında etdiyi çıxışında bunları demişdi: "...Alman inqilabının ani hücumu yenə almanların çəkdiyi istiqamətdəki yolu işıqlandırmışdır. Gələcək alman vətəndaşı yalnız kitabların adamı olmayacaq, lakin xarakter adamı olacaq. Biz sizi bu aqibətə hazırlamaq üçün öyrətmək istəyirik. Bu gənc nəslin vəzifələri gənc bir insan olaraq, mərhəmətsiz baxışla üzləşmək üçün lazım olan cəsarətə sahib olmaq, ölüm qorxusunun öhdəsindən

gəlmək və ölüm üçün hörməti yenidən qazanmaqdır. Və beləcə gecənin bu saatında keçmişin pis ruhunu yandırmaqda müvəffəqiyyət əldə edərsiniz. Bu güclü, böyük və simvolik bir hərəkətdir. Bu hərəkət qeyd edəcəklərimi dünyanın qarşısında hər kəsin öyrənməsi üçün sənədləşdirilməlidir. Burada Noyabr (Demokratik) Respublikasının ziyalı sistemi yox olur, lakin bu izdən çıxacaq yeni bir ruh qələbəylə yüksələcək..."

**(http://www.historyplace.com/worldwar2/ holocaust/h-bookburn.htm)**

**Kitab yandırmaq faşist rəhbərliklərin ən diqqətə çarpan xüsusiyyətlərinin bir əlamətidir. Faşist dövlət yalnız öz ideologiyasının öyrənilməsinə izn verər.** Bunun xaricində heç bir insan hər hansı bir başqa fikirə sahib olmamalıdır. Bu fikrindən ötrü ya cəzalandırılar, ya kitabı yandırılar, ya da bir yolla susdurular. Hər fərd yalnız dövlətin ideologiyasına xidmət edən bir vasitə kimi görünür. Bu ideologiyanı mənimsəməyənlərə isə güc və təzyiqdən istifadə etməklə istənilən hər şey etdirilir. Bundan ötrü təhsil sistemi də tamamilə faşist dövlətin ideologiyasına istiqamətli olaraq qurulmuşdur. Nasional-sosializmin əsas prinsiplərinin 20-ci maddəsində bütün təhsil sisteminin dəyişdirilməsi prinsipi dururdu. Əlbəttə ki, bu dəyişiklik faşizm istiqamətində idi. Hələ ibtidai məktəb dövrlərindən etibarən uşaqlar hər cür əxlaqi dəyərlərə, insani duyğulardan uzaq, sevgi və mərhəmətdən məhrum olaraq duyğusuz bir şəkildə yetişdirilirdilər. Güclü olanın həmişə haqlı olduğu prinsipiylə yetişdirilir, kobud qüvvətin məqsədə çatmaq üçün şərt olduğuna inandırılırdılar. 10-18 yaşındakı alman uşaqlarına xitab edən təşkilat isə **"Hitler Jugend",** yəni Hitler Gəncliyi idi. Hitler Jugendeyə üzv olanların hamısından sosial həyatlarında çox diqqətli olmaları və nasist əleyhdarlarını şpionlamaları tələb olunurdu. Aralarından ata analarını şikayət edənlər belə çıxırdı. Hitler gəncliyi getdikcə böyüdü və 1935-ci ildə bütün gənc əhalinin 60%-ni öz tərkibi altında saxlayan hala gəldi.

Yenə faşist rejimlərin tətbiq etdikləri ortaq taktikalardan biri də xalqı və xüsusilə də gəncləri təhsildə məkrli bir siyasətlə istiqamətləndirmələri idi. Cəmiyyətdən **tarixi həqiqətləri gizlədir, bunun əvəzinə özləri tərəfindən yaradılmış xəyali bir tarix öyrədirdilər.** Buradakı məqsəd isə xalqı faşist ideyalar əsasında birləşdirə bilmək və onları faşist siyasətlər mövzusunda şövqləndirəcək, faşizmə daha da bağlanmalarını təmin edəcək bir mədəniyyət meydana gətirmək idi. Təhsil mərhələlərində istər tarix, istərsə də fəlsəfə tamamilə faşist dövlət tərəfindən təşkil edilirdi. Beyinlər hiss etdirilmədən faşist ideologiya ilə yuyunur, bundan başqa bütün fikirlərə senzura tətbiq edilirdi.

## Faşizmin bütləri: müqəddəs hesab edilən liderlər

Faşizmdə ən əhəmiyyətli ünsür faşist liderdir və hər mövzuda ən çox onun adı ön plana çıxar. Hitler Mussolini və ya Franko rejimləri bunun ən bariz nümunəsidir. Bu

diktatorlar üçün istifadə edilən "Führer", "Duce" və "Caudillo" kimi sifətlər, "yanılmaz lider" mənasını verir. Necə ki, hər üçü də cəmiyyəti tamamilə öz təşəbbüsləriylə idarə etmiş, ən yaxınlarını ya da vəzifə baxımından ən yüksək dövlət işçilərini belə qərar mexanizmində təsirsiz buraxmışlar. Faşizmdə liderin yaraşıqlılığının qorunması və xalq tərəfindən də qəbul edilərək gücləndirilməsi üçün o adama sanki ilahi bir güc istinad edilir. Lider bütün ölkənin və xalqın sahibi və hətta şəxsən özü kimi göstərilir. Hitler belə demişdir: **"Mən hamınızdayam, hamınız isə məndəsiniz"**.(36) Buna bənzər şəkildə İtaliyada da Mussolini xüsusi qabiliyyətləri olan, seçilmiş və vəzifələndirilmiş guya üstün bir insan kimi görülmüşdür. Mussolini nəşr etdiyi əmr və bildirişlərə "On Əmr" adını vermişdi. Bu "On Əmr"in 8-ci maddəsində iştirak edən, **"Duçe həmişə haqlıdır"** sözü 20-ci və 30-cu illərdə bütün İtaliyada əks-səda doğurmuş bir şüardır.(37) Uşaqlara faşizmi aşılamaq üçün hazırlanan Balillanın təməl inancı "Müqəddəs Papa"nın şəxsində faşizmə inanıram" deyə başlayır, **"Mussolininin dahiliyinə iman edirəm"** sözləri ilə davam edir. Faşist liderlərin müqəddəs göstərilməsi üçün istifadə edilən üsullardan başqa biri də ölkənin hər yerində faşist liderin heykəl və nəhəng plakatların olması idi. Bunun insanlar üzərində böyük bir psixoloji təsiri olur, xalq həmişə faşist liderin güc və nəzarətini öz üzərində hiss edir, sanki hər an onun tərəfindən izlənildiyi düşüncəsinə qapılırdı. Mussolininin rəsmi təbliğat xidməti mətbuata nə vaxt hansı fotoşəkilin çap olunacağını, hansı səhifədə, hansı nizamda və hansı ölçülərdə dərc olunacağını da bildirirdi. Bu şəkillərdə "Duçe", xalqın gözü qarşısında dəbdəbəli fotoşəkillərdə, qılıncını çəkərkən, xırman yerində iqtisadi inkişafı qeyd edərkən, gənc faşistlərə səslənərkən, yorulmaq bilməyən bir işçi və ya bir idmançı kimi əks olunardı. Bütün bu nəşrlərdə Mussolini hər şeyin ən yaxşısını edən bir insan kimi tanıdılırdı. Təyyarə istifadə edərkən, atla maneələrin öhdəsindən gələrkən, üzərkən, Alp dağlarında xizəklə sürüşərkən, qılınc oynadarkən, paraşütçü paltarıyla və s. şəkilləri qəzet səhifələrini bəzəyirdi. Mussoliniyə aid bu guya əlçatmaz üstün insan özüylə fəxr etməsinin nəticəsində, keçmiş dostları belə onu gördükləri vaxt artıq "hazır" vəziyyətə keçirdilər. Mussolini bu yolla öz nəfsinin istəklərini də təmin edirdi. Yanına daxil olan keçmiş dostlarına belə "oturun" deməz, onları uzun müddət ayaqda saxladardı.

Faşist lideri sanki insandan üstün bir varlıq kimi göstərməyə xidmət edən təbliğat üsulları, Mussolini və Hitler dövründə müşahidə olunduğu kimi, bu gün müasir faşistlər tərəfindən də istifadə edilir. İraqın faşist diktatoru **Səddam Hüseyn** bunun bir nümunəsi idi. Faşist İraqda küçələr və prospektlərdə illərdir ki, Səddamın nəhəng plakatları asılır. Bu nəhəng plakatlarda Səddam həmişə fərqli şəxsiyyətlərlə insanların qarşısına çıxır; çirkli sahələrdə bir cütçü, fabriklərdə işçi, ərazidə əsgər olaraq "xalqına" varlığını hiss etdirir, "hər şeyi görən və bilən" bir varlıq təəssüratı verməyə çalışır, digər bir sözlə özünü müqəddəs göstərməyə çalışır.

## Faşist romantiklik

Şübhəsiz ki, faşizm yalnız liderdən və lider ətrafında toplanan faşist partiyalardan ibarət deyil. İstər nasist Almaniyasında, istərsə də İtaliyada, rejimlərin arxasında böyük bir xalq dəstəyi olmuşdur. Bu dəstək isə, faşist rejim tərəfindən müxtəlif üsullarla yaradılmışdır. Faşist rejimlər xalqlarını yalnız təzyiqlə susduran "avtoritar" rejimlər deyil, həmçinin onları müəyyən bir məqsəd uğrunda motivasiya edən "totalitar" rejimlərdir. Bu totalitar sistemdə kütlələri faşist ideologiyanın ətrafında toplayan ən əhəmiyyətli ünsür isə "həddindən artıq romantiklik"dir. Ətraflarındakı və tarixdəki anlayış və hadisələri ağıldan olduqca uzaq bir şəkildə, romantik olaraq qiymətləndirən insanlar, çox asan idarə olunmuşdur, təhrik ediləcək və cinayət törədən xarakterdədirlər. Bu kəslər əgər özlərindən tələb olunan zalımcasına hərəkətlərin "öz irqlərinin üstünlüyü" kimi guya müqəddəs bir məqsəd üçün olduğuna razı salınsalar, hər şeyi edə bilərlər. Bunu görən faşist rejim kütlələrin romantik bir coşğu və təşviqat içində tutulmasına cəhd göstərər. Ortaya bəzi batil müqəddəs dəyərlər qoyar və onlara bu dəyərlər naminə insanın canını fəda etməsinin, başqa insanları alçaltmasının, işgəncə verməsinin və öldürməsinin vacibliyini təlqin edər.

Buna görə də faşist rejimlərdə kütləvi nümayiş, yürüş, yığıncaq və mərasimlərə böyük əhəmiyyət verilmişdir. Məqsəd toplum halında tək tip bir birlik yaratmaq və bu birliyə hökm etməkdir. Simvollar, heykəllər, xatirə günləri, bayraqlar, bayraqcıqlar, vahid formalar kimi ünsürlərlə insanlar haqq dindən uzaqlaşdırılır və bu romantik coşğular onlara sanki bir din kimi yaşadılır. Sanki ilahi bir gücə ibadət edirmiş kimi, bu insanlar böyük bir həyəcan və coşğuyla faşist yanılmaya özlərini həsr edərlər. Halbuki bu, böyük bir yalandan ibarətdir, ancaq faşizmin azğın təlqinlərinə aldanan kəslər, həyata keçirilən təbliğatdan ötrü düşdükləri vəziyyəti başa düşə bilməzlər.

Yazılan, haykırılar, dəfələrlə təkrarlanan şüarlar, qışqırıqlar, marşlar, salamlar faşist ayinlərin əhəmiyyətli bir hissəsini təşkil edir. Faşist dəstələr ağıllı düşüncə və davranışdan qətiyyən uzaqdırlar. Ortada müxtəlif şüarlarla, mahnılarla və ya şeirlərlə coşdurulmuş, ağlını işlədə bilməyən bir dəstə vardır. Keçmişdəki mifologiya və ya əfsanə qəhrəmanlarıyla özlərini və liderlərini eyniləşdirmələri təmin edilən bu kütlələr, qırğınlarını da yenə bu süni şəkildə yaradılmış "qəhrəmanlıq" duyğularıyla edərlər. Hətta bir gün gəlib də haqq-hesaba çəkildiyində bunu millətləri üçün etdiklərini və əslində özlərinin bir milli qəhrəman olduqlarını deyərlər. Hitler və Mussolininin arxasınca gedənlərin hamısı eyni hipnozun təsiri altında davranmışdılar, qırğınlarını bu süni coşğu halında həyata keçirmişlər. Faşizmdə, bir insanın dövlətinə, millətinə və vətəninə olan qanuni sevgisi təhlükəli bir romantikliyə, ağılsız bir cəsarətə çevrilir və

bu hisslərdən istifadə etməklə kütlələrə cinayət işlədilir. (Baxın. *şeytanın bir silahı: romantizm*, Harun Yəhya) Bundan ötrü də, **mülayim və ağıllı milliyyətçiliklə, faşizmin irqçi və təcavüzkar millətçilik anlayışını ayırd etmək lazımdır.**

Bunun ən gözəl nümunəsi Türkiyə Respublikası dövlətinin konstitusiyasında ifadə olunan milliyyətçilik anlayışıdır. Atatürkün təsvir etdiyi bu milliyyətçilik anlayışında irqçilik qətiyyən yoxdur. Türkiyə Respublikası torpaqları üzərində yaşayan hər fərd, dil, rəng, irq ayrı-seçkiliyi aparılmadan Türk Millətinin bir üzvüdür. (Atatürkün "Nə xoşbəxt Türkəm deyənə" sözüylə qısaca qeyd etdiyi bu milliyyətçilik tərifi olduqca ağıllı və əhəmiyyətlidir. Çünki Türkiyədə müxtəlif etnik qruplar bir arada yaşayır. Bu kəslərin hər biri Türkiyə Respublikasının vətəndaşıdır və hər kəslə eyni hüquq və azadlıqlara malikdir. Atatürk milliyyətçiliyi, nasizm kimi bir milləti irqi mənşələrinə görə firqələrə ayıran yanlış bir milliyyətçilik deyil, əksinə fərqli etnik mənşələri uyğunlaşma içində birləşdirən doğru bir milliyətçilikdir.)

## Faşizmin saxta müqəddəs dəyərləri

Faşizm ilahi dinləri aradan qaldıraraq onların yerinə batil bütpərəst inancları gətirmək istəyən saxta bir dindir. Bu saxta dinin də normal olaraq saxta müqəddəs dəyərləri vardır. Məsələn, nasistlər **"Qan və Torpaq"** (*Blut und Boden*) şüarından daima istifadə etmiş və bu iki anlayışı müqəddəs bir simvol halına gətirməyə çalışmışlar. Bunun üçün xüsusi ayinlər keçirmişlər. Məsələn, Hitlerin 1923-cü ildəki müvəffəqiyyətsiz zərbə cəhdi vaxtı yaralanan nasistlərin qanlarıyla islanmış bir partiya bayrağı, sanki bir bütə çevrilmişdir. **"Qan Bayrağı"** (*Blutfahne*) adı verilən bu bayraq olduğu kimi saxlanmış və hər nasist mərasimində ən müqəddəs simvol olmuşdur. Hətta nasist partiyasının on minlərlə yeni bayrağı *Blutfahneye* sürtülmüş və ondakı "guya müqəddəs" gücün beləcə bu yeni bayraqlara da keçdiyi düşünülmüşdür.(38) Faşizmin digər bir əsas xüsusiyyəti olan şiddət və döyüş də yenə müqəddəs bir dəyər kimi göstərilmək istənilən bütpərəst anlayışlardır. İlahi dinlərdəki məqsəd şiddətdən və döyüşdən təmizlənmiş bir cəmiyyət və dünya meydana gətirməkdir. Halbuki, faşizmdə döyüş öz-özlüyündə bir dəyərdir. Bir qəbilənin, irqin və ya xalqın, şərəfini və gücünü apardığı döyüşlərdən və verdiyi ölülərdən qazandığına inanılar. Bu batil inanc, normal olaraq yeni döyüşlərin baş verməsini, qan tökülməsini tələb edir. Beləcə faşizm sanki bir "qan tökmə quyusu" kimi daima yeni vəhşiliklərə hazırlaşır.

## Faşist dövlətin xəyali düşmənləri

Faşizm içi olduqca boş olan bir ideologiyadır və ayaqda qalmaq üçün daimi bir təşviqat mühitinə ehtiyac duyar. "Daxili və xarici düşmənlər" əfsanəsi, faşist dövləti

xalqının gözündə gücləndirən ən əhəmiyyətli faktordur. Hər faşist dövlət xəyali düşmənlər meydana gətirər və bu xəyali düşmənlərə qarşı bütöv halda bir döyüş elan edir. Mətbuat orqanlarında bu düşmənə qarşı əldə olunan qələbələr hər gün elan edilməklə diktatorluq gücləndirilər. Və "xalqı bu böyük təhlükələrdən qorumaq üçün müxaliflərə qarşı sərt və mərhəmətsiz bir rəftar göstərilməlidir" təlqini verilər. Daima "biz və onlar" fəlsəfəsi ilə xalqın xəyali düşmənlərə qarşı faşist rəhbərliklə birləşməsi təmin edilər. Beləliklə də hüququn tapdalanmasına, insan hüquqlarının pozulmasına və dövlət terroruna səbəb olar. Faşizmi tənqid edənlər isə dərhal xəyali düşmənlə əməkdaşlıq etməklə itham olunurlar.

Hitler kommunizmi və yəhudiləri, Mussolini kommunistləri, dövrümüzdəki faşistlərdən olan Miloşeviç isə müsəlmanları bir təhlükə olaraq seçmiş və bu təhlükəyə qarşı süni bir birlik meydana gətirmişlər. Bu süni təhlükə faşist dövlətin ən böyük təbliğat silahıdır. Çünki ortada böyük bir təhlükə varmış kimi göstərilir və xalqı bu təhlükədən qoruyacaq tək "qəhrəman" da faşist lider olaraq görülür. Bu xəyali ssenariyə görə, süni düşmən həmişə haqsızlıqla hücum edər, faşist lider isə qəhrəmancasına millətini müdafiə edərək lazım gələn cavabı verər. Faşist liderlərin xalqlarına etdikləri bütün zülmə baxmayaraq, xalqın bağlılığının davam etməsinin bir səbəbi də budur. Bu liderlər öz mərhəmətsizliklərini mətbuatdan istifadə edərək məharətli bir manevrlə xəyali "düşmənlərə" isnad etməyi bacararlar.

## Faşistlərin paranoyası

Faşist dövlətin ən diqqətə çarpan xüsusiyyətlərindən biri öz xalqına etibar etməməsi və şübhəli gördüyü hər kəsi öldürməyə qədər gedib çıxan mərhəmətsiz metodlardan istifadə etməklə onları susdurmağa çalışmasıdır. Demək olar ki, hər faşist rejimdə xalqa nəzarət etməyə və müxalifləri ortadan qaldırmağa istiqamətli "gizli polis" təşkilatları qurular. Nasistlərin məşhur Gestaposu faşist rejimin paranoyasının nə cür böyük işgəncə və vəhşiliklərə gətirib çıxardığının tarixi bir dəlilidir. Erik Hoffer, *qəti inananlar* adlı kitabında nasistlərin xalqı nəzarət altında saxlamaq üçün necə bir "qorxu" siyasəti həyata keçirdiklərini belə bildirir: Nasist partiyasının aşağı təbəqələrindəki kəslər daima bir nəzarət altında saxlanıldıqlarına inandırılmış və həmişə qorxu içində saxlanılmışdılar. Qonşusundan qorxmaq, dostundan qorxmaq və hətta qohumlarından qorxmaq bütün kütlə hərəkatlarında qanun halına gəlmişdir. Vaxtaşırı günahsız insanlar şübhə mexanizminin yaşadılması məqsədiylə ittiham və fəda edilirlər.(39)

Bu vəhşiliyin mənşəyi faşizmin fəlsəfəsindədir. Bu fəlsəfədə xalqın özbaşına buraxıldığı təqdirdə həm rejimə xəyanət edəcəyinə, həm də korlanacağına inanılar. Xalqı yola gətirməyin yolu isə təzyiqdən istifadə etməkdir. Faşizmin ideoloqlarından olan və xüsusilə Mussoliniyə çox təsir göstərən fransız filosof **Corc Sorel** (1847-1922)

bu düşüncəni müdafiə edənlərin başında gəlir. Sorel cəmiyyətlərin normal olaraq korlandığını və nizamının pozulduğunu müdafiə etmişdir. Ona görə şiddət tətbiq edərək bu çürümənin qarşısı alınmalı və beləcə totalitar bir rejim qurulmalıdır. Bu paranoya nümunələrinə mövcud İraq rejimində də rast gəlinir. Səddam Hüseynin ən yaxın qohumlarını belə "xəyanət" şübhəsiylə öldürtməsinin arxasında duran səbəb də bənzər bir şübhə hissidir. Səddam 1979-ci ildə Əhməd Həsən əl Bəqriyi prezidentlik vəzifəsindən devirdikdən sonra üzv olduğu Baas partiyasının yarısından çoxunu öldürtmüşdü. İnsanları öldürməsindəki meyarı isə gələcəkdə ailəyə verə biləcəkləri zərərlərin qarşısını almaq olduğunu deyirdi. Oğlu Udeyin vəzifəsi ailədəki "xainləri" yox etmək idi. Səddamın şəxsən qurduğu sui-qəsd şəbəkəsi ilə nasist SS stili xüsusi bir kəşfiyyat vahidi meydana gətirmişdir. Səddamın bu qrupuna Ruminiyanın diktatoru Nikolay Çavuşeskunun devrilişini və edamını videoda göstərərək, onların da belə bir aqibətlə qarşılaşa biləcəklərini və buna görə də ciddi olmalarının lazım olduğunu xatırlatdığı məlumdur.(40)

## Faşizmin zorakılıq sevgisi

*Faşizmin Kütlə Ruhu Anlayışı* adlı kitabın yazıçısı Vilhelm Reyx, nasistlərin döyüşə və qırğına necə baxdıqlarını belə izah edir: Alman döyüş liderləri, insan öldürməyə yarayan çətin riyaziyyat elmini heç dayanmadan sınaqdan keçirən və inkişaf etdirən elm adamlarıdırlar. Hamısı bir riyaziyyatçı, mühəndis, kimyaçı kimi ən mürəkkəb problemləri həll edəcək şəkildə yetişdirilmişdirlər. Burada incəsənətin ya da xəyal gücünün heç bir işi yoxdur. Onlar üçün döyüş qüvvəyə minmiş bir fizika elmidir. **Alman əsgərinin psixoloji təhsili onu baş qopardan, dəri üzən bir insan halına gətirməyə xidmət edir. O, məşğuliyyəti insan öldürmək olan və bundan başqa bir iş görməyən** varlı bir əsgərdir. Özünü, yer üzünün ən sərt, ən mərhəmətsiz insanı olaraq düşünür.(41)

Nasistlərin meydana gətirdikləri bu "professional qatillər" modeli, faşizmin ortaq obrazıdır. Faşistlər şiddət və vəhşiliyi öz-özlüyündə başlıca bir məqsəd olaraq ucaldarlar. Bunda Darvinizmi mənimsəmələrinin böyük bir rolu vardır. Darvinizmin insanları inkişaf etmiş bir heyvan kimi göstərən və həyatın da yalnız güclülərin yaşaya biləcəyi bir mübarizə yeri olduğunu iddia edən xurafatları, cəmiyyətdəki əxlaqi dəyərləri aradan qaldırmışdır. Şəfqət və mərhəmətin əvəzinə döyüş, intiqam və mübarizə hissləri yaranmış və bu elmi bir zərurət kimi insanlara göstərilmişdir. Faşistlər azğın inanclarından ötrü qarşıdurmanı bir təbiət qanunu kimi görərkən, dinclik, təhlükəsizlik və sülhün də bəşəriyyəti inkişafdan geri saldığına inanarlar. Mussolini 1921-ci ildə Milanda Faşist Mədəniyyət və Təbliğat Məktəbini açarkən söylədiyi nitqində bunun əhəmiyyətinə işarə etmiş və faşizmi müvəffəqiyyətə aparacaq

şeyin hərəkat olduğunu bildirmişdir.(42) Şiddət hərəkatları, yandırıb dağıtmalar, hücumlar, döyüşlər faşistlərin əhvalını yaxşılaşdırar, çünki faşistlər sülhə, qardaşlığa, dincliyə, sükunətə qarşıdırlar. Bu şiddət meylində faşistlərin cahil dünyagörüşlərinin də təsiri böyükdür. Buna görə də Hitlerin irqçi rejimində ziyalılara deyil, döyüşçülərə ehtiyac duyulmuşdur. Nasistlərin şiddət hərəkatları bu məqsədlə xüsusi olaraq yaradılan təşkilatlar tərəfindən icra edilmişdir. Bunlardan birincisi olan "SA", (*Sturmabteilung*, yəni "Fırtına Birlikləri") 1920-ci ildə qurulmuş 1921-ci ildə yarı hərbi bir xüsusiyyət qazanmışdı. SA-lar arasında bir çox küçə avarası vardı. Qrup "Qəhvəyi Köynəklilər" olaraq tanınırdı və başında ruhi xəstəliyiylə (və homoseksual azğınlığıyla) tanınan Ernst Röhm vardı. SA nasist partiyasının güclənməsi naminə 1920-ci illər ərzində çoxsaylı terror əməliyyatı həyata keçirdi. SA birlikləri nasist əleyhdarlarına şok basqınlar etdilər, küçə döyüşləri çıxararaq qan axıtdılar, "məhbus" aldıqları müxaliflərinə işgəncələr verdilər. Hitler SA-ların vəhşiliyindən qürurlanırdı. *Döyüşüm* adlı kitabında, SA-ların nasist əleyhdarlarına qarşı həyata keçirdikləri "müvəffəqiyyətli" bir hücumu belə izah etmişdi: Hofbrauhaus'un lobbisinə girdiyim vaxt saat səkkizə 15 dəqiqə qalırdı. Və təxribat haqqında artıq heç bir qərarsızlıq yaşamırdım... Salon çox izdihamlıydı... Qapıları yavaşca bağladım və sonra da adamlarıma hazır olmaları əmrini verdim. Qırx beş ya da qırx altı nəfər idi... Hücum bölməsindəndilər, o gündən sonra isə SA-lar olaraq tanınacaqlardı. Və hücuma başladılar. Səkkiz və ya on nəfərlik qurd sürüləri kimi, düşmənlərin üzərinə hücum etdilər, sonra bir daha, bir daha hücum etdilər... Beş dəqiqə ərzində hər yer qanla dolmuşdu... (43) SA-lar hücum etmək qədər işgəncə verməkdə də ixtisaslaşmışdılar. Berlindəki SA qərargahı Hedemannstrasse'nin dördüncü mərtəbəsində gizli bir SA işgəncə otağı vardı. Bir müddət sonra bu yer polis tərəfindən müəyyənləşdirilmiş və içəridəkilər azad edilmişdi. İçəriyə daxil olanların biri, ordakı mühiti belə izah edirdi: Zərər çəkmiş şəxsləri tapdığımızda aclıqdan yarı ölmüş vəziyyətdə idilər. Etiraf etdirmək üçün günlərlə dar şkaflarda saxlanılırdılar, bizə "sorğuya çəkildiyimiz vaxt, ya döyülür, ya dəmir çubuqlarla və yaxud da qamçılarla alçaldılırdıq" dedi. Bu yaşayan skeletlərin bəziləri iyrənc qamışların üstündə iltihablı yaralarıyla yan-yana yatırdılar.(44) SA-lar nasistlərin hakimiyyətə gəlməsiylə birlikdə gözdən düşməyə başladılar və onların yerinə daha professional və hərbi intizama sahib olan SS (*Schutzstaffel*, yəni "Gözətçi Qitələri") təşkilatının ulduzu yüksəldi. Bu qrup qara köynək geyirdi. SS-lərə qatılacaq gənclər "irq meyarlarına" görə seçilir, Aryan irqinin diqqətə çarpan xüsusiyyətlərini daşımaları lazım gəlirdi. Waffen-SS isə SS-in hərbi sahəsi idi. Waffen-SS tərkibində olan "Totenkopf Division", yəni "Kəllə Sümüyü Diviziyası" zalımlığı ilə məşhurlaşmışdı və bu diviziya toplama düşərgələrinin başına gətirilmişdi.

Bənzər toplama düşərgələri Mussolini tərəfindən də yaradılmış və Mussolini "Təmizləmə Düşərgəsi"nə yığdırdığı 35 min adamdan 18 minini öldürtmüşdü. Bundan başqa İtaliyada faşistlərin hakimiyyəti ərzində ölən, terrorda öldürülən ya da naməlum

olan bir çox insan var idi. Mussolini bir nitqində "Faşizm azadlıq deyil, zalımın hakimiyyətidir. Millətin zəmanəti deyil, xüsusi mənfəətlərin müdafiə edilməsidir. Bunu hər kəs bilirdi..." deyərək faşizmin zalımlığını etiraf etmişdir.(45) Vəhşilik hərəkətlərinə Franko nümunəsində də rast gəlmək mümkündür. Franko hələ döyüşün əvvəlində mərhəmətsiz üsullarıyla diqqət çəkmişdi. Məsələn, Madridin şimalındakı kiçik bir dağ kəndində 31 kəndli Xalq Cəbhəsinə səs verdikləri üçün həbs olundular. Sorğudan sonra bunlardan 13 nəfər bir yük maşınıyla kənddən kənara çıxarıldılar və yol kənarında öldürüldülər. Sevilya yaxınlarında 11 000 əhalisi olan bir qəsəbə olan Loro del Rioda faşistlər bir qəsəbəyə girdikləri vaxt 300-dən çox adamı öldürdülər. Təzyiq şəhərlərdə daha güclü idi. Belə ki, bu günə qədər öldürülənlərin konkret sayı bilinmir.(46) Franko öz xalqından yüz minlərlə insanı, üstəlik yaşlı, uşaq, qadın demədən öldürtmüşdü. Könüllülərlə birlikdə hər iki cəbhədən təxminən bir milyon insan üçün bu döyüşün əvəzi ölümdü. *Franko kimdir? Falanjizm nədir?* adlı kitabda bu vəziyyət belə təsvir edilmişdir: **"Minlərlə insana işgəncə verilir, yaxınlarını təslim etməyən qadınlar başıaşağı vəziyyətdə asılır, uşaq gülləyə tutulur, bunların işgəncələrinə şahidlik edən analar, bu vəziyyətdə dəliyə dönürdülər...".(47)**

Franko İspaniyanda çox böyük bir vətəndaş müharibəsinin yaranmasına səbəb oldu. Qardaşı qardaşa, atanı oğula qırdırdı. Bu daxili döyüş ərzində gündə orta hesabla 500 adam öldü. Zorakılıq hadisələrinin, vəhşi qırğınların, kütləvi işgəncələrin və qeyri-insani cinayətlərin ardı-arası kəsilmədi. İspaniyada baş verən vətəndaş müharibəsi nəticəsində təxminən 600 000 insan həyatını itirdi. Hitler və Mussolini İspaniyanı eynilə bir laboratoriya kimi, silahları və əsgərləri üçün bir sınaq yeri kimi istifadə etdilər.(48) Bunun ən qəribə nümunəsi Frankonun yardımlarına qarşılıq olaraq Hitlerə hədiyyə etdiyi qəsəbə idi. 1937-ci il 5 may səhəri, Guernika qəsəbəsinin əhalisi, nasist texnologiyasının istehsal etdiyi nəhəng bombardman təyyarələriylə məhv edildi. Kiçik qəsəbə, Franko tərəfindən nasist təyyarələrinin sınaq meydanına çevrilmişdi.(49)

## Faşizmin işğalçı siyasəti

Faşizmin zəruri tələblərindən biri də digər ölkələrin torpaqlarını ələ keçirərək burada yayılma siyasəti aparmasıdır. Bu işğalçı siyasətin arxasında duran əsas səbəb isə irqçilik və Darvinizmin bir mirası olan **"irqlər arası həyat mübarizəsi"** anlayışıdır. Faşistlər millət olaraq inkişaf edə bilmələri üçün daha zəif olan digər millətləri zəbt etmələri və onları məğlub edərək böyümələrinin lazım gəldiyinə inanarlar. Faşist fəlsəfəyə görə insan ancaq döyüşərək inkişaf edə bilər. Buna görə də **"militarizm",** yəni **"döyüşçülük"** faşizmin ən diqqətə çarpan xüsusiyyətidir. Bu döyüşçü ruhu qızışdırmaq üçün faşist partiyalar istifadə etdikləri vahid formalarla və keçirdikləri təmtəraqlı hərbi paradlarla xalqa təsir etməyə çalışırlar. Mussolininin öz ifadəsinə görə, **"Faşizm daima**

**sülhün zərərli olduğuna inanmışdır. İnsan gücünü ən yüksək səviyyəsinə çıxaran amil döyüşdür".**(50) Mussolini sülhə olan əleyhdarlığını başqa bir nitqində belə ifadə etmişdir: **"Faşizm bütün dünyanın bir-birləriylə qucaqlaşmasını rədd edər".** (51)
Bu ideologiya naminə Mussolini həm öz xalqına, həm də işğal etdiyi ölkələrin insanlarına böyük əzablar vermişdir. "Roma İmperatorluğunu diriltmək" xəyalları içində 1935-ci ildə Efiopiyanı işğal etmiş və bu ölkədəki 15 min günahsız müsəlmanı mərhəmətsiz şəkildə öldürtmüşdür. İşğala qarşı müqavimət göstərməyə çalışan vətəndaşların tərəddüdsüz güllələnməsi əmrini vermiş, üstəlik dinc əhaliyə qarşı zəhərli qazdan istifadə edərək faciəvi qırğınlar həyata keçirmişdir. Faşizmin işğalçı siyasətinin ən diqqətə çarpan nümunəsi isə, şübhəsiz ki, nasist Almaniyasıdır. Nasistlər, guya "üstün irq" olan almanların, Almaniya sərhədlərindən xeyli kənara çıxan bir "yaşayış sahəsi"nə ehtiyac duyduğunu irəli sürmüşlər və bu məqsədlə II Dünya müharibəsini alovlandırmışdırlar. Alman ordusu qısa bir müddət ərzində Polşanı, Belçikanı, Baltikyanı ölkələri, Fransanı, Balkan yarımadasını və Şimali Afrikanı işğal etmiş, Rusiya daxilində Moskva yaxınlarına qədər gəlmiş, oradan Xəzər dənizinə doğru irəliləmişdir. Həm almanlara, həm də digər millətlərə böyük fəlakətlər gətirən və ümumilikdə 55 milyon insanın ölümü ilə nəticələnən bu dəlilik, faşizmin 20-ci əsrə atdığı ən qanlı imzasıdır.

## Faşist sistemin incəsənətə endirdiyi zərbə

Faşizmin diqqət çəkici başqa bir cəhəti isə faşist rəhbərliklər altında yaşayan insanların incəsənət qabiliyyətlərinin inkişaf etməməsi və elmi istiqamətdəki işlərindən səmərəli bir nəticə əldə etməmələridir. Bunun səbəbini görmək üçün, əvvəlcə incəsənətin nə olduğunu bilmək lazımdır. İncəsənət insanın gözəlliklərdən zövq alması və bunu ifadə etmək arzusuyla başlayır. Bunun üçün də əvvəlcə bu gözəlliklərdən zövq alacaq bir ruha sahib olmaq lazımdır. Məsələn, sevgi, şəfqət kimi hisslərə, estetik hisslərə sahib olan bir sənətkar bir heyvana, bir mənzərəyə, bir bitkiyə baxdığı vaxt onun gözəlliyini görür, ona qarşı coşğulu bir sevgi duyar və onu təsvir edər. Bu tip gözəlliklər qarşısında bir bəstəkar da gözəl musiqilər bəstələyə bilər, çünki ruhunda bu gözəllikləri hiss edər və bunu ifadə edər. Eyni şey ədəbiyyatdan musiqiyə qədər hər sahə üçün, incəsənətin hər sahəsi üçün məqbuldur.

Digər tərəfdən donuq və qatı bir ruhla, zalımlığa, mərhəmətsizliyə alışmış, insani xüsusiyyətlərini itirmiş bir bədənlə incəsənətlə məşğul olmaqdan söhbət belə gedə bilməz. Təcavüzkarlığın, kobud qüvvətin üstünlüyünə inanmış, qan tökücülüyün vacibliyini mənimsəmiş, dünyanı bir döyüş mühiti, güclü olanların yaşamağa haqqının çatdığı bir cür meydan kimi görən bir insanın təbiətdəki gözəlliklərdən və ya insan gözəlliyindən təsirlənməsi, bunlardakı incəlikləri fərq edə bilməsi qeyri-mümkündür. Bu sayılan xüsusiyyətlər faşistlərin xüsusiyyətləridir. Bundan ötrü də, bir faşistin

incəsənət hissinə sahib olması qeyri-mümkündür. Olduqca kobud, anlayışsız və cahil olan faşist ruh, incəsənəti "lazımsız" bir şey kimi görər. Əslində faşistlərin incəsənətə olan əleyhdarlığı, özlərinə nümunə götürdükləri faşist spartalılara qədər gedib çıxır. Afinada incəsənətin olduqca inkişaf etdiyi bir dövrdə, spartalılar incəsənətlə məşğul olmağı lazımsız hesab edirlər və hələ kiçik yaşlarından etibarən vətəndaşlarını döyüşçü kimi yetişdirirdilər. Spartalı uşaqların bu təhsili əsnasında oxuyub-yazma, incəsənət kimi mövzularla maraqlanmaları az qala qadağan idi. 20-ci əsrin faşist dövlətlərində isə ən çox dövlət mənafeyini əks etdirən incəsənət əsərləri görmək mümkündü ki, bunlar da onsuz da faşist dövlətin təbliğatından istifadə etmək üçün hazırladılmış, ruhsuz və mexaniki "xüsusi hazırlanmış" məhsullar idi. Buna görə də ortaya həqiqi bir incəsənət əsəri çıxmırdı. Məsələn, yalnız dövlətin izn verdiyi mövzular, məsələn döyüş rəsmləri çəkilə bilər, lakin xoşa gəlməyən mövzular çəkilə bilməzdi. Bu, ədəbi əsərlər üçün də etibarlı idi, ancaq faşist dövlətin izn verdiyi mövzular yazıla bilər, bundan kənara çıxıla bilməzdi. Bunun nəticəsində incəsənətə bənzəməyən bir incəsənət meydana gəlir və incəsənətdə, arxitekturada, ədəbiyyatda estetik cəhətdən bir kütlük, kobudluq və ruhsuz bir donuqluq meydana gəlirdi. Bunun ən aydın nümunələri Hitler Almaniyasında müşahidə olunurdu. Hitler irqçi fikirlərindən ötrü, bəzi incəsənət məhsullarını boykot etmişdi. Məsələn, qara dərili insanları "aşağı irq" kimi gördüyü üçün, "zənci musiqisi" olaraq məlum olan caz musiqisinin Almaniyada çalınmasını qadağan etmişdi. 1935-ci ildə dövrün radio baş direktoru Eugen Hadamovski Hitlerdən aldığı əmrlə **"zəncilərin çaldığı caz musiqisinin alman radiolarından səslənməsini qəti şəkildə qadağan edirəm"** deyə bildirmişdi. 1940-cı illərin əvvəllərində isə, Hitler ən görkəmli günlərini yaşayarkən, İngiltərə və ABŞ-a istiqamətlənmiş radio təbliğat verilişlərində bu dəfə caz musiqisindən bir vasitə kimi istifadə etməyə başladı. Bu dövrdə hər iki ölkədə də caz ən çox dinlənilən musiqi növlərindən biriydi. Nasistlər isə bunu bir təbliğat ünsürü kimi istifadə edə biləcəklərini düşündülər. Avropanın məşhur cazçılarını bir yerə topladılar. İlk növbədə bütün məşhur caz mahnılarının ingiliscə olan adlarını alman dilinə çevirdilər. Mahnı sözləri, tamamilə Almaniyanın gücünü izah edən təbliğat sözləriydi. Bu nasist versiyalı caz musiqisi yalnız qərbə istiqamətli proqramlarda çalınır, alman radiolarında isə çalınması qətiyyən qadağan edilirdi. Mahnıların sözləri isə faşist məzmunluydu. Budur bir nümunə: "Sən ən böyüksən... Bir alman pilotusan... Pulemyot atəşisən... Qəhrəman bir dənizaltı əsgərisən... Ən böyüksən... Bir alman bombardmanısan..." (52). Budur nasistlərin incəsənətdən və musiqidən anladıqları bu idi. Şəkillər, mahnı sözləri, musiqi növləri və ədəbiyyat, həmişə dövlət tərəfindən seçilən mövzulardan ibarət olmalıydı. Rəssamlar ancaq döyüş ruhunu qızışdıracaq şəkillər çəkə bilərdilər. Məsələn, yuxarıda bəhs etdiyimiz **"dövlət tərəfindən idarə edilən caz qrupu"** nasist təbliğatından kənar məzmunlu bir albom çıxardığında dərhal "degenerasiya" olmaqla günahlandırılmış və bir daha belə bir şeyi sınaqdan keçirməmək məqsədiylə xəbərdar

edilmişdi. Hitlerin müğənnilərə istiqamətlənmiş tətbiqləri bununla da kifayətlənməmişdi. 1933-cü ildə qəbul olunan irq qanunlarından sonra *Reichsmusikkammer* (Reyx Musiqi Palatası) bütün alman müğənnilərin siyahısını çıxartdı. Nəticə etibarilə yüzlərlə istedadlı musiqiçi irqləri və ya bəstələdikləri musiqi Hitlerin xoşuna gəlmədiyi üçün işlərindən atıldılar və kariyeralarına son qoyuldu. Mendelssohn, Mahler, və Skoenberq kimi məşhur bəstəkarların eyni səbəblərə görə musiqiləri qadağan olundu (53). Hitlerə görə incəsənətin vəzifəsi müəyyən siyasi mesajları daşıyaraq xalqın fikirlərini formalaşdırmaqdı. Hitlerin həqiqi incəsənət dediyi şey, çöl həyatı, sağlamlıq və Aryan irqinin mövzu olaraq seçilməsiydi. Bir çıxışında incəsənət və sənətkar anlayışını belə izah edirdi:

"Biz, Alman irqinin mədəni damğasını alman xalqı üzərində təsirli olaraq istifadə edə bilən sənətkarları tapıb və onları təşviq edəcəyik. Onlar çəkdikləri şəkillərdə xalqın ruhunu və ideyalarını ifadə edərlər" (54). Bütün bunlardan aydın olduğu kimi faşist rəhbərliklər altında yaşayan insanların incəsənət qabiliyyətləri və elmi işləri çox səmərəsiz olar. Bunun müqabilində bir cəmiyyətdə din əxlaqının, dinin həqiqi mənada yaşanması, incəsənətdə böyük bir irəliləyiş və yüksəliş meydana gətirər. Dindar insanlar kainatı və bütün canlıları Uca Allahın yaratdığını bildikləri üçün ətraflarındakı hər şeyə bu gözəllikləri görmək məqsədiylə baxarlar. Allahın yaratma sənətini görər və buna böyük heyranlıq duyarlar. İnsanları, heyvanları, bitkiləri və təbiətdəki hər şeyi Allahın yaratdığı varlıqlar kimi görər, həm dəyər verər, həm çox sevər, həm də onlardakı gözəllikləri və incəlikləri görərlər. Necə ki, tarixdəki ən böyük incəsənət əsərləri, dindar sənətkarların dini anlayışlardan aldıqları ilhamla ortaya çıxmışdır.

## Faşizmin qadın düşmənçiliyi

Faşizmin çox diqqət çəkməyən, lakin böyük əhəmiyyət daşıyan bir cəhəti daha vardır: Faşizm qadınlara qarşı düşməncəsinə bir münasibət bəsləyər və qadınları kişilərdən aşağı görər. Bu həqiqəti 20-ci əsrin faşist liderlərinin nitq və çıxışlarında görmək mümkündür. Məsələn, Mussolini 12 noyabr 1922-ci il tarixində fransız *Journal* qəzetinin müxbiri olan Maurike də Valeffeyə verdiyi açıqlamada qadınları açıq şəkildə alçaltmışdır: Mənim ümumi səs haqqını məhdudlaşdırma niyyətində olduğumu deyənlər var. Xeyr! Hər vətəndaş Roma Parlamenti üçün sahib olduğu səs haqqını qoruyacaq... Həmçinin sizə etiraf edim ki, **qadınlara səs haqqı tanımağı düşünmürəm. Bunun bir faydası yoxdur.** Qadınların dövlət işlərində işləmələri mövzusundakı qənaətim hər cür feminizmə zidd xüsusiyyətdədir. Əlbəttə ki, qadın bir kölə olmamalı, amma ona səs haqqı versəm mənə lağ edərlər. **Bizim dövlətimizdə qadın hesapda olmamalıdır.** (55)

1930-cu ildə böyük iqtisadi böhranın başladığı vaxtlarda isə Mussolini qadınların

işlədikləri iş yerlərindən ayrılmaları təlimatını vermişdi. Çünki qadınları "kişinin çörəyinə əl uzadan oğrular, kişi sonsuzluğunun günahkarları" olaraq görürdü (56). "Duçe"nin qadınlara olan dünyagörüşünü vurğulayan ən əhəmiyyətli sözlər fransız jurnalist Helene Qossetin 1932-ci ildə özüylə apardığı bir söhbətində nəzərə çarpır: **Qadın boyun əyməlidir... Onun bir analiz gücü varsa da, sintez gücü yoxdur.** Nə vaxtsa memarlıq əsəri ortaya qoymuşdurmu? Bir məbəddən danışmıram, qadından bir daxma qurmasını istəsəniz bunun öhdəsindən gələ bilməyəcək. Qadının, bütün sənətlərin sintezi olan arxitekturadan heç bir xəbəri yoxdur; məhz taleyi də bu nöqtədə düyünlənir (57). Qadınlara iş həyatında tətbiq edilən bu məhdudlaşdırma təhsil sahəsində də özünü göstərmiş və görülən bir sıra tədbirlərlə qadınların təhsil və iş həyatları məhdudlaşdırılmışdır. Məsələn, 30 yanvar 1927-ci il tarixli fərmanla qadınlara liseylərdə ədəbiyyat və fəlsəfə dərslərinin keçirilməsi qəti surətdə qadağan edilmişdir. 1928-ci ildə verilən fərmanla qadınların təhsilinə qarşı qanuni tədbirlərə müraciət edilmiş qadınların birinci dərəcəli orta təhsil müəssisələrində müdirlik vəzifəsində işləmələrinin qarşısı alınmışdır. Qız şagirdlərə orta təhsillərində və universitetlərdə iki qat ödəniş haqqı ödəmək məsuliyyəti gətirilmişdir. Mussolininin məclisə təqdim etdiyi 28 noyabr 1933-ci il tarixli qanunda, fərman mətnində isə bunlar yazılmışdır: "Dövlət qurumları işçi götürmək üçün keçiriləcək imtahanlarla əlaqədar elanlarda qadınları çöldə saxlayacaq şərtlər qoymağa ixtiyarları çatır... Dövlət vəzifələrində işləyən qadınların sayının çoxalmasına qarşı bir hədd müəyyənləşdirmək zəruridir..."(58). 1 sentyabr 1938-ci il tarixli qanunda fərmanla, qadınların, dövlət vəzifələrindəki ümumi heyətin tərkibinin ancaq 10%-ni doldura biləcəkləri müəyyənləşdirilmişdir.

Nasist Almaniyasında isə qadınlara qarşı müəyyənləşdirilən "ikinci dərəcəli vətəndaş" statusu daha da aydın idi. Alman Milli Təhsil Nazirliyi, lisey məzunlarının 10%-indən çoxunun qız olmamasına qərar vermişdi. 1934-cü ildə, lisey məzunu hər 10 000 qızdan, yalnız 1500-ünə ali təhsil müəssisələrində oxumaq icazəsi verildi. 1929-cu ildə, 39 Nasyonel-sosialist təhsil təşkilatı vardı. Bunların yalnız ikisi qızlar üçündü. Qızlara, orta təhsilləri əsnasında latın dili dərslərinə girməyi qadağan etmək üçün də qanunlar qəbul olundu; onlar hələ liseyi bitirməmişdən əvvəl, yüksək səviyyəli məktəblərə və universitetə qəbul olmalarının qarşısı alınmış olurdu... (59). Bunlar yalnız ictimai mövqe və ya iş bölgüsüylə əlaqədar tənzimləmələr deyil, əslində nasizmin bioloji xurafatlarıyla əlaqədar tətbiqlərdi. *Faşizmin Analizi* kitabının yazıçısı Maria A. Makkiokkhinin şərhinə görə **nasistlərin gözündə qadın bir növ heyvandı** (60). Bu fəlsəfəyə görə qadın, fərqləri müəyyən olunmamış ibtidai bir irqdi, bioloji cəhətdən aşağı səviyyədə idi (61).

## Qadın düşmənçiliyinin darvinist mənşəyi

Faşistlərin qadınlara olan bu alçaldıcı yanaşmalarının mənşəyi də, digər bir çox mövzuda olduğu kimi Darvinizmdir. Faşistlər Darvinin yalnız irqlər arasındakı bərabərsizlik fikrini qəbul etməklə kifayətlənməmiş, kişilərin qadınlardan üstün olduğu istiqamətindəki fikirlərini də mənimsəmişlər. Darvin *Descent of Man* adlı kitabında qadınların idrak etmə, tez qavrama və təqlid mövzusunda "daha aşağı irqlərin xüsusiyyətlərini daşıdıqlarını və buna görə də daha köhnə və aşağı bir mədəniyyət səviyyəsinə sahib olduqlarını" yazmışdı (62). Darvinin öz sözləri ilə təkamül, bir cinsin üzvlərinin -xüsusilə, də kişilərin- digər cinsi, öz hakimiyyətləri altına salmaq üçün mübarizə aparmaları deməkdi (63). Həmçinin Darvinə görə, qadınların bəzi xüsusiyyətləri aşağı irqlərin xüsusiyyətləri olduğundan qadınlar kişilərə görə daha aşağı bir mədəniyyət səviyyəsinə sahibdilər (64). Darvinə görə kişilər yalnız bədən və ağıl cəhətdən qadınlardan üstün deyildilər, həmçinin seleksiya gücünü qazanmışdılar. Təkamül kişilərin əlində idi və qadınlar olduqca passiv idilər. Nəticə etibarilə qadınlar daha az inkişaf etmişdilər və daha ibtidai idilər, buna görə də qadınların ən böyük zəiflikləri olan instinktləri və hissləri xeyli güclü idi (65). Darvin həyatı boyu təkamül üçün əhəmiyyətli olduğuna inandığı kişi üstünlüyü fikrini davam etdirdi. Bu mövzuyla əlaqədar olaraq əmisi oğlu Frensis Qaltonun nəzəriyyələrinə də istinad edərək bunları demişdi: "...İki eşşəyin zehni bacarıqlarındakı başlıca fərq, istər dərin düşüncəni, sağlam fikri, istər xəyal kimi görünən, istərsə də yalnız hisslərdən və əllərdən istifadəni tələb edən işləri ələ alarkən kişinin qadının çata biləcəyindən daha yüksək bir səviyyəyə çatmasıdır. Şeir, şəkil, heykəl, musiqi (istər bəstə, istərsə də səsləndirmə), tarix, elm və fəlsəfədə ən məşhur kişilərin və qadınların bir çox ad ehtiva edən siyahıları çıxarılsa, bu siyahılar müqayisəyə ehtiyac buraxmaz. Bəy Qaltonun *Hereditary Genius* adlı əsərində çox gözəl izah etdiyi orta miqdarlardan sapma qanunundan, kişilər bir çox mövzuda qadınlardan konkret şəkildə üstündürsə, **kişidəki yuvarlaq zehni gücün qadınınkından yüksək olması lazım olduğu nəticəsini də çıxara bilərik**"(66).

Darvinin bu fikirləri əslində onun qadınlara qarşı fərdi yanaşmasından da aydın olurdu. Darvin qadının nikahdakı rolunu belə təsvir edirdi: "Daimi bir dostluq (yaşlılıqda belə davam edən bir dostluq), **sizinlə maraqlanacaq biri -bir itdən daha yaxşı başınızı qata biləcək- ev və evin məsuliyyətlərini üzərinə götürəcək biri..."** (67). Göründüyü kimi Darvin ailə birliyinə və qadınlara tam bir materialist gözüylə baxırdı. Bu dünyagörüşündə sevgidən, hörmətdən, bağlılıqdan, şəfqət və mərhəmətdən əsər-əlamət yox idi. Geneva Universitetində təbiət tarixi professoru olan təkamülçü və materialist Karl Voqt da qadınlara qarşı alçaldıcı fikirlər bəsləyirdi. Voqt belə yazmışdı: **"İnsan dişiləri kişilərdən çox aşağı, heyvan növlərinə daha yaxındır".** Buna görə də əgər özümüzə standart bir qadın alsaydıq, daha çox meymuna bənzər xüsusiyyətlərə rast gələrdik.

Darvininin iziylə gedən bir çox təkamülçü, qadınların bioloji və zehni cəhətdən kişilərdən daha aşağı olduğunu iddia etməyi davam etdirdilər. Hətta bəzi təkamülçülər kişiləri və qadınları iki fərqli psixoloji növ kimi təsnif etmişdilər: Bu təsnifatda kişilər *homo frontalis*, qadınlar isə *homo parietalis* adlanırdı (68). Bir təkamülçü olan Morqan, Darvinin kişiləri, qadınların nə üçün aşkar bir şəkildə alçaq və daha aşağı təbəqədə olduqlarının səbəbləri üzərində çalışmağa həvəsləndirdiyini bildirmişdi (69). Parisdə Tibb Fakültəsindən təkamülçü Paul Broca isə (1824-1880) xüsusilə də kişilər və qadınlar arasındakı ağıl və beyin həcmləri ölçüləriylə maraqlanmışdı. Qadın beyninin olduqca kiçik olan həcmini, onun ağıl cəhətdən aşağı olmasıyla əlaqələndirmişdi. Darvinin yolunu gedənlərdən olan təkamülçü ictimai psixoloq Qustave Le Bon isə (1841-1931) belə yazmışdı:

**Qadınların beyinləri kişilərdən çox qorillaların beyinlərinə yaxındır.** Qadınların aşağı irqə sahib olduğu o qədər diqqətə çarpır ki, heç kim doğruluğu haqqında mübahisə etmir; yalnız dərəcəsi barəsində mübahisə aparmağa dəyər... **Qadınlar insan təkamülünün ən aşağı formasını təmsil edirlər** və yaşlılardan və mədəni kişilərdən çox uşaqlara, vəhşilərə daha yaxındırlar. Vəfasızlıqda, əsassızlıqda, düşüncə və məntiq əksikliyində və səbəb çatışmazlığında üstündürlər. Şübhəsiz ki, orta hesabla bir kişidən daha üstün olan qadınlar mövcuddur, amma bunlar anadangəlmə çirkin olan istisna şeylərdir. Məsələn, iki başlı bir qorilla kimidirlər. Nəticə etibarilə onları tamamilə diqqətdən kənarda qoya bilərik" (70).

Faşizmin qadınlara əhəmiyyət verməməsinin və dəyərsiz görməsinin təməlində, Darvinizmin eyni istiqamətdəki uydurma elmi təlqinləri durur. Mussolininin qadınların sosial hüquqlarını əllərindən alması, Hitlerin üstün irqi çoxaltmaq üçün "çoxalma fermaları" yaradaraq, gənc qızları bu fermalarda SS zabitləriylə cinsi əlaqədə olmağa məcbur etməsi, faşistlərin qadınlara necə baxdıqlarının bir əksidir. Darvinistlər də, faşistlər də qadın düşmənidirlər. Qadınları həm aşağı və inkişaf cəhətdən geri qalmış bir növ kimi görmüş, həm alçaltmış, həm də onlara qarşı ayrı-seçkilik və zorakı üsullardan istifadə etmişdilər.

Faşistlərin bu üsulları da Quran əxlaqı ilə tamamilə ziddir. Allah Quranda qadınlara qarşı olduqca şəfqətli, hörmətlə və qoruyucu şəkildə davranılmasını əmr etmişdir. Bununla yanaşı hz. Məryəm və Fironun arvadı kimi üstün əxlaqa sahib qadınları insanlara nümunə göstərmişdir. Allah Qatında üstünlük insanların irqlərinə, cinsiyyətlərinə və ya mövqelərinə görə deyil, Allaha olan yaxınlıq və imanlarına görədir. Allah Quranın bir çox ayəsində bütün iman edənlərin, qadın-kişi ayrı-seçkiliyi aparılmadan etdikləri əməllərin əvəzini tam olaraq alacaqlarını belə xəbər vermişdir:

**“Rəbbi onlara belə cavab verdi: “Mə sizlərdən bir iş görənin - istər kişi, istərsə də qadın olsun, - heç bir kəsin əməyini puç etmərəm..." (Ali İmran surəsi, 195)**

**Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz. (Nisa surəsi, 124)**

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

Bəzi cəmiyyətlərdə din əxlaqından uzaqlaşılmasıyla birlikdə bu həqiqətlər də nəzərə alınmamış və bunun əvəzinə hər cür irq və cinsiyyət ayrı-seçkiliyini qanuni hesab edən faşizm, Darvinizm kimi xurafatlar yaranmışdır.

## Faşizmin cinsi azğınlıqları

Faşizmdəki bura qədər araşdırdığımız qadın düşmənçiliyi, əslində şüurlarının altındakı qaranlıq bir meylin də xaricə əks olunmasıdır. Faşistlər qadınları sevgi, mərhəmət, şəfqət kimi özlərinin qarşı çıxdıqları hisslərlə eyniləşdirirlər və bunun faşizmin qadınlara qarşı olan soyuqluğunda böyük bir rolu vardır. Digər tərəfdən, döyüşçülük, qan tökmək, mərhəmətsizlik, sərtlik kimi meyillər isə "kişiyə xas" xarakter olaraq təsvir edilir və buna görə də "kişilik" sanki müqəddəs bir anlayış kimi ucaldılır. Faşist ideologiyanın bu "kişilik" əfsanəsinin bir az dərinliyinə nəzər saldıqda isə, qarşımıza homoseksuallığın azğın aləmi çıxır. Faşizmlə homoseksuallıq arasındakı bu az insan tərəfindən bilinən, lakin əhəmiyyətli əlaqə, faşizmin ən keçmiş modeli olan Spartaya qədər gedib çıxır.

Kitabın əvvəlki hissələrində faşizmin bütpərəst bir mədəniyyət olduğunu və bütpərəstliyi yenidən dirçəltmə iddiasıyla ortaya çıxdığını öyrənmişdik. Bütpərəstliyin ən diqqətə çarpan xüsusiyyəti isə, Allah tərəfindən vəhy edilmiş əxlaq meyarlarına və qaydalarına sahib olmaması idi. Buna görə də bütpərəst aləmində hər cür cinsi azğınlıq asanlıqla yayıla bilirdi. Bunların arasında ən pik nöqtəyə gedənlər isə, qədim Yunanıstandakı şəhər dövlətləriydi. Afinada və Spartada homoseksuallıq çox normal, qanuni bir əlaqə kimi görülür, hətta bir üstünlük kimi səciyyələndirilirdi. Xüsusilə faşizmin atası olan Spartada "kişilik" anlayışına xüsusi bir əhəmiyyət verilir, homoseksualizm kimi bir azğınlıq isə "kişi sevgisi" adı altında məqbul bir davranış hesab edilirdi. Spartalı əsgərlər, bir-birləriylə cinsi əlaqəyə girməklə güclərini artıra biləcəkləri kimi böyük bir azğınlığa inanardılar. E.ə. 50-120-ci illərdə yaşayan tarixçi Çaeronealı Plutarx, ordudakı ən seçkin əsgərlərdən ibarət olan 300 nəfərlik xüsusi döyüşçü birliyin əslində "150 cüt sevgili"dən meydana gəldiyini qeyd edirdi (71). Spartada 12 yaşına gələn güclü kişi uşaqlarının hamısı orduya alınır və ilk növbədə ordudakı təcrübəli əsgərlər tərəfindən təcavüzə məruz qalırdılar. Bu azğın əlaqələrin

Spartanı "döyüşçü" mədəniyyətinin və qan tökməyi sevən ordusunun ən böyük güc mənbəyi olduğuna inanılırdı. Məhz bu iyrənc və azğın mədəniyyət, 19-cu əsrdə meydana gələn yeni-bütpərəst cərəyanıyla birlikdə yenidən dirildi. Bu azğınlığın ən əhəmiyyətli mərkəzlərindən biri isə Almaniya idi. Bu cərəyanın qabaqcılı olan Adolf Brand 1902-ci ildə, kişi uşaqlarına olan azğın cinsi meylləriylə tanınan Vilhelm Yansen və Benedikt Friedlander ilə birlikdə, orjinallar dərnəyini (*Gemeinschaft der eigenen*) qurdu. Friedlander 1904-ci ildə "*Yunan Erotizminin Yenidən Doğuşu*" (Renaissance des Eros Uranios) adlı bir kitab nəşr etdi. Kitabın üz qabığında yarı çılpaq bir yunan gəncinin şəkli vardı. Friedlander məqsədlərinin nə olduğunu da kitabın içində belə bildirirdi: Müsbət hədəfimiz, yunan cəngavərliyinin yenidən dirçəldilməsi və cəmiyyət tərəfindən tanınmasıdır... Yunan cəngavərliyi sevgisiylə də, kişilər arasındakı yaxın sevgini, xüsusilə də müxtəlif yaşdakı kişilər arasındakı əlaqələri nəzərdə tuturuq (72). Orjinallar dərnəyinin məqsədi, Almaniyanı din əxlaqından tamamilə uzaqlaşdıraraq bir yunan mədəniyyətinə çevirməkdi (73). Və bu azğın təşkilat, həmçinin irqçiliyin da qabaqcılı idi. Orjinallar Dərnəyinin fikirləri çərçivəsində 1923-cü ildə yaradılan İnsan Haqqları Dərnəyi adlı təşkilatın lideri Canavar Hildebrandt, *Norm, Entartung, Verfall* (İdeal, degenerasiya, dağıtma) adlı kitabında ən üstün irqin, homoseksuallar tərəfindən yaradılan irq olduğunu müdafiə etmişdi. Buna görə də, irqin davamı üçün qadınlarla "çoxalma məqsədli" əlaqələr qurulmalı, ancaq "əsl kişi xarakterli" bir irq əldə etmək üçün həqiqi cinsi "sevgi" kişilər arasında yaşanmalıydı. Bu fikirlər əslində nasist partiyasının fikirlərindən başqa bir şey deyildi. Belə ki, nasist partiyası da əslində bir "homoseksuallar klubu" idi. Bu həqiqət, Skott Liveli və Kevin Abrams tərəfindən qələmə alınan və 1995-ci ildə nəşr olunan *The Pink Swastika: Homosexuality in the Nazi Party* (Çəhrayı Svastika: Nasist Partiyasında homoseksuallıq) adlı kitabda yer verilən geniş əhatəli araşdırma ilə ortaya qoyulmuşdur. Kitabda istər nasistlərin qabaqcılı olan kütlələr və təşkilatlar, istərsə də nasist partiyasının idarəçi heyəti ətraflı olaraq araşdırılır və bu faşist heyətin içində çoxlu sayda homoseksual olduğu qeyd edilir. Nasistlərin homoseksualları həbs etmək və toplama düşərgələrinə göndərmək şəklindəki tətbiqlərinin həqiqət olmadığı, bu tətbiqlərlə nasist kadrların öz azğınlıqlarını gizlətməyə çalışdıqları da yenə tarixi sənəd və dəlillərlə izah edilir. Homoseksual olduğu məlum olan nasistlər arasında SA-ların lideri olan Ernst Roehm, Gestapo rəisi Reinhard Heydriç, hava qoşunları komandiri Herman Goering, Rudolf Hess, *Hitler Jugend* (Hitler Gəncliyi) təşkilatının lideri olan Baldur von Sciraç, nasist Almaniyasının Maliyyə Naziri Volter Funk, Hitlerin quru qoşunları komandiri Freiherr Verner von Fritsç kimi adlar vardır. SS rəisi Himmler və Adolf Hitlerin isə homoseksual meyilləri olduğuna dair bəzi dəlillərə rast gəlinmişdir (74)

*The Pink Swastika,* bu azğınlığın nasistlərlə məhdudlaşmadığı, ABŞ-da fəaliyyət göstərən müxtəlif neo-nasist və irqçi təşkilatların liderləri arasında da bir çox homoseksual olduğu, bu azğınlığın faşizmin sanki irsi bir xüsusiyyəti olduğu yenə

dəlilləriylə izah edilir. Faşist müşrikləri, Quranda izah edilən digər bir bütpərəst qövmün, hz. Lutun peyğəmbər olaraq göndərildiyi Lut qövmünün azğınlığını tətbiq edirlər. Ancaq bu azğınlığı həyata keçirənlər, Lut qövmünün məruz qaldığı aqibəti ağıllarından çıxartmamalıdırlar. Bu azğın qövmün məruz qaldığı aqibət Quranda belə bildirilir:

**Lutu da elçi göndərdik. Bir zaman o, öz qövmünə demişdi: "Sizdən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc əməli sizmi edəcəksiniz? Siz qadınları qoyub şəhvətlə kişilərin yanına gedirsiniz. Həqiqətən, siz həddi aşmış adamlarsınız". Onun qövmünün cavabı: "Onları yurdunuzdan çıxarın. Axı onlar təmizliyə can atan adamlardır" – deməkdən başqa bir şey olmamışdı. Biz onu və ailəsini xilas etdik. Yalnız arvadından başqa. O, geridə qalanlardan oldu. Biz onların üstünə daşlardan yağış yağdırdıq. Bir gör günahkarların aqibəti necə oldu. (Əraf surəsi, 80-84)**

# FAŞİZM, İRQÇİLİK VƏ DARVİNİZM

Faşizmin xüsusiyyətləri ələ alındıqda, avtoritar dövlət rəhbərliyi, lider despotizmi, təcavüzkar bir xarici siyasət kimi anlayışlar qeyd olunur. Ancaq bütün bunlarla yanaşı, faşizmin bəlkə də ən fundamental xüsusiyyəti irqçilikdir. Xüsusilə, nasist ideologiyasına baxdığımız təqdirdə, faşizmi faşizm edən amilin əslində irqçilik olduğunu görərik. Nasistlər üstün irq hesab etdikləri alman irqini bütün dünyaya hakim etmək xəyalıyla yola düşmüşlər və bütün siyasi və ictimai cəhdlərindən bu xəyallarını həyata keçirmək məqsədiylə istifadə etmişdirlər. Vilhelm Reyxin ifadəsiylə "irq nəzəriyyəsi, alman faşizminin nəzəri oxunu meydana gətirir" (75). İrqçilik nasizm qədər olmasa da, Mussolininin, Frankonun rejimləri kimi digər faşist nümunələrdə də təməl ideologiya olmuşdur. Mussolini Roma İmperatorluğunu idarə edən Romalıların üstün bir irq olduğunu və italyanların bu irqin nəvələri olaraq üstünlük daşıdıqlarını irəli sürmüşdür. Efiopiyanı işğal edərkən bu "üstün irq" ifadəsinə əsaslanmış və qara dərili efiyopiyalıların italyanlara boyun əymək məcburiyyətində olduğunu, bunun normal bir irq iyerarxiyası olduğunu müdafiə etmişdir. Franko isə bənzər iddiaları ispanlar üçün dilə gətirmişdir. II Dünya müharibəsindən əvvəl meydana gələn və Hitler-Mussolini ittifaqına daxil olan yapon faşizmində belə "üstün irq" inadkarlığı vardır. Dövrün irqçi ideoloqlarından prof. Çikao Fujisava belə yazmışdır: İnsan nəslinin və universal sivilizasiyanın beşiyi olan Yaponiya, döyüşən bəşəriyyəti böyük universal bir ailədə toplamaq üçün başlatdığı müqəddəs müharibədən xoşbəxt bir nəticə əldə etmək üzrədir. Bu ailə içərisində hər xalqın özünə görə yeri olacaq, hamısının əvvəlində bütün xalqları dünyaya gətirən və sonunda hamısının qayıdacağı, müqəddəs və düzgün həyatın mərkəzində, Günəş Tanrısının oğlu yapon imperatoru olacaqdır (76).

İşin qəribə tərəfi, hər biri də özünü "üstün irq" olaraq görən faşistlərin arasında qurulmuş ittifaqlardır. Məsələn, nasistlər yaponların "üstün irq" olma iddialarına səslərini çıxarmamış, hətta onları "fəxri aryanlar" olaraq xarakterizə edərək təşviq etmişlər. Bəs bütün faşist rejimlərə və kütlələrə təməl meydana gətirən irqçiliyin mənşəyi nədir? Nəticələri nə olmuş, bəşəriyyətə necə ziyan vermişdir? Bu hissədə sualların cavablarını nəzərdən keçirəcəyik.

## İrqçilik və Darvinizm

Kitabın əvvəlki hissələrində irqçiliyin bütpərəst mədəniyyətin bir parçası olduğunu, ilahi dinlər tərəfindən ortadan qaldırıldıqdan sonra 18-ci və 19-cu əsrdə Avropaya geri qayıtdığını ifadə etmişdik. İrqçiliyin yenidən inkişafındakı ən böyük faktor isə, bütün insanları Allahın bərabər hüquqlu olaraq yaratdığını qəbul edən

xristian inancının yerinə, Darvinizmin yerləşdirilməsidir. Darvinizm insanların hələ ibtidai canlılardan təkamül keçirdiyini, üstəlik bu təkamül prosesi ərzində bəzi irqlərin digərlərindən daha çox inkişaf etdiyini irəli sürməklə, irqçiliyə elmi bir maska qazandırmışdır. Bir sözlə Darvin irqçiliyin atasıdır. Darvinin nəzəriyyəsi, Artur Qobino, Hyuston Stüart Çemberlen kimi irqçiliyin "rəsmi" qurucuları tərəfindən izah edilmiş və ortaya çıxan irqçi ideologiya, nasistlər və digər faşistlər tərəfindən tətbiq edilmişdir. Oxford, Stanford, Harvard kimi universitetlərdə illərlə tarix professoru olaraq işləmiş Jemis Joll hələ də universitetlərdə dərs kitabı olaraq oxudulan *Europe Since* 1870 (1870-ci ildən bu yana Avropa) adlı kitabında, Darvinizm ilə irqçilik arasındakı bu ideoloji əlaqəni belə izah edir: İngilis naturalist Çarlz Darvin, 1859-cu ildə nəşr olunan *Növlərin Mənşəyi* və onun ardınca da 1871-ci ildə nəşr edilmiş *İnsanın Törəməsi* adlı kitablarıyla böyük bir mübahisə başlatmış və Avropa düşüncəsinin fərqli sahələrinə eyni anda təsir etmişdir... Darvinin fikirləri və Herbert Spenser kimi onunla eyni əsrdə yaşamış bəzi insanların düşüncələri, çox sürətli bir şəkildə elmdən kənar sahələrdə də tətbiq edilmişdir... Darvinizmin ictimai inkişafa ən çox tətbiq oluna biləcək cəhəti isə, dünyada təbii resursların ödəyə biləcəyi bir əhali artıqlığı olduğu və bunun həmişə güclülərin və ya "uyğun olanların" qalib gələcəyi daimi bir həyat mübarizəsi tələb etdiyi inancıdır. Bəzi sosioloqlar üçün, bu nöqtədən hərkət etməklə, ən "uyğun" ifadəsinə əxlaqi bir məna qazandırmaq və dolayısı ilə həyat mübarizəsində üstün gələn növlərin və ya irqlərin əxlaqi cəhətdən üstün olduqlarını müdafiə etmək çox asan olmuşdur. Bundan ötrü də təbii seleksiya doktrinası, asanlıqla fransız yazıçı Artur Qobino tərəfindən yaradılan başqa bir fikir cərəyanı ilə də birləşmişdir. Qobino 1853-ci ildə *İnsan İrqlərinin Bərabərsizliyi İlə Əlaqədar Bir Məqalə* adlı işi nəşr edən adamdır. Qobino inkişafdakı ən əhəmiyyətli amilin irq olduğunu müdafiə etmiş və digərlərinə üstünlük təmin edən irqlərin, öz irqlərinin xalisliyini ən yaxşı qoruya bilənlər olduğunu irəli sürmüşdür. Qobinoya görə, tarixdəki bu həyat mübarizəsində ən üstün gələn irq, Aryan irqi olmuşdur...

Bu fikirləri bir pillə də irəli aparan adam isə, ingilis yazıçı Hyuston Stüart Çemberlendir... Hitler yazıçıya (Çemberlenə) o qədər heyran olmuşdur ki, onu 1927-ci ildə ölüm anında ziyarət etmişdir (77). Kitabın əvvəlki hissələrində nasizmin baniləri arasında təkamülçü alman bioloq Ernst Hekkelin də böyük bir əhəmiyyət daşıdığını ifadə etmişdik. Hekkel Darvinin nəzəriyyəsini Almaniyaya daşımış və nasistlər üçün hazır bir proqram halına gətirmişdir. Hitler yuxarıdakı sitatda adları keçən Arthur Qobino və Hyuston Stüart Çemberlen kimi irqçilərdən siyasi məzmunlu bir irqçilik, Hekkeldən isə bioloji bir irqçilik götürmüşdür. Diqqət yetirilsə, bütün bu irqçilər Darvinizmdən ilham almış kəslərdir. Belə ki, nasist ideoloqlarında da Darvinizmin güclü bir təsiri müşahidə olunur. Adolf Hitler və Alfred Rozenberq tərəfindən formalaşdırılan bu nəzəriyyə nəzərdən keçirildikdə, "təbii seleksiya", "seçici cütləşmə",

"irqlər arasındakı həyat mübarizəsi" kimi, Darvinin *Növlərin Mənşəyi* kitabında onlarla təkrarlanan anlayışlara rast gəlinir. Hitler məşhur kitabı *"Döyüşüm"*ün adını da, Darvinizmin həyatın bir mübarizə meydanı olduğu və bu mübarizədə üstün gələnlərin həyatda qaldıqları prinsipindən ilhamlanaraq qoymuşdur. Hitler kitabında xüsusilə irqlər arasındakı mübarizədən bəhs etmiş və belə demişdir: "Tarix təbiətin öz-özünə meydana gətirəcəyi yeni bir irqi iyerarxiya nəticəsində tayı bərabəri olmayan bir imperatorluq meydana gətirəcək" (78). 1933-cü ildəki məşhur Nurnberg mitinqində isə, "yüksək irqin aşağı irqləri idarə etdiyini, bunun təbiətdə müşahidə olunan bir həqiqət olduğunu və yeganə məntiqli həqiqət olduğunu "irəli sürmüşdür (79).

Nasistlərin Darvindən təsirləndikləri bu gün bu mövzu üzrə ixtisaslaşmış olan tarixçilərin demək olar ki, hamısı tərəfindən qəbul edilən bir həqiqətdir. "*Faşizmin Yüksəlişi*" (The Rise of Fascism) adlı kitabın yazıçısı Peter Chrisp də bu həqiqəti belə ifadə edir: "Çarlz Darvinin insanların meymunlardan təkamül keçirməsi nəzəriyyəsi ilk dəfə ortaya atıldıqda lağ mövzusu olmuşdu, lakin daha sonra böyük bir miqyasda qəbul edilmişdi. **Nasistlər Darvinin nəzəriyyələrindən... müharibə və irqçiliyi haqlı göstərmək məqsədiylə istifadə etdilər" (**80). Tarixçi Hikman da Hitlerin Darvinizmdən təsirləndiyini belə bildirir: **Hitler qatı bir təkamülçüydü.** Psixi pozğunluğunun dərəcəsi nə olursa olsun *Mein Kampf* kitabı bir sıra təkamül fikrini nümayiş etdirir, xüsusilə də ən uyğun olanların həyat döyüşü və daha yaxşı bir cəmiyyət üçün zəiflərin qətl edilməsi fikirlərinə yer verir (81).

## Nasizmin irq nəzəriyyəsi

Vilhelm Reyx *The Mass Psychology of Fascism* (Faşizmin Kütlə Psixologiyası) adlı kitabında, nasist irq nəzəriyyəsini belə izah edir: İrq nəzəriyyəsi, hər heyvanın yalnız öz növüylə cütləşməsinin təbiətdəki "dəmir qanun" olduğu fərziyyəsindən yola çıxır. Yalnız müstəsna hallarda bu qanun pozulur və irqlər arası qarışıq cinsi əlaqə meydana gəlir. Ancaq bu baş verdikdə isə, təbiət bunun intiqamını alır və əlindəki hər cür imkandan istifadə edərək bu anormallığı dayandırır, ya dünyaya gələn canlı sonsuz olur və ya sonrakı nəsillərin çoxalma qabiliyyəti məhdudlaşdırılır. Fərqli "səviyyələr"dəki iki canlı varlığın cütləşməsi nəticəsində ortaya çıxan bala, qaçılmaz olaraq ortaq bir xarakterdə olacaq. Amma təbiət daha yüksək həyat tərzləri yaratmaq istəyir və bundan ötrü də qarışıq cütləşmə təbiətin məqsədinə ziddir. Digər tərəfdən, gündəlik həyat döyüşü içində təbii seleksiya öz funksiyasını yerinə yetirir və bu yolla zəiflər, yəni irqi cəhətdən aşağı olanlar onsuz da aradan götürülür. Bu "təbiətin

məqsədinə" uyğundur, çünki əgər sayca üstünlük təşkil edən zəiflər, güclü olanlara qarşı qalib gəlsələr, inkişafı təmin edən yüksək cütləşmə də aradan qalxacaqdır (82). Göründüyü kimi nasistlərin irq nəzəriyyəsinin təməlini meydana gətirən bu bioloji görüş, hər cəhətiylə Darvinizmdir. Təbiətin "üstün növləri təkamül prosesindən keçirmək" kimi bir məqsədi olduğu, bunun üçün təbii seleksiyandan istifadə etdiyi, zəiflərin qaçılmaz olaraq aradan götürüldüyü kimi boş sözlər həqiqətdə Darvinin təkamül nəzəriyyəsinin bir xülasəsidir. Elmi bir əsası olmayan, əslində bütpərəstliyin "təbiətə şüur istinad etmə" axmaqlığının bir uyğunlaşdırması olan bu təkamülçü fikirlər nasist vəhşiliyinin də çıxış nöqtəsi olmuşdur. Çünki bu nəzəriyyəni -yenə Darvinizmə uyğun bir formada- insan cəmiyyətlərinə tətbiq etmişdirlər. Vilhelm Reyx yuxarıdakı izahlarından sonra belə yazır:

Nasional sosialistlər daha da irəli gedərək əsaslandıqları bu təbiət qanununu insanlara uyğunlaşdırmağa başladılar. İcra etdikləri məntiq əsas cəhətləriylə belədir: Tarixi təcrübələr göstərir ki, "Aryan qanının aşağı irqlərə qarışması", həmişəlik mədəniyyətin qurucusu olan aryanların degenerasiyalarıyla nəticələnir. Üstün irqin sayı azalır, buna görə də fiziki və zehni geriləmə dövrü başlanır və bu "eniş"ə səbəb olur. Hitler şimal ölkələrinin ancaq "almanların qanının pozulmadığı", yəni almanların alman olmayan xalqlarla əlaqədə olub çoxalmadığı müddətcə güclü qalacağını demişdir (83). Hitlerin **"Şimali Avropa almanlarını bəşəriyyət tarixindən çıxarsanız, geridə meymun rəqsindən başqa bir şey qalmaz"** deyərkən əsaslandığı düşüncə də insanların meymundan təkamül keçirdiyini müdafiə edən və buna görə də bəzilərinin hələ "meymun" olaraq qaldığı nəticəsini verən Darvinist fikirlərdir (84).

Bu azğın məntiqlər, insanın bir heyvan növü kimi görülməsinin və bu heyvan növü içində də "üstün irqlər" və "aşağı irqlər" olduğuna inanılmasının bir nəticəsidir. Darvinin *Növlərin Mənşəyi* və *İnsanın Törəməsi* adlı kitablarında irəli sürdüyü tezis də onsuz da tam olaraq budur. Nasistlər Darvinin nəzəriyyəsini tətbiq etməkdən başqa bir şey etməmişlər. Halbuki, insanların üstünlüyü irqlərə görə deyil. İnsanlar, hansı irqdən olurlarsa olsunlar insandırlar. Hər biri Allah tərəfindən yaradılmış və yer üzünə yerləşdirilmişdir. Quranda bu həqiqət belə xəbər verilir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız (irq və ya nəsil cəhətdən üstün olanınız deyil) Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Yuxarıdakı ayədə bildirilən həqiqət çox aydındır. İnsanlar bu dünyada bir-birlərini hansı meyarlara əsasən qiymətləndirirlərsə qiymətləndirsinlər, Allah Qatında üstünlük "təqva", yəni Allaha yaxınlıq, Allah qorxusu ilədir. Hər hansı bir adamın və ya qrupun

bir irqi üstün görməsi, üstün göstərməyə çalışması yalnız özünü buna inandırması olar. Çünki hər insan haqq-hesab günü Allahın hüzuruna çıxacaq, tək başına olaraq sorğu-sual olunacaqdır. Dünyada öz aləmində üstünlük kimi gördüyü xüsusiyyətləri isə özünə bir fayda verməyəcək. Əksinə dünyada Allahın bildirdiklərinin xaricində meyarlar müəyyənləşdirənlər, öz aləmlərində üstünlük iddia edərək digər insanlara zülm edənlər, zəifləri əzərək güclənməyə çalışanlar həm dünyada, həm də haqq-hesab günündə etdikləri əməllərin əvəzini mütləq alacaqlar. Ayələrdə bu mövzu belə bildirilir:

**Bütün bunlar onların yer üzündə təkəbbür göstərmələrinə və yaramaz hiyləgərliklər törətdiklərinə görə idi. Yaramaz hiylələr isə ancaq öz sahiblərini tora salar. Onlar əvvəlkilərin başlarına gələn aqibətdən başqasınımı gözləyirlər? Sən Allahın qayda-qanununa heç bir əvəz tapa bilməzsən, Allahın qayda-qanununda heç bir dəyişiklik də tapa bilməzsən. Məgər onlar yer üzündə gəzib-dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlərmi? Onlar ki bunlardan daha qüvvətli idilər. Göylərdə və yerdə Allahdan qaçıb xilas ola biləcək heç bir şey yoxdur. Həqiqətən, O, Biləndir və hər şeyə Qadirdir. (Fatir surəsi, 43-44)**

**Məzəmmət olunmağa ancaq insanlara zülm edənlər və yer üzündə haqsız yerə azğınlıq edənlər layiqdirlər. Məhz onlar üçün ağrılı-acılı əzab vardır. (Şura surəsi, 42)**

## Darvinist nəzəriyyənin cəmiyyətə uyğunlaşdırılması: nasist siyasətlər

Nasist ideologiyasına görə irqlər üç əsas kateqoriyaya ayrılırdı: Birinci kateqoriyalar olan "mədəniyyət yaradan irqlər", almanlar və digər şimallı qövmlərdi. "Mədəniyyəti izləyən irqlər" isə, mədəniyyəti inkişaf etdirmə qabiliyyətləri olmayan, lakin təqlid edəbilən "adi" irqlərdi. Hitler, çinlilər, yaponlar kimi millətləri bu ikinci kateqoriyada sayırdı. Üçüncü kateqoriya isə "mədəniyyəti məhv edən irqlər"di ki, bunlar yəhudilər, slavyanlar, zəncilər kimi irqlərdi. Nasist ideologiyası alman irqinin digər "aşağı" irqlərə qarışmasını təkamülə zidd bir "bioloji səhv" kimi görürdü. Hitler belə deyirdi: **"Tarix boyu alman irqinin digər irqlərə qarışması dünya hakimiyyətini ələ keçirə bilməməyimizə səbəb olmuşdur.** Alman milləti dünya hakimi ola bilərdi..." (85). Buna görə də nasistlər hakimiyyətə gəldikləri gündən etibarən bu uydurma "təkamül səhv"ini aradan qaldırmağa çalışdılar. Bu məqsədlə Hitler tərəfindən 1933-ci ildə bir sıra qanunlar qəbul edilərək, irqlər arasında təmizlik əməliyyatına başlanıldı. Yalnız alman qanı daşıyanlara vətəndaş hesab edilmə haqqı və onlara imtiyazlar verildi. 1933-cü ilin iyununda isə cəmiyyəti qaraçılardan, zəncilərdən, yəhudilərdən və

əlillərdən təmizləyəcək bir qanun qəbul edildi. Hitler bu tətbiqləri belə müdafiə edirdi: Dövlət yeni cütləşdirmə hadisələrini qəti surətdə dayandırmalıdır. Bu mövzuda insanların müqəddəs haqlarından söhbət gedə bilməz, çünki insanın tək müqəddəs haqqı vardır və bu haqq həmçinin də vəzifələrin ən müqəddəsidir: **Bu qanının xalis qalması üçün çalışmaqdır.** Bu halda irqçi bir dövlətin hər şeydən əvvəl evliliyi irq pozulmasının itələdiyi çuxurdan çıxarması lazım gələcəkdir (86). Hitler aşağı irqlər bir dəfəlik yox edilsələr gələcək nəsillərin, bəşəriyyəti inkişaf etdirməsindən ötrü özünə minnətdar olacaqlarına inanırdı... Hitler Darvindən aldığı ilhamla "yaratmaq" istədiyi uydurma "üstün irq" gənclərini isə belə təsvir edirdi:

"...Sadəcə bu gənc kişi və oğlanlara bir baxın. Necə bir bəşəriyyət materialıdır. Mən onlara yeni bir dünya quracağam... Mənim metodlarım sərtdir. **Mən çəkiclə işləyirəm, həmçinin də çürük və zəif olan hər şeyi bir kənara atıram. Biz qarşısında dünyanın qorxudan titrəyəcəyi bir gənclik yetişdirəcəyik. Kobud, hökm edici, qorxusuz və mərhəmətsiz bir gənclik yetişdirəcəyik.** Onun belə olmasını istəyirəm! O, bədbəxtliyə dözə biləcəkdir. Onda zəif, nəzakətli heç bir şeyin olmamasını istəyirəm... Ona fiziki idmanlar etdirəcəyəm. Hər şeydən əvvəl güclü olsun: Ən əhəmiyyətlisi budur..." (87). Bəs Hitler yaratmaq istədiyi "**kobud, hökm edici, qorxusuz və mərhəmətsiz** üstün irq"i necə meydana gətirəcəkdi? Yalnız təbliğat üsulları bu iş üçün kifayət deyildi. Nasist irq nəzəriyyəsi, insanı bir heyvan kimi görür və heyvan yetişdiricilərinin etdiyi kimi "islah edilməsini" nəzərdə tuturdu. Məhz buna görə də nasistlər, **"yevgenika"** nəzəriyyəsinə sarıldılar və bunu tətbiq etməyə başladılar. Yevgenika, kitabın əvvəlki səhifələrində nəzərdən keçirdiyimiz kimi, mənşəyi köhnə Yunanıstandakı bütpərəst Sparta şəhərinə gedib çıxan və 19-cu əsrdə Çarlz Darvinin əmisi oğlu Frensis Qalton tərəfindən yenidən gündəmə gətirilən "insan irqinin islahı" nəzəriyyəsidir. Ernst Hekkel yevgenikanın necə ediləcəyini təsvir etmiş, şikəst körpələrin doğulduqları anda öldürülmələrini, xəstə, zəif və ya ağıl cəhətdən inkişafdan geri qalmış insanların xədimləşdirilmələrini müdafiə etmişdi. Nasistlər bu qeyri-insani nəzəriyyəni tətbiq etməkdə yubanmadılar. Hakimiyyətə gəldikləri 1933-ci ildə **"irqi sterilizasiya"** qanunları qəbul edildi. Bu qanunlara görə şikəstlər, əqli cəhətdən üzrlü olanlar, xəstə insanlar xədimləşdirilməli və beləcə çoxalmalarının qarşısı alınmalıydı. Hətta, cəmiyyətdən təcrid olunmalı və buna görə də müəyyən mərkəzlərdə toplanmalıydılar. Nasistlər bu mərkəzləri vaxt itirmədən qurdular və bir çox insanı bu yerlərdə toplayıb onlara heyvan kimi rəftar göstərdilər. "Nasist Müqəddəs Sağlamlıq Məhkəmələri" ilk üç il əzrində 80 000 adama xədimləşdirmə əməliyyatı həyata keçirdi. Vaxt keçdikcə almanların yevgenika siyasəti daha da gücləndi və nəticədə gicbəsərlərə, dəlilərə və digər istənilməyən adamlara **"ağrısız ölüm"** tətbiq olundu. **Yəni bu kəslər dərman verilmək surətiylə öldürüldülər.** Bu dövrdə çəkilmiş bəzi film və fotoşəkillər, nasist həkimləri tərəfindən zəhər vurularaq

öldürülən minlərlə ağıl xəstəsi və ya şikəst insanın ürəkağrıdıcı vəziyyətini göstərir. Yaşlılar və kiçik uşaq belə bu vəhşiliyin hədəfi olmuşlar. Nasist Almaniyası bu qorxunc vəhşiliyi tükünü belə tərpətmədən həyata keçirərək, bir tərəfdən də "müsbət islah" işlərinə başladı. Bu islahın məqsədi xəstələrin öldürülməsi mənasını verən "mənfi islahın" əvəzinə, irqi cəhətdən "keyfiyyətli" olan almanların çoxaldılmasıdır. Bu siyasətin tələbi olan "aryan irqindən" olduğu qəbul edilən qadın və kişilərin birləşməsi və uşaq sahibi olması dəstəkləndi (88). Bu məqsədlə "üstün irq" xüsusiyyətlərinə sahib olduğu düşünülən (sarışın, mavi gözlü, bədən quruluşunda olan) qadınlar seçilib xüsusi evlərdə yerləşdirildilər və proqramda qaldıqları müddətcə mümkün olduğu qədər çox sayda nasist zabiti tərəfindən hamilə buraxıldılar.

Məqsəd yaxşı bir inək və ya at cinsi yetişdirirmiş kimi, yaxşı bir "aryan irq" nəsli yetişdirməkdi. Amma əldə edilən nəticələr nasistləri xəyal qırıqlığına uğradacaq və bu uşaqların İQ-lərinin ümumi orta göstəricidən daha aşağı olduğu aşkar olunacaqdı (89). Hitler yevgenika və irqin saflaşdırılması tətbiqlərini belə müdafiə edirdi: "Faşist dövləti ən müqəddəs siyasi və ictimai dəyərdir. Onun güclənməsinə kömək edən hər şey əxlaqa uyğundur. Ona mane olan isə əxlaqa ziddir və məhv edilməlidir. İnsan həyatının, faşist cəmiyyətinə faydalı olduğu təqdirdə mənası vardır" (90).

## Nasizmin digər irqlərə qarşı göstərdiyi vəhşilik

Nasizmin irqçi vəhşiliyi, yalnız Almaniya sərhədləri daxilindəki "uyğun olmayan" insanları deyil, bütün dünyanı hədəf alırdı. Hitlerin yuxusu bütün dünyaya hökm edəcək bir alman imperatorluğu yaratmaq və dünyadakı bütün "aşağı" irqləri sterilizə edərək qondarma "insan təkamülü" prosesini sürətləndirməkdi. Necə ki, bu, Darvinin də dilə gətirdiyi bir proqnozdu. Məlum olduğu kimi Darvin, *İnsanın Törəməsi* adlı kitabında, "yaxın bir gələcəkdə mədəni insan irqləri vəhşi irqləri tamamilə yer üzündən siləcəklər və onların yerinə keçəcəklər. Digər tərəfdən insanabənzər meymunlar da, şübhəsiz ki, aradan götürüləcəklər" deyirdi. Darvinin bu proqnozunu tətbiq etmək vəzifəsini də Hitler boynuna götürmüşdü.

Bu planı 1939-cu ildə tətbiq etməyə başladı. Ani hücumlarla əvvəlcə Polşanı, sonra da Danimarka, Norveç, Belçika, Hollandiya, Fransa, Yuqoslaviya və Yunanıstanı, Şimali Afrikanı və Sovet İttifaqını işğal etdi. İşğal altındakı ölkələrin xalqlarına, xüsusilə "aşağı irqlər" kateqoriyasına daxil edilən insanlara böyük zülm yaşadıldı. Milyonlarla insan dustaq olaraq işlədilmək üçün toplama düşərgələrinə göndərildi və faciəvi şərtlərdə yaşadıldı. Bu düşərgələrdə həyatını itirən yüz minlərlə yəhudi, qaraçı, slavyan, rus və digər millətlərdən olan insanlar, Darvinist irqçiliyin gəldiyi nəticəyə dair bir sənəddir. (Düşərgələrdə həyatını itirən yəhudilərin bir qismi də, həqiqətdə yəhudi

xəzər türkləridir). Nasist vəhşiliyinin ən qəribə nümunələrindən biri, nasist zabiti **Josef Mengele**nin Ausçvitz toplama düşərgəsində məhbuslar üzərində apardığı qeyri-insani təcrübələrdir. Mengele tərəfindən düşərgədəki məhbuslar arasından "sınaq vasitəsi" olaraq seçilən yetkinlər və uşaqlar üzərində, insan bədəninin ağrıya və ya soyuğa nə qədər dözə bildiyini öyrənmək üçün qorxunc təcrübələr aparmışdır. Soyuq qış günündə buzlu sulara zorla soxulub gözlədilən insanların, donmadan əvvəl neçə dəqiqə yaşaya bildikləri sınaqdan keçirilmişdir. Mengelen apardığı təcrübələrdə insanlara narkoz vermədən onlar üzərində cərrahi əməliyyatlar həyata keçirdiyi, məsələn insanların qollarını, qıçlarını və ya mədələrini diri-diri kəsdiyi məlumdur. Mengelenin ən zalım təcrübələri isə, düşərgəyə gələn əkiz uşaqlar üzərində olmuşdur. Mengele düşərgəyə gələn bütün əkizləri digər məhbuslardan ayırmış və üzərlərində müxtəlif təcrübələr apararaq irsi amillərin təsirini ölçmüşdür. Ancaq istifadə etdiyi metodlar inanılmaz dərəcədə əziyyətlidir. Əkizlərin qanını bir-birinə vuraraq reaksiyanı hesablamış, çox vaxt əkizlərdən biri və ya hər ikisi şiddətli ağrılar yaşamış və bədən temperaturları xeyli yüksəlmişdir. Mengele göz rənginin irsi olaraq dəyişdirilib dəyişdirilməyəcəyini yoxlamaq istəmiş və bu məqsədlə əkizlərin gözlərinə mavi rənkli mürəkkəb tökmüşdür. Çoxları dəhşətli ağrılar çəkmiş və bir qismi kor olmuşdur. Kiçik uşaqların bədənlərinə müxtəlif xəstəliklərin mikrobları yeridilmiş və bu xəstəliklərə nə qədər dözə bildikləri yoxlanmışdır. Bir çox günahsız uşaq Mengele adlı bu nasist canavarının əlində işgəncə çəkmiş, şikəst qalmış və ya ölmüşdür. Bu ağlasığmaz vəhşiliyin təməlində, insanları bir heyvan növü kimi görən, bəzi insan irqlərini isə "zərərli heyvanlar" olaraq qəbul edən Darvinist-faşist irq nəzəriyyəsi durur. Necə ki, Mengelenin keçmişinə baxıldığı təqdirdə, bu nəzəriyyə ilə yetişdirildiyi açıq şəkildə görülür. Mengelenin həyatını və törətdiyi vəhşiliklərindən sözü gedən bir işdə, nasist həkiminin ağıl müəllimi olan dr. Ernst Rudinin Sosial Darvinizmindən belə bəhs edilir: Əgər Mengele nasist kariyerasının ən yuxarı nöqtəsində vicdansız bir canavar halına gəldisə, bunu, şübhəsiz ki, Almaniyanın ən şeytani zehinlərindən öyrənmişdir. **Mengele şagird olarkən dr. Ernst Rudinin dərslərini izləmişdir.** Rudin bəzi insanların yaşamaq haqqına sahib olmadığını və üstəlik həkimlərin bu insanların həyatına son qoyma və cəmiyyətdən çıxarma məsuliyyətinə sahib olduğunu irəli sürən bir adamdır. Fikirləri şəxsən Hitlerin diqqətini çəkmiş və 1933-ci ildə qəbul edilən irsi Sağlamlığı Qoruma Aktı üçün Rudinin məsləhətinə müraciət edilmişdir. Bu güzəştə getməyən sosial darvinist, çoxalaraq və alman gen hovuzunu çirkləndirən aşağıdakı insanların xədimləşdirilməsi üçün başladılan nasist fəaliyyətlərə dəstək vermişdir: Əqli cəhətdən qüsurlu, şizofreniyalı, depressiyalar, epilepsiya xəstələri, irsi korlar, karlar, şikəstlər və s. (91). Sosial Darvinizm nasist vəhşiliyinin hər mərhələsində yenidən ortaya çıxır. Nasist vəhşiliyinin ən qabaqcıl qurucularından biri olan SS rəisi Henrix Himmlerin ilham mənbəyi də darvinist "qarşıdurma" və "həyat mübarizəsi" anlayışlarından başqa bir şey deyildi. Tətbiq etdiyi zülmün uydurma "elmi" məntiqini belə izah etmişdi:

"Təbiətin qanunu, güclü olanın həyatda qalacağı dünyamızda öz rolunu oynamalıdır" (92).

Himmler aryan irqindən olmayan insanları, xüsusilə slavyan, yəhudi, rus kimi xalqları bir heyvan kimi görür və onlara hər cür zülmün tətbiq edilməsini normal olaraq qarşılayırdı. Əsir düşən rus qadınlar haqqında belə danışmışdı: "Tankvuran təhlükəsi üçün çuxur qazan 10 000 rus qadını eyni anda yorğunluqdan yerə yıxıldıqları vaxt məni maraqlandıran tək şey o çuxurun Böyük Almaniyanın mənfəətləri üçün tamamlanmasının lazım olduğudur. Qadınlar qaldırılmalı və işlərini qurtarmalıdırlar. Sonra ölürlərsə ölsünlər..." (93). Himmler işğal edilən ölkələrdə almanlarının tərəfində döyüşmək istəyən könüllü şəxsləri belə adam yerinə qoymayan şərhlər verməkdən çəkinməmişdi: "Könüllülərə istədikləri hər şeyi edə biləcəklərini dedim. Amma bir mövzuda bunu bilməlisiz ki, SS sizin ölkələrinizdə də təşkilatlanacaqdır. Bütün Avropada təkcə Alman SS-i mövcud olacaq. Sizin fürsət arxasınca qaçıb almanlaşmağınızı istəyən də yoxdur. Sizdən istənilən və etməli olduğumuz şey, üstün irq və üstün tarixi idealı, milli mənfəət və qürurunuzdan üstün tutmağınızdır. Üstün olan Alman Reyxdir. Bunu unutmayın " (94).

Hitlerin guya "üstün irqin hakimiyyəti" üçün başlatdığı II Dünya müharibəsinin nəticəsi isə çox ağır oldu. 55 milyondan çox insan öldü ki, bunların çoxu mülki vətəndaş idi. Maddi itkilər fövqəladə göstəricilərə çatdı. Nasistləri bu faciə üçün hərəkətə keçirən ən böyük faktor isə, sahib olduqları "üstün irq" iddiasıydı. Bu iddianın mənşəyi də, Darvinin təkamül nəzəriyyəsi idi. Hitlerin ən böyük müttəfiqi olan Benito Mussolini də eyni onun kimi Darvinizmdən olduqca təsirlənmişdi. Mussoliniyə görə zorakılıq, sosial dəyişikliyi yaşayarkən olduqca lazımi bir ünsürdü. Mussolini danışıqlarında tez-tez darvinist terminlərdən istifadə edir və sülhlə əlaqədar hər cür yanaşmaya qarşı çıxırdı. İngilis imperatorluğunun zəifləməsini, "təkamülün ən əhəmiyyətli hərəkətverici gücü olan döyüşdən qaçmağa çalışmasıyla" əlaqələndirirdi (95). Faşist irqçilik haqqındakı bu həqiqətlərin ortaya qoyduğu nəticə aydındır: Darvinizm həm faşist rejimlərin, həm də iki dünya müharibəsinin, pərdə arxasında gizlənən "həqiqi" məsuludur. Bunların Darvinizmlə əlaqəli olduğunu indiki vaxtda bəlkə də çox az insan bilir. Halbuki, faşistlər əsas inanclarını Darvinizmdən alırlar. Heç bir şeyə gücü çatmayan kor təsadüfləri guya yaradıcı bir güc kimi görən bu sistemdə xaos, mərhəmətsizlik, zülm, güclünün haqlı olması kimi prinsiplər vardır. Darvinizmdəki daimi mübarizə prinsipi, bitib tükənmək bilməyən vəhşiliklərin, zülmlərin, qırğınların fəlsəfi zəminini əmələ gətirir. Halbuki, Allah insan irqlərini bir-birləriylə bərabər yaratmış, daha əvvəl də ifadə etdiyimiz kimi üstünlüyün təqvayla, yəni Allahdan qorxub Onun əmrlərinə tabe olmaqla əlaqəli olduğunu bildirmişdir. İnsanlara zülm etməyi, mərhəmətsiz davranmağı isə qadağan etmişdir. Tarix boyu bu əmrə qarşı çıxan zalım liderlər və qövmlər həmişə eyni pis aqibətlə qarşılaşmışlar.

**Mümin surəsinin 56-cı** ayəsində bildirildiyi kimi, **"ürəklərində böyüklük iddiasından başqa bir şey yoxdur. Onlar heç vaxt buna çatmayacaqlar",** həqiqətən də heç vaxt bu istəklərinə çata bilməmişdilər. Allah Şuəra surəsinin 227-ci ayəsində **"... zülm edənlər, necə devriləcəklərini yaxında biləcəklər"** buyuraraq, bu insanların dünyada məğlubiyyətlə qarşılaşacağını xəbər vermişdir. İnsanlara zülm edənlərin axirətdə qarşılaşacaqları aqibət isə çox pisdir.

Quranda belə bildirilir:

**Kafirləri və zalımları Allah bağışlamayacaq və doğru yola yönəltməyəcəkdir; içərisində əbədi qalacaqları Cəhənnəm yolundan başqa. Bu isə Allah üçün asandır. (Nisa surəsi, 168-169)**

# FAŞİZMİN DİN DÜŞMƏNÇİLİYİ

Dünyada bu günə qədər mövcud olan faşist sistemlərin sahib olduqları ortaq nöqtələrdən biri din əxlaqına qarşı olan münasibətləridir. İlk baxışda, bütün faşist sistemlərin xalqın sahib olduğu dini müdafiə etdiyi görülər. Ancaq faşistlər dini səmimi olaraq müdafiə etməzlər. Tək məqsədləri, dini təşkilatlardan və inanclı xalqdan dəstək almaq, dini termin və anlayışlardan istifadə edərək xalqı özlərinə bağlaya bilməkdir. Bu dinin İslam, xristianlıq və ya yəhudilik olması ya da buddizm kimi batil bir inanc olması faşistlər üçün əhəmiyyət kəsb etməz. Əsl məqsəd eyni inancla bir-birinə bağlı olan cəmiyyət, kütləvi olaraq istənilən şəkildə yönləndirilə bilməsidir. Hitler, Mussolini, Franko kimi faşist diktatorların və hətta müasir faşistlərin siyasəti və tətbiqləri araşdırıldığı təqdirdə, din əxlaqına qarşı olan münasibətin iç üzü də asanlıqla görülə bilir.

Hər şeydən əvvəl faşistlərin səmimi olaraq din əxlaqını müdafiə etmələri qeyri-mümkündür, çünki faşistlərin sahib olduqları xarakter və həyata baxış tərzləri dinin insanlara qazandırdığı gözəl əxlaqla tamamilə ziddir. Uca Allahın insanlar üçün seçdiyi dində sülh və dinclik olduğu halda, faşizmdə döyüş və narahatlıq vardır. Allah insanlara gözəl söz deməyi, bağışlamağı və sevgini əmr edir, faşistlər isə kin və nifrəti, bitib tükənməyən mübarizəni və döyüşü əmr edir. Buna görə də faşistlər dinin səmimi olaraq yaşanmasını və cəmiyyətə dinin gətirdiyi gözəl əxlaqın hakim olmasını istəməzlər, çünki belə bir vəziyyətdə özləri cəmiyyətə hakim ola bilməyəcəklər. Buna görə də həm guya dindar kimi görünür, həm də haqq dinin yaşanmasınının gizlicə və məkrli tədbir və tətbiqlər həyata keçirməklə qarşısını almağa çalışırlar. 20-ci əsr tarixi bunun dəlilləriylə zəngindir.

## Nasistlərin din düşmənçiliyi

Nasist ideologiyasının köklərini və din mövzusundakı mövqeyini kitabın əvvəlki bölmələrində araşdırmışdıq. Dəlilləriylə ortaya qoyduğumuz kimi, nasist ideologiyası, bütün ilahi dinlərə qarşı nifrət bəsləyən azğın bir təlimdir. Bu ideologiyanın təməli Nitsşenin din düşmənçiliyi fəlsəfəsinə və Darvinin yaradılışı rədd edən ateist təkamül nəzəriyyəsinə əsaslanır. Nasistlərin əxlaq anlayışı isə, qədim Yunanıstandakı və xristianlıqdan əvvəlki kobudluq tərəfdarı olan alman qövmlərindəki bütpərəst mədəniyyətin bir təqlididir: Nasizm bütpərəst bir ideologiyadır. Bu həqiqət, mövzunu araşdıran bir çox şərhçi tərəfindən dilə gətirilmişdir. Amerikalı araşdırmaçı Jerry Bergmann tərəfindən qələmə alınan *Darwinism and the Nazi Race Holocaust* (Darvinizm və nasist İrq Soyqırımı) başlıqlı bir məqalədə, nasistlərin dinə necə baxdıqları belə izah olunur: "Alman teologiyasının ana xəttindən və məktəblərindən

dini çıxarmaq və yerinə Darvinizmi yerləşdirmək, soyqırım faciəsiylə nəticələnən Sosial Darvinizmin qəbul edilməsinə açıq şəkildə kömək etdi (96).

The Scientific Origins of National socialism (Nasizmin elmi mənşələri) başlıqlı kitabın yazıçısı Daniel Qasman da bu tapıntını təsdiqləyir və belə yazır: Hitler bioloji təkamül fikrini, ənənəvi din qarşısındakı ən güclü silah olaraq vurğulamışdı və xristianlığı təkamül təliminin əleyhdarı olaraq daima günahlandırmışdı. Hitler üçün, təkamül müasir elmin və mədəniyyətin keyfiyyət göstəricisiydi. O da Hekkel kimi təkamülün doğru olduğunu çox güclü şəkildə müdafiə etmişdi (97). Hitler dinə olan nifrətini bu sözləriylə də göstərmişdi: ... (Din deyilən) uydurulmuş yalan yox edilməlidir. Dövlət mütləq idarəçi olaraq qalmalıdır. Gənc olduğum vaxt dini dinamitlə yox etməyin lazım olduğuna inanırdım... İnsanlarımız din olmadan yaşamağı bacardılar. Altı SS birliyim var və bunlar din mövzusunda tamamilə laqeyddirlər. Amma bu onların ruhları cəsarətlə dolu halda ölümə getmələrinə mane olmur (98).

Şübhəsiz ki, Hitler bu azğın məntiq örgüsünü irəli sürərkən xeyli aldanmışdı. İnsanlara vicdanlarının əmr etdiyi kimi yaşamağı öyrədən din əxlaqı, bir cəmiyyəti ayaqda saxlayan əsl dəyərdir. Din əxlaqının yaşanmadığı cəmiyyətlərdə isə, tarixdə bir çox nümunədə görüldüyü kimi, korlanma və məhv qaçılmazdır. Bu məhvin, faşist sistemlərdə olduğu kimi totalitar tətbiqlərlə qarşısını almaq qeyri-mümkündür. Nasistlərin başına gələn aqibət bu baxımdan da olduqca ibrətamizdir. Üstəlik Hitler bu fikirləriylə robot bir cəmiyyət meydana gətirir və əsgərlərini mənasız bir şey uğrunda daima ölümə göndərirdi. "Alman ruhu", "döyüşçü qüruru" və s. kimi bütpərəst anlayışlarla bəzəməyə çalışdığı bu modeli yox edəcəyini çox yaxşı bildiyi, ilahi dinlərə isə öz aləmində "dinamitlə yox edilməsi lazım olan" inanclar olaraq baxırdı. Hitler din mövzusundakı fikirlərini, Oberzalsbergdəki villasında toplanan zabitlərinə də qısaca olaraq belə çatdırmışdı: "Bizlərin ümumiyyətlə səhvən bir dinə bağlanmamız bədbəxtlikdir. Çünki vətən uğrunda can fəda etməyi müqəddəs sayan yaponların o dini niyə bizdə yoxdur?" (99).

Bütün bunlar Hitlerin inkarçı xarakterini göstərən ifadələrdir. Faşistlərin azğın anlayışına görə əgər din əxlaqı yaponlarınkı kimi döyüşü əmr edirsə, belə bir dini, öz ideologiyaları üçün istifadə edə biləcəklərindən ötrü qəbul edə bilərdilər. Ancaq xristianlıq döyüşün deyil, sülh, rəqabətin deyil, fədakarlığın tərəfdarıydı. Buna görə də nasist partiyası bir tərəfdən katolik kilsəsiylə daima döyüşdüyü halda, bir tərəfdən də "nasizmə uyğun bir xristianlıq" meydana gətirməyə çalışdı.

## Nasistlərin meydana gətirdiyi "İrqçi Xristianlıq"

Nasistlər əslində din əxlaqına qarşı olmalarına baxmayaraq, qarşı tətbiqdə siyasi davrandılar, bəzən kilsəni dəstəkləyirmiş kimi görünərkən, bəzən də açıq şəkildə kilsəyə qarşı döyüşə başladılar. Əsl məqsəd dini təşkilatlardan çatmaq istədikləri məqsəddə maşa kimi istifadə edə bilməkdi. Hitler, xüsusilə, bütün xristianları millətüstü bir birlik içində görən katolik kilsəsinə düşmən idi. Hitlerin məqsədi bunun əvəzinə, yalnız almanlara xas bir kilsə qurulması, sonra da kilsənin nəzərdə tutduğu dinin mərhələli şəkildə alman faşizminin bir vasitəsi halına gəlməsiydi. Nasist ideoloqlarından Qottfried Feder "nasist Partiyasının Proqramı və Dünya Görüşü" başlıqlı bir yazısında belə deyirdi: Əlbəttə ki, bir gün alman xalqı, sahib olduğu şimallı qanın tələb etdiyi bir Tanrı qəbul edəcək və təcrübə qazanacaq. Əlbəttə ki, ancaq bu təqdirdə qan, inanc və dövlət üçlüyü tam olaraq reallaşacaqdır (100).

Bu bütpərəst və inkarçı dünyagörüşünə görə din, "qan və dövlət"lə, yəni nasistlərin irqçi ideologiyası və totalitar rejimi ilə uyğun bir hala gəlməliydi. Hitler dindən istifadə etməyə yönələn bu yanaşmasını, *Döyüşüm* adlı kitabında da qısaca olaraq belə qeyd etmişdi: "Kim birlikləri qazanmaq istəyirsə, o, birliklərin ürəklərini açan açarları bilməlidir (101). Hitler kütlələri öz tərəfinə çəkə bilmək üçün dini terminlərdən öz aləmində bir açar kimi istifadə etdi və irqçiliyi sanki müqəddəs bir ibadət kimi göstərməyə çalışdı. Həqiqətdə bir Darvinist olmasına, yəni yaradılışı inkar etməsinə baxmayaraq, kütlələrə irqçilik təbliğatı edərkən yaradılışa istinad etmiş, ancaq bu həqiqəti təhrif edərək irqçiliyə əsas meydana gətirmək istəmişdi. Hitlerin *Döyüşüm* adlı kitabında olan bu cümlələr diqqət çəkicidir: "Nəticə etibarilə bunu deyə bilərəm: Yüksək irqin səviyyəsini aşağı salmaq, fizika və fitri bir geriləmə meydana gətirmək, yaradıcımız olan Allahın iradəsinə qarşı günah işləməkdir" (102). "Cütləşdirilən yaxud cütləşməyə imkan verən millətlər, Allahın iradəsinə qarşı günah işləyərlər. Bir millət şəxsi xüsusiyyətinə bağlı qalmasa dünyada varlığına son qoyulmasına şikayətçi olmağa haqqı çatmır" (103). Əlbəttə ki, bunlar yalnız bir təhrif və məlumatsız xalqı inandırmaq üçün istifadə edilən yalanlardı. Necə ki, nasizmin dini anlayışları bu şəkildə düzgün əks etdirməməsi və irqçi ideologiyanın vasitəsi halına gətirməsi, müəyyən ölçüdə təsirli oldu. Bunda, Almaniyadakı bəzi kilsələrin fürsətçi idarəçilərinin də əhəmiyyətli bir payı vardı. Hitler ilə əməkdaşlıq edən bu ikiüzlü din adamları, nasizmi müxtəlif yollarla təbliğ etdilər. 1933-cü ildə, Hitlerin hələ hakimiyyətə gəldiyi günlərdə alman kilsələr Birliyi idarəçisi olan Viskansler von Pappen: "Dövlət idarəçisinə xas instinkt sayəsində bütün çətinliklərin və təhlükələrin öhdəsindən gələrək, ölkəni parlaq və xoşbəxt gələcəyə çatdıracaq idarəçiləri olduqca çətin bir vaxtda bizə bəxş edən mərhəmətli Tanrı, Almaniyanı müqəddəsləşdirdi" deyərək açıq şəkildə yalan danışırdı. Bəzi şairlər də Hitleri Almaniyanı parlaq bir gələcəyə qovuşdurmaq məqsədiylə, xüsusi seçilmiş bir adam olaraq tərifləyirdilər (104). Nasistlər bəzi kilsələri əməkdaşlıq edərkən, bəzilərini isə təzyiq və qorxuyla

məhv etmək istədilər. 1932-ci ildə protestant kilsəsindən olan keşiş Dietriç Bonhoeffer Berlində "Həqiqət" barəsində bir dini söhbət etdi. Çıxışında kinə əsaslanan irqçi bir sistemə qarşı sevgini irəli sürdü. Bu rejimə zidd olan münasibətindən ötrü sonunda nasistlər tərəfindən edam edildi (105). 1933-1939-cu illər arasında bir çox katolik keşişi həbs olundu. Katolik hərəkatın lideri Eriç Klausener, 1934-cü ildəki təmizlikdə öldürüldü. Katolik nəşrlər qadağan edildi. Nasistlər bəzi protestant kilsələrinə də hücum etdilər. Nasist ideologiyasını müqəddəsləşdirən din adamları isə mükafatlandırılırdı. Bunlardan biri, Hitler tərəfindən Kilsə rəhbəri olaraq təyin olunan Hans Kerrl idi. Dr. Kerrl, 13 fevral 1937-ci ildə din adamlarına verdiyi bir nitqində, öz aləmində xristianlığı nasist ideologiyasının bir cihazı halına gətirir və böyük bir yalana şərik olurdu: "Partiya müsbət xristianlığa əsaslanır və müsbət xristianlıq da nasional-sosializmdir. Nasional-sosializm Tanrının əmrini yerinə yetirir" (106). 1937-ci ilin sonu və 1938-ci ilin əvvəlində, nasist terroru qarşısında boyun əyən protestant keşişləri, Hitlerə sədaqət andı içərək, kilsə qurumunun təslimiyyətini rəsmiləşdirmiş oldular. Beləcə Hitler hakimiyyəti hər sahədə əlində tutmuş olurdu. Kilsə belə öz nəzarəti altında idi. Ancaq son məqsədi, bütün ilahi dinləri ortadan qaldırmaq və Almaniyanı tam bir bütpərəst cəmiyyət halına gətirməkdi. 1941-ci ilin iyun ayına aid məxfi bir sənəddə, dinin yox edilməsi məqsədi belə izah edilirdi:

Xalq, kilsədən və onun keşişlərindən mümkün ola bildiyi qədər daha çox uzaqlaşdırılmalıdır. Bundan belə xalqın və onun idarəsində kilsənin təsirinə daha çox imkan verilməməlidir. Bu təsir tamamilə yox edilməlidir. Ancaq Reyx hökuməti və onun təlimatlarına görə partiya və partiyanın tərkib elementləri, ona yaxın olan təşkilatları, xalqı idarə etmə hüququna sahibdir (107).

Əlbəttə ki, Hitler bu məqsədinə heç vaxt çata bilməmişdir və Hitler kimi oxşar məqsədlə, din əxlaqına qarşı mübarizə aparanlar da, Allahın izniylə, məğlub olmağa məhkumdurlar. Bu, Allahın qanunudur. Rəbbimiz bir ayəsində, inkarçılar istəməsələr də din əxlaqının üstün gələcəyini belə müjdələmişdir:

**Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə buna yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar. (Tövbə surəsi, 32)**

## Nasistlərdəki yəhudi düşmənçiliyinin əsl mənası

Nasistlərin din mövzusundakı düşüncə və siyasətlərini başa düşmək üçün, yəhudilərə və yəhudiliyə qarşı göstərdikləri qatı düşmənçiliyi də araşdırmaq lazımdır. Nasistlərin yəhudi düşmənçiliyi, həqiqətdə sözü gedən din düşməni ideologiyalarının bir parçası

idi. Çünki nasistlərin məntiqinə görə, əvvəllər bütpərəst və döyüşçü bir cəmiyyət olan almanlar, xristianlığın yayılmasıyla birlikdə bu mədəniyyəti tərk etmişdilər, xristianlıq isə yəhudiliyin bir davamı idi. Xristianlıqdan nifrət edən nasistlər həqiqətdə onu bir "yəhudi sui-qəsdi" kimi görürdülər.

Allah Qatında müqəddəs və mübarək bir insan olan hz. İsaya tabe olmurdular. Öz azğın məntiqlərinə görə almanların yol göstəricisinin alman nəslindən gəlməli olduğunu irəli sürürdülər. Sahib olduqları vəhşi ideologiya, özlərinə yalnız alman mədəniyyətinin kobudluq tərəfdarı olan və zalım döyüşçülərini nümunə almağı öyrədirdi.

Nasist ideologiyasına baxdıqda, dünya tarixinin, "Aryan irqi" ilə "Sami irqi" arasındakı bir qarşıdurma olaraq şərh olunduğu görülə bilər. Nasistlərə görə Aryan irqi Hind-Avropa mədəniyyətinin, Sami irqi (yəhudilər və ərəblər) isə Yaxın Şərq mədəniyyətinin qabaqcıllarıdır. Hind-Avropa mədəniyyətinin əsas xüsusiyyəti isə, bütpərəst inanclara sahib olmasıdır. Nasistlər məhz bu səbəblə də özlərini bütpərəst bir mədəniyyətin varisləri olaraq görmüşlər, yəhudiləri isə, bütpərəstliyə qarşı çıxıb tövhid (Allahın Birliyi) inancını dünyaya yayan düşmən bir irq olaraq qəbul etmişlər. Nasistlərin bütpərəst ideologiyalarını mövzu götürən The Pink Swastika adlı əsərdə, bu mövzu qısaca olaraq belə qeyd olunur: Nasistlərin əvvəlcə yəhudi xalqına hücum etməsinin və onları yox etmək istəmələrinin səbəbi, müqəddəs Kitabın, yəni Tövrat və İncilin, xristian əxlaqının təməllərini meydana gətirməsidir (108).

Nasizmin bu azğın inancı digər bir çox faşist cərəyanda da müşahidə olunur. Bu gün hələ də bir çox neo-nasist qrupu, "Aryan irqinin dini" olaraq gördükləri bütpərəst inanclara bağlanır, başda haqq din olan İslam olmaqla, xristianlıq və yəhudilik kimi vəhyə əsaslanan ilahi dinləri isə guya "sami əfsanələr" olaraq görüb bunlara qarşı düşmənçilik bəsləyirlər. İslam aləmində də bu yanlış məntiq əsasında "ərəb düşmənçiliyi" şəklində yeni bir antisemitizm meydana gətirməyə çalışan faşist meyillər olmuşdur. Halbuki, ilahi dinlər, yalnız sami irqlərə deyil, dünyadakı bütün insanlara xitab edir və dünyadakı bütün insanların xilası da təhrifə məruz qalmayan son haqq din olan İslamdadır. Allahın insanlara göndərdiyi dini rədd edərək, atalarının azğın dini olan bütpərəstliyə sitayiş edən faşizm isə, böyük bir ağılsızlıqdan ibarətdir. Allah "atalarının dini"nin arxasınca gedən bu kimi ağılsız insanların vəziyyətini Quranda belə bildirilmişdir:

**Onlara: “Allahın nazil etdiyinə tabe olun!” – deyildikdə, onlar: “Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!” – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)**

## Faşizmin iki üzlü din siyasəti

Hitlerin din haqqında istifadə etdiyi ikiüzlü siyasət də, yalnız nasizmə xas bir üsul deyil, faşist rejimlərin ümumi obrazıdır. Faşist ideologiya üçün din yalnız bir vasitədir. Çünki dini dəyərlərdən istifadə etmədikləri müddətcə xalqlarının, etdikləri zülmlərə və irqçi siyasətlərə reaksiya verəcəklərini bilirlər. Bu səbəblə də dini anlayışları təhrif edərək öz ağıllarına görə şərh irəli sürərlər. Ağızlarında daima yaşadıqları cəmiyyətin istifadə etdiyi dini terminlər, dini ifadələr vardır, ancaq tətbiqə baxıldığı təqdirdə dindən olduqca uzaq bir strukturla qarşılaşırıq. Bu, faşist liderlərin xalqı özlərinə bağlaya bilmək məqsədiylə meydana gətirdikləri bir siyasətdən başqa bir şey deyildir. Çünki xalqın dini dəyərlər naminə bir çox fədakarlığı edə biləcəyini, bu ülvi inanclardan ötrü bir çox şeyi gözə ala biləcəklərini onlar da bilirlər. Bu səbəblə də özlərini Allah naminə, din naminə yola çıxmış kimi göstərərlər. Dini xatırladacaq və beləcə xalqı motivasiya edəcək şüarlar istifadə edib, təbliğatlarında da dini simvollara üstünlük verib, özlərinə dini bir görünüş qazandırmaq istəyirlər. Buna qarşı faşizmin tələb etdiyi bütün zalımlıqları və qeyri-insani hərəkətləri də edərlər. Yəni əslində dedikləriylə etdikləri bir-birinə tamamilə ziddir. Faşistlərin öz hakimiyyətləri üçün dini beləsinə saxtakar bir üzlə istifadə etmələri onların zalımlıqlarının başqa bir dəlilidir. Allaha qarşı yalan uyduranlar üçün Rəbbimiz ayədə belə bildirir:

**Allaha qarşı yalan uyduran kəsdən daha zalım kim ola bilər? Onlar Rəbbinin hüzuruna gətiriləcək və şahidlər: “Bunlar Rəbbinə iftira yaxanlardır” - deyəcəklər. Allahın lənəti olsun zalımlara! (Hud surəsi, 18)**

Digər tərəfdən, faşistlərin istifadə etdiyi dini şüarlara aldanan və onların bu taktikasından təsirlənənlər isə, yenə səmimi olaraq dinə inanan insanlar deyillər. Bunlar kobud, cahil, düşünmə qabiliyyəti inkişaf etməmiş, dini də atalarından qalan bir ənənə kimi qiymətləndirən insanlardır. Buna görə də faşistlərin dindən istifadə etmələrindəki ağılsız, səthi və saxtakar üslubu görə bilməzlər ya da görməməzlikdən gələrlər. Əvvəlki səhifələrdə izah edilənlərdən da aydın olduğu kimi bu cür dini təlqinlərlə xalqa Darvinist məntiqi və irqçi aksiyaları haqlı göstərməyə çalışmışlar. Əslində bunlar faşistlərin ağılsızlıqlarına aydın bir dəlildir. Çünki din əxlaqının irqçiliyi aradan qaldırdığı və insanlar arasında qardaşlığı, sülhü dəstəklədiyi çox aydın bir həqiqətdir. Allah insanlar arasındakı yeganə üstünlüyün təqvaya görə olduğunu, rəqabətin deyil, fədakarlıq, şəfqət və həmrəyliyin gözəl olduğunu insanlara bildirmişdir. Ancaq faşistlər bu saxta dindar görünüşləriylə yalnız xalqın çox cahil bir hissəsinə təsir edə bilərlər.

## Mussolininin iki üzü

Faşist xarakteri analiz etmək üçün nasizmdən sonra araşdırılan ikinci nümunə, şübhəsiz ki, "faşizm" termininin əsl sahibi olan italyan diktator Benito Mussolinidir. Mussolininin həyatına baxdığımızda da, faşizmin həqiqətdə dinə böyük bir düşmənçilik bəsləyən, ancaq siyasi mənfəətlər üçün lazım gəldikdə dindar kimi görünən ikiüzlü xarakterin əhəmiyyətli bir nümunəsini görərik. Mussolininin həyatının bizə göstərdiyi digər bir həqiqət isə, **faşizm ilə kommunizm arasındakı xəttin çox nazik olduğudur.** Faşizm və kommunizm bir-birlərinə çox zidd ideologiyalar kimi görünərlər. Halbuki, repressiv, zalım və totalitar cəhətləriylə, azlıq hakimiyyətinə əsaslanan sistemləriylə, dinə olan düşmənçilikləriylə, Darvinist dünyagörüşləriylə əslində hər iki ideologiya da bir-birinə çox bənzəyir (Baxın. *Komünizm Pusuda*, Harun Yəhya). Bundan ötrüdür ki, bir faşist ilə bir kommunist arasında həqiqətdə çox az bir fərq var və hər ikisi də asanlıqla bir-birinə çevrilə bilər. Proletar inqilabı xəyallarıyla qan tökən bir kommunist, bir müddət sonra eyni vəhşiliyi bu dəfə faşist ideallar üçün həyata keçirməyə başlaya bilər. Çünki hər iki ideologiya da vəhşilik üçün bir səbəbdən başqa bir şey deyil. Mussolini də, illər boyu qızğın bir kommunist, gözü dönmüş bir din düşməni və qatı bir Darvinist olaraq italyan siyasətində özünə yer əldə etməyə çalışmış, bu yolla da məqsədinə nail olmadıqda isə, bir anda dəyişərək faşist olmuş bir diktatordur.

## Mussolininin kommunist illəri

Mussolini 1883-cü ildə kiçik bir kənddə dünyaya gəldi. Atası qatı bir Marksist idi. Bu ideologiyasını oğluna da köçürmüşdü, Oxford Universiteti tarixçisi Denis Mak Smitin, *Mussolini* başlıqlı kitabında yazdığına görə, "əhəmiyyətli ailə iclaslarında Mussolininin atası uşaqlarına Marksın *Das Kapital* əsərindən hissələr oxuyardı" (109). Atasından kommunist təhsil alan gənc Mussolini məktəb həyatında da heç kəslə yola getməyən, davakar, sərt və çoxbilmiş bir uşaq olaraq tanınırdı. Demək olar ki, heç bir dostu yox idi. Mussolini 20-li yaşlara gəldikdə qatı bir kommunist olaraq ortaya çıxdı. Kommunizmi, hətta kommunizmdən daha da radikal və qatı bir inqilabçı ideologiya olan anarxizmi müdafiə edirdi. Denis Mak Smit belə yazır: 1903-ci ildə **özünü "avtoritar kommunist" olaraq xarakterizə edirdi.** Atasından, islahatçı sosializmə və ya demokratik və parlementer üsullara etibar etməməyi öyrənmişdi, bunların yerinə idarəçi sinfi devirəcək bir inqilabı müdafiə edirdi. Parlament ləğv edilməli, qrup qarşıdurmasının yerini qrup həmrəyliyi almalı, xüsusi mülkiyyət tamamilə aradan qaldırılmalı idi. Sosialistlər heç vaxt burjuaziya hökumətləriylə əməkdaşlıq etməməli, heç vaxt maaşlarını artırmaq üçün tətil aksiyaları keçirməməli, bunun yerinə tam bir ictimai inqilab reallaşdırmaq üçün terrorizm və kütləvi zorakılıq üsullarından istifadə

etmək məqsədiylə hazırlanmalıydılar (110). Göründüyü kimi Mussolini gənc yaşlarında olduqca qatı bir communist idi. Müdafiə etdiyi "zorakılıq və terror yolu ilə inqilab" modeli, bu modeli Rusiyada həyata keçirəcək Leninin terrorist üsullarına çox bənzəyirdi. Necə ki, o illərdə Mussolini Leninlə əlaqə yaratmışdı: Sonradan özünün dediyinə görə, o dövrdə İsveçrədə olan Leninlə görüşmüş və hətta onun rəğbətini qazanmışdı (111). Mussolini Marksizmə olan bağlılığını "Marks sosializmin ən böyük nəzəriyyəçisidir" deyərək vurğulayır və məqalələrində tez-tez Marksın sitatlarından istifadə edirdi (112). Kommunist Mussolininin ən diqqətə çarpan xüsusiyyətlərindən biri də, dinə qarşı kəskin bir nifrət bəsləməsi idi. Denis Mak Smit bu mövzuda bunları yazır: Atasından kilsə-düşmənçiliyi öyrənmişdi. **Açıq şəkildə özünün bir ateist olduğunu deyirdi...** Dinin fərdi bir vicdan məsələsi olduğunu deyən sosialistlərə çox əsəbləşirdi... (Mussoliniyə görə) Xristianlıq təvazökarlıq və geri çəkilmə kimi mənasız fəzilətləri yayaraq zərər vermişdi, yeni sosialist əxlaq isə zorakılığı və inqilabı bayram etməliydi (113). Yuxarıdakı sitatda açıq şəkildə görüldüyü kimi Mussolini çıxışları əsnasında Uca Rəbbimiz Allaha qarşı açıq şəkildə böhtan olan sözləriylə, Allaha olan inamsızlığını və dinə olan nifrətini göstərmişdir (Allahı tənzih edirik).

Mussolininin bu azğın şərhləri, eynilə tarix boyu yaşamış inkarçıların ağılsız çıxarış və şərhlərinə bənzəyir. Unutmamaq lazımdır ki, Allahın varlığı və birliyini inkar edənlərin, bu açıq-aşkar həqiqəti görməməzliyə vuranların, din əxlaqına qarşı qəzəbləri, özlərinə böyük əzabla geri qayıdır. Allah bu insanlara həm dünyada, həm də axirətdə əzab verər. Məsələnin diqqəti cəlb edən tərəfi isə Mussolininin sözü gedən din düşmənçiliyini, hakimiyyətə gəldikdən sonra gizlətməsidir. Mussolini növbəti səhifələrdə araşdıracağımız kimi, hakimiyyəti ərzində kilsənin dəstəyini almaq ehtiyacı hiss etmiş, bu məqsədlə də bəzən özünü dindar kimi göstərmişdir. Üstəlik Mussolini hələ daha qatı bir kommunist olduğu illərdə belə bəzən özünü dindar kimi göstərməyə çalışmışdır. Ölkəsində din əleyhinə qatı əsərlər yazıb çıxışlar edərkən, ingilis-amerikan mənbələri üçün hazırladığı bir yazıda nə qədər dərin və güclü bir inanca sahib olduğuna dair bir hekayə uydurmuşdur (114).

Mussolininin din düşmənçiliyi və kommunist militanlığı XX əsrin 10-cu illərinin sonlarına qədər davam etdi. 1908-ci ildə *La Lima* adlı kommunist jurnalda xüsusi bir ləqəblə yazılar qələmə aldı. Maraqlısı, Mussolininin məqalələrinin yer aldığı *La Lima* jurnalının bütün buraxılışlarının, Mussolininin hakimiyyətə gəlməsindən sonra bütün kitabxanalardan toplanılıb məhv edilməsiydi (115). Çünki Mussolini hakimiyyətə gəldikdən sonra dini, siyasəti üçün istifadə etməyə qərar verəcək və həqiqi üzünü, yəni din düşməni şəxsiyyətini gizlədəcəkdi.

## Mussolininin baniləri: Nitsşe və Darvin

Mussolininin kommunizmə olan bağlılığı, əslində zorakılığa olan meylindən və fərdi psixoloji problemlərindən qaynaqlanırdı. Denis Mak Smit Mussolininin daxili aləmini belə izah edir: Marksa olan daimi bir bağlılığıyla yanaşı, əslində öz sosializminin elə də əsaslı bir doktrinası yoxdur. Bəzən özünü bir peşə tərəfdarı sosialist kimi qiymətləndirirdi, amma xüsusi söhbətlərində bütün digər sosialistlər barəsində çox kobud şəkildə danışırdı və bəzi hallarda da hamısından fərqli bir anarxist kimi görünürdü (116).

Mussolininin həyatını araşdıran digər bir tarixçi, Anjelika Balabanoff isə belə yazır: "Fikirləri, müəyyən bir anlayış və qavrayışdan çox, öz üsyankar eqoizminin əksi idi. Daha çox öz qeyri-sabit və narahat ruh halından və narazılığından, öz nəfsinin istəyini təmin etmək arzusundan və fərdi intiqam qərarlılığından qaynaqlanırdı".

Əslində Mussolininin tək əllə tutula bilən dünyagörüşü, "qarşıdurma" və "döyüş" anlayışlarına olan inancıydı. Bunları da faşizmin ideoloji nəzəriyyəçilərindən öyrənmişdi: Bu şəxslər də Fridrix Nitsşe və onun fikri təməlini meydana gətirən Çarlz Darvin idi. Mussolininin bu iki ada olan heyranlığına dair bir çox dəlil vardır. Nitsşeyə olan bağlılığını, **"Nitsşe məni ruhi bir erotizmlə doldurur"** deyərək şəxsən özü açıq şəkildə ifadə etmişdir. Denis Mak Smit *Mussolini* adlı kitabında bu mövzuda bunları yazır: Nitsşe də, təvazökarlıq, fədakarlıq, xeyirxahlıq və yaxşılıq kimi xristian dəyərlərinə qarşı başladığı döyüşə bir səbəb tapırdı. Yenə Nitsşedən, "təhlükəli həyat", "güc istəyi" kimi məşhur anlayışlarını götürmüşdü. Burada yenə Tanrıya və kütlələrə qarşı çıxan böyük eqoist anlayışını, Nitsşenin "üstün insan" fikrini görürük (117).

Mussolininin Darvinizmə olan ideoloji bağlılığı isə, bir dövr redaktorluğunu etdiyi *La Lotta di Classe* (Sinif Qarşıdurması) adlı həftəlik kommunist jurnalda nümayiş etdirilirdi. *La Lotta di Classe*-nin ilk buraxılışının üz qabığında **Marks və Darvinin böyük bir şəkli vardı.** Giriş yazısını qələmə alan Mussolini bu iki materialist ideoloqdan, **"keçmiş əsrin ən böyük iki mütəfəkkiri"** deyə bəhs etmiş, yazıda Darvinin nəzəriyyəsinə böyük təriflər yağdırmışdı (118). Mussolini *La Lotta di Classe* jurnalında Darvinist, kommunist və dinin əleyhinə bir çox yazı yazdı, ancaq 1922-ci ildən sonra, yəni Mussolini hakimiyyətə gəldikdə, bu jurnalın da nüsxələri birdən-birə kitabxanalardan yoxa çıxdı (119).

## Mussolininin saxta dindarlığı

Mussolini XX əsrin 10-cu illərinin sonunda ani bir dəyişiklik keçirdi və əvvəldən bəri radikal bir kommunist olduğu halda, bir anda "faşizm" olaraq adlandırılan

ideologiyanın liderinə çevrildi. Roma imperiyasının bütpərəst mədəniyyətini təmsil edən "balta" simvolundan çıxış edilərək ortaya atılan "faşizmi" Mussolini tapmamış, o dövrdə İtaliyada çoxalan irqçi ideoloqlardan mənimsəmişdi. Ancaq öz icadı olmayan bu ideologiyaya qısa müddətdə yiyələndi və siyasi bir hərəkata çevirdi. Eynilə Hitler kimi ətrafına işsiz-gücsüz küçə avaralarını, macəra axtarışında olanları, zorakılıq tərəfdarı olan cahil kütlələri topladı. Bunları "Qara Köynəklilər" adlı yarı hərbi bir təşkilat şəklində təşkilatlandırdı və siyasi rəqiblərinə qarşı bir terror mexanizmi kimi istifadə etdi. Bu üsullarla da bir neçə il ərzində hakimiyyətə gəldi. 1922-ci ildə İtaliyanın Baş naziri vəzifəsində işləyirdi. Qısa müddət keçdikdən sonra isə "Duçe", yəni "lider" olaraq xatırlanmağa başlayacaq və tam bir diktator olacaqdı.

Mussolini faşizmin lideri olaraq ortaya çıxmaqla yanaşı, dinə olan düşmənçiliyini də bir anda gizlətməyə, üstəlik guya olduqca dindar bir katolik kimi görünməyə qərar vermişdi. Xüsusilə, hakimiyyətinin ilk illərində bu imici yaratmaq üçün səy göstərdi. Keçmiş din düşməni yazılarının olduğu jurnalları toplatdırıb məhv etməklə yanaşı, bir tərəfdən də özünü dindar kimi göstərməyə başladı. Məsələn, yarım əsrlik bir fasilədən sonra din dərslərini icbari hala gətirdi, məktəblərə xaç simvolları asılmasına qərar verdi (120). Çıxışlarında hər dəfə dindar, mühafizəkar, milli adət və ənənələrə bağlı bir insan portreti çəkməyə səy göstərdi. Mussolininin yeni meydana gətirdiyi azğın bir dünyagörüşünə görə, **"din dövlətin güclənməsinə kömək etməyə borclu olan bir təşkilatdı"** (121). Mussolininin bu ikiüzlü dindarlığı təsirli oldu və qısa müddətdə kilsənin də dəstəyini qazandı. *Müasir Liderlər Ensiklopediyasında* Mussolininin "kilsənin ürəyində etdiyi fəth" belə izah edilir:

...Faşistlərin kilsənin dəstəyini qazanması 1922-ci ilin fevral ayında keçmiş Milano kardinalının papa seçilməsiylə başlayır. XI Piusa görə İtaliyanı anarxiyadan xilas edən insan Mussolinidir. Faşizm tərəfdarı Papa ilə bir vaxtlar "Həqiqi Dinsiz" imzalı yazılarla kilsəyə döyüş açmış Mussolini arasındakı əlaqələr həmişə əməkdaşlığa əsaslandı. Vatikan qəzeti olan *Osservatore Romano* 1923-ci ilin fevralında bunları yazmışdır: **"Mussolini bütün İtaliyada vətənin tarixini bərpa edən insan olaraq alqışlanmışdır. Bu dini ənənələrin və xalqın sivilizasiyasının zəfəridir".** Kardinal Vicaire isə həmin ildə vətəndaşları, faşistləri dəstəkləməyə çağırır. Vatikan, katoliklərinin partiyası Partito Popoleranın faşizmə qarşı olan rəftarını uyğun görməz və Don Sturzanın, partiyasının liderliyindən ayrılmasını təmin edər. Bunun müaqbilində **Mussolini də kilsəyə olan hörmətini hər fürsətdə göstərər, on iki il əvvəl evləndiyi həyat yoldaşı ilə dini nikah kəsdirər, uşaqlarını xaç suyuna saldırır...** 1929-cu ilin fevralında həm kral, həm də Mussolininin kilsə adına da Kardinal Qasparinin imzaladıqları "Patti Laterono" ilə kilsənin 1870-ci ildə əlindən alınan hüquqları geri qaytarılır. Müqavilə ilə kilsəyə mütləq bir inanc və ibadət azadlığı, katolizmin rəsmi dövlət dini qəbul edilməsi, Vatikanın müstəqilliyinin rəsmi şəkildə tanınması və ona

imtiyazlar verilməsi, Papanın dövlət başçısı qəbul edilməsi, papalığa təzminat ödənməsi, dini nikahın qəbulu, ibtidai məktəblərdə din dərslərinin oxudulması kimi hüquqlar verildi. Papa da bunların müqabilində Mussoliniyə 1932-ci ildə "Qızıl Dəmir" ordeni verər və onu "bənzərsiz bir baş nazir" olaraq xarakterizə edər (122). Ancaq Mussolini bütün bu teatra baxmayaraq həqiqətdə dinsizliğini davam etdirirdi. İtalyan cəmiyyətini bir dəfəyə öz tərəfinə çəkib ayağa qaldırdıqdan sonra, din əxlaqını ortadan qaldırmağa xidmət edən həqiqi siyasəti özünü göstərməyə başladı. 1930-cu illərdə dini anlayışlar yavaş-yavaş ortadan qaldırılmaqla yanaşı, bunun yerinə Mussolinini sanki müqəddəs bir adam kimi görən bütpərəst bir mədəniyyət hakim olmağa başladı. Mussolininin tək inancı, öz eqoizmi idi və bunu mərhələli şəkildə italyanlara qəbul etdirməyə çalışdı. O dövrdə istifadə edilən aşağıdakı şüar, İtaliyaya təlqin edilən "Mussolini bütü"nün bir ifadəsiydi:

"Tanrını sevməkdən bir an belə geri qalma. Amma unutma ki, **İtaliyanın Tanrısı** Duçedir" (123). (Uca Allahı tənzih edirik)

Mussolinin özünü bu şəkildə insandan üstün bir varlıq elan etməsi, əlbəttə ki, böyük bir azğınlıqdır. Tarix boyu özünü digər bütün insanlardan üstün tutan və eynilə Mussolini kimi guya ilahlaşdıran (Allahı tənzih edirik) bir çox inkarçı lider və rəhbər yaşamışdır. Ancaq hamısı bu təkəbbürlülüklərinin və azğınlıqlarının əvəzini almışlar. Mussolini bir tərəfdən də dini anlayışların içini boşaldıb bunları öz bütpərəst dininə görə yenidən şərh etməyə cəhd edirdi. Nəşr etdiyi əmr və bildirişlərə "On Əmr" adını verməsi, qürur və ədəbsizliyinin dərəcəsini göstərirdi. Ancaq Mussolininin qüruru uzun vaxt çəkmədi. II Dünya müharibəsinə Almaniya ilə birlikdə daxil oldu, ancaq almanlardan xeyli əvvəl məğlubiyyətə uğrayaraq məhv oldu. 1943-cü ildə öz vətəndaşları tərəfindən ələ keçirildi və həbs edildi. Hitlerin köməkliyi ilə xilas oldu və İtaliyanın şimalındakı qüvvələriylə müxaliflərinə qarşı bir müddət daha müqavimət göstərdi. Döyüşün sonunda alman forması geyinərək sərhədi keçməyə çalışdığı vaxt yenidən ələ keçirildi və yanındakı aşnası ilə birlikdə güllələndi. Cəsədi Milandakı bir meydanda ayağından asıldı. Bu, özünü guya "müqəddəs insan" zənn edən ruhi cəhətdən xəstə biri üçün olduqca ibrətamiz bir aqibətdi.

## İspan faşizminin dini istifadə etmə metodları

Bura qədər öyrəndiklərimizdən aydın olduğu kimi, faşizm həqiqətdə ilahi dinlərə şiddətlə düşmən olan, ancaq bəzən siyasi baxımdan bu düşmənçiliyini gizlədən, əksinə dindar görünən bir ideologiyadır. Faşistlərin dindar görünüşünün arxasındakı məqsəd isə, dini anlayışları həqiqi mənalarından uzaqlaşdıraraq faşizmin vasitəsi halına gətirməkdir. Faşistlərin sözü gedən dindarlıq rolunun gücü isə, yaşdıqları

cəmiyyətin quruluşuna görə dəyişər. Nasizm bu rolu oynamağa çox az ehtiyac hiss etmiş, çünki onsuz da din əxlaqından xeyli uzaqlaşmış bir cəmiyyətdə meydana gəlmişdir. Ancaq buna baxmayaraq, Mussolini dindar bir cəmiyyət olan italyanlara nəzarət etməyə çalışmış və buna görə də saxta dindarlıq roluna daha çox ehtiyac duymuşdur. İspaniya nümunəsinə baxdığımızda isə, yenə dindar bir cəmiyyətlə və yenə dindar görünüşlü bir faşizmlə qarşılaşarıq. Bu faşizmin lideri isə Fransisko Frankodur.

Frankonun ideologiyası "Falanjizm" olaraq tanınır. Bu termin, İspaniyada 1933-cü ildə qurulan Falanj (uzun adıyla, Falange Española Tradicionalista Y De Las Juntas De Ofensiva Nacional-Sindicalista) adlı siyasi partiyadan gəlir. Jose Antonio Primo de Rivera adlı faşist bir ideoloq tərəfindən qurulan partiya italyan faşizmini eynilə təqlid etmiş və demokratik rejimə, konstitusiyaya və kilsəyə tamamilə qarşı çıxan bir ifadə yaratmışdır. Necə ki, Falanj sözü (ispan dilində Phalanx) bütpərəst mədəniyyətlərdən gələn bir döyüş anlayışıdır. Əvvəlcə qədim şumerlərdə və sonra da Qədim Yunanistanda və Romada istifadə edilən bir hərbi batalyon nizamını ifadə edir. O dövrdə İspaniya ordusunun baş komandiri olan General Franko 1936-cı ildə ölkədəki sağ və sol qarşıdurması nəticəsində başlayan vətəndaş müharibəsi əsnasında Falanj partiyasını ələ keçirmiş, yiyələnmiş, ancaq partiyanın din əleyhdarı üslubunu yumşaldaraq Falanj faşizminə dini bir görünüş verməyə çalışmışdır.

Franko olduqca qanlı bir vətəndaş müharibəsi həyata keçirmiş, lazım gəldikdə dinc əhalini bombalamaqdan çəkinməmişdir. 3 il davam edən döyüş nəticəsində 1939-cu ildə qələbə çalışmış və bundan sonra qurduğu dikta rejimini 1970-ci ilə qədər davam etdirmişdir. Bu rejimi ayaqda saxlaya bilmək üçün də katolik kilsəsindən istifadə etmə siyasəti həyata keçirmişdir. Bu vaxt kilsəyə də İspaniyanın iqtisadi həyatında kapitalist bir rol verilmişdir. Franko kilsəni daima qoruma siyasətini güdmüş, onu öz lehində istifadə etmək istəmişdir. Ancaq faşist qanunlardan kənar baş verəcək hər cür dini fəaliyyət rəhbərliyin ağır təzyiqləriylə qarşılaşmışdır. "*Franko Kimdir? Falanjizm Nədir?*" adlı əsərdə, İspaniyada faşizmin uğur qazanmaq üçün dindən necə istifadə etdiyi belə izah edilir: Faşizm bu məqsədlərinə çatmaq üçün də kütlələrə möhtacdır. Xalq kütlələrinə oda atmaq üçün dini səbəblər, monarxiya kimi sözlər kifayətdir... İspaniyada katoliklər həmişə güclü idi. Rahiblərin böyük əksəriyyəti açıq şəkildə faşizmi dəstəkləyirdi... Buna görə də İspaniya faşizminə də bir nəzəriyyə tapmaq və bunu ortaya atmaq lazım idi. İspaniya faşizminin nəzəriyyəsini tapıb ortaya çıxaran Gil Robles olmuşdur. Gil Robles İspaniyanın böyük torpaq sahiblərinə möhkəm şəkildə bağlıdır. Təhsilini katolik yezuit məktəblərində başa vurmuş və ilk siyasi fəaliyyətinə də yenə bu katolik qurumlarında başlamışdır... Alman faşizmi hakimiyyətə gəldikdə, Robles də dərhal Almaniyaya qaçdı. Məqsədi alman faşistlərinin iş qaydalarını öyrənməkdi. Robles bir çox sahədə alman faşizmini təqlid etməyə çalışdı,

lakin üstün və xalis irq nəzəriyyəsini bir cür ortaya ata bilmədi. Çoxlu sayda afrikanlılarla qarışmış İspaniya üçün belə nəzəriyyə, əlbəttə ki, gülünc olacaqdı. Bu vəziyyətdə Roblesin nəzəriyyəsi və proqramı nə ola bilərdi? Robles katolikliklə əlaqələndirdiyi qatı bir şovinizmi ön plana keçirmişdi: "Hər şeydən əvvəl İspaniya gəlir. Tanrı İspaniyadan üstündür. Özünü nə dərəcədə ispan hiss etsən, o dərəcədə də katoliksən!". Roblesin bu katolik şovinizmini İspaniyanın öz xüsusiyyətlərindən gəlirdi. Robles Katolik birliklərindən kooperatiflərindən və katolik gənclik təşkilatlarından istifadə edirdi. Katolik mətbuatı da faşizmə xidmətə edirdi. Robles'in özü də mühafizəkar dairələrdə çox məşhur olan *El Debato* qəzetinin direktoruydu (124). Frankonun yalanlarına aldanan dövrün kilsə rəhbərlərinin faşistlərə bundan başqa yardımları da olmuşdur. Latın Amerikası ispanları və o biri faşist qruplar, Amerika ölkələrinin İspan rəhbərliyinin hakimiyyəti altına daxil olması üçün cürbəcür Falanjlar qurmuşdular. Bu ölkələrdəki bəzi katolik kilsələri də oyunda hərəkət verici bir güc rolunu oynamışdır (125).

Göründüyü kimi faşizmin hakimiyyəti ələ keçirmə macəraları ümumiyyətlə bir-birinə bənzərdir. Faşistlər üçün din əsas hədəflərindən ən əhəmiyyətlisi idi. Digərlərində olduğu kimi istifadə edilən taktikalar nəticəsində İspaniyada da kilsə Frankonun yanında olmuşdur. Ancaq faşistlərin dinə qarşı bu müsbət yanaşmaları, hakimiyyətə gələnə qədər davam etdiyindən və hakimiyyətə gəldikdən sonra isə çox vaxt kilsəyə ya da din əxlaqına açıq şəkildə cəbhə almaqdan çəkinmədiklərindən bəhs etmişdik. Bu, İspaniyada da belə olmuşdur. Necə ki, inqilabdan altı ay qədər sonra Corc Orvellin izah etdikləri inqilabçı Barselonanın vəziyyətini göz qabağına gətirir: ...Demək olar ki, hər kilsə dağıdılmış, dini şəkillər və heykəllər yandırılmışdı. Hər yerdə kilsələr fəhlələr tərəfindən son daşına qədər dağıdılırdı... (126)

Faşistlərin Franko nümunəsində açıq şəkildə özünü göstərən dindən istifadə üsullarınının azacıq dərinliyinə getsək, kitabın əvvəlki bölmələrində nəzərdən keçirdiyimiz bir həqiqətlə yenidən qarşılaşarıq. Faşizm Avropa cəmiyyətlərini xristianlıqdan əvvəlki bütpərəst dinlərə qaytarmaq istəyən bir ideologiyadır. Yalnız Avropada deyil, hər yerdə faşistlərin həqiqi dini bütpərəstlik olmuşdur. Hər faşist cərəyan, öz cəmiyyətinin bütpərəst mədəniyyətini bir inanc və nümunə olaraq mənimsəyər. İfadələri, simvolları, bənzətmələri həmişə yaşadıqları cəmiyyətin tarixində yaşamış olduğu bütpərəst dininin xüsusiyyətlərini daşıyar. Beləcə faşistlər, xalqı atalarıyla və onların ənənələriylə romantik bir coşğuya qapılmasına imkan verməmək və beləcə sanki bir kütlə hipnozu yaratmaq istəyirlər. Xalqı keçmişin "ehtişamlı günlərinə" qaytaracaqlarına dair tamamilə xəyal məhsulu vədlərlə arxalarından sürükləyərlər. Bütpərəst inanclarını yaşadıqları cəmiyyətin sahib olduğu dini termin və simvollarla bəzəyərək, faşizmə xas azğın bir din meydana gətirərlər. Özlərini dindar göstərməyə çalışsalar da həqiqətdə bütpərəstdirlər.

## Faşist əxlaq Quran əxlaqına tamamilə ziddir

Faşizmin bəşəriyyətə yalnız qan və əzab gətirən bir ideologiya olduğu çox aydındır. 20-ci əsrin tarixi bu həqiqətin bir isbatı hesab edilə bilər. Ancaq bu həqiqətə qarşı dünyanın bir çox yerində hələ də faşizmə rəğbət bəsləyən insanlar vardır. İndiki vaxtda neo-nasistlər, xuliqanlar kimi fərqli adlar altında faşist qruplaşmalar getdikcə yayılır. Bu faşist qruplaşmalara qarşı qəbul edilən qanuni tədbirlər isə tək başına təsirli olmur, İngiltərə və Almaniya kimi güclü dövlətlər belə bu qrupları təsirsiz hala gətirə bilmirlər. Çünki istifadə etdikləri üsul səhvdir. Dindən tamamilə uzaq yetişdirilmiş, özünü və digər insanları heyvan kimi görən həddindən artıq məsuliyyətsiz, özbaşına və təcavüzkar insanları cilovlamaq, onlara hakim olmaq, onları tutmaq qeyri-mümkündür. Bu gün bir çox ölkədə hələ də davam edən bu təcavüzkarlığa və terrora mane olmağın tək yolu, insanlara faşizmin mənşəyi olan dinsiz və ya bütpərəst ideologiyaların deyil, Allahın insanlara əmr etdiyi gözəl əxlaqın aşılanmasıdır.

Kitab boyu izah edilənlərdən də aydın olduğu kimi faşizm sülhə, dostluğa, qardaşlığa, razılığa və tolerantlığa qarşıdır. Dinin özünü isə bu kimi gözəl əxlaq xüsusiyyətləri təşkil edir. Buna görə də faşizm, dinlə tam mənasıyla ziddiyyət təşkil edən bir ideologiyadır: Məsələn, faşizm irqçiliyi mənimsəyər. Faşistlər daim öz irqlərinin, millətlərinin digərlərindən üstün olduğu iddiasıyla yola çıxıblar, üstəlik bu iddiaya əsaslanaraq digər millətlərin torpaqları və malları üzərində haqq iddia etmişlər. Bu irqçi iddia çoxsaylı müharibənin, qarşıdurmanın, qətliamın, "etnik təmizliyin" yaranma səbəbidir. Halbuki, daha əvvəl də ifadə etdiyimiz kimi Qurana görə üstünlük irqə, rəngə və ya digər başqa bir xüsusiyyətə görə deyil Allaha olan yaxınlıqdan, inanc və əxlaqdan asılıdır. Bu həqiqət Quranda belə bildirilir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız (irq və ya nəsil cəhətdən üstün olanınız deyil) Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Allah başqa bir ayəsində isə irqçiliyi **"cahiliyyə dövrünün hirsli soy qoruyuculuğuna"** olaraq təsvir edir və inananları bu təhrikedici ideologiyaya qarşı qoruyacağını belə bildirir:

**Kafirlər öz qəlbində təkəbbürlüyə – cahilik lovğalığına qapıldıqları zaman Allah Öz Elçisinə və möminlərə mənəvi rahatlıq nazil etdi və onlara təqva sözünü vacib buyurdu. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi bilir. (Fəth surəsi, 26)**

Ayədə bildirildiyi kimi, Allah insanları bir-birləriylə tanış olmaları, sülh, qardaşlıq və tolerantlıq içində yaşamaları üçün müxtəlif irqlərə və etnik mənşələrə ayırmışdır. Yəni faşistlərin fərz etdiyi kimi, fərqli irqlər və etnik qruplar, Darvinist qarşıdurmanın və "həyat mübarizəsi"nin bir vəsaiti deyil. Fərqli etnik qruplar və irqlər arasında bioloji bir üstünlükdən də söhbət belə gedə bilməz. Uca Allah insanlar arasındakı üstünlüyün yalnız "təqvadan", yəni Allaha olan yaxınlıqdan, inancdan və əxlaqdan asılı olduğunu bildirmişdir. Onda insanların Qurana tabe olduqları bir mühitdə, irq, rəng və qəbilə qarşıdurmalarının yaşanmayacağı, bu kimi axmaq üstünlük iddialarıyla hərəkət edilməyəcəyi aydındır.

Tarix "hirsli soy qoruyuculuğu"nun bütpərəst və ya dinsiz cəmiyyətlərə aid bir xəstəlik olduğunu göstərir. Bu cəmiyyətlərdə daima irq, nəsil və qəbilə üstünlüyünə əsaslanan iddialar və buna əsaslanan qarşıdurmalar mövcud olmuşdur. Çünki insanlar üstünlüyü irq, nəsil, qəbilə kimi maddi xüsusiyyətlərdə axtarmışlar. Halbuki, Quranda bildirildiyi kimi, **"...izzət və güc bütünlüklə Allaha məxsusdur..." (Yunis surəsi, 65),** insanlar isə irqləri, rəngləri, dəriləri əhəmiyyət kəsb etmədən Allahın yaratmış olduğu, Allaha olduqca möhtac, aciz varlıqlardır. Hamısı da ölümə məhkumdur. Buna görə də bir insanın digər bir insana və ya bir cəmiyyətin digər bir cəmiyyətə qarşı bir **"izzət"**, yəni böyüklük iddiasında olmağa haqqı yoxdur. Necə ki, bu axmaq iddialar, ölümlə birlikdə unudulub gedəcək. Qiyamət günüylə əlaqədar bir ayədə bu həqiqət belə bildirilir:

**Sur üfürüləcəyi gün onların aralarında qohumluq əlaqəsi olmayacaq və onlar bir-birindən (üstünlük ünsürü olaraq əsilliliyi) soruşmazlar. (Muminun surəsi, 101)**

Ayədə bildirildiyi kimi ölüm anında, qiyamət günündə, ya da axirətdə irq, rəng, etnik mənşə kimi ünsürlərin heç bir əhəmiyyəti olmayacaq. O an əhəmiyyətli olan tək şey adamın Allaha olan yaxınlığı və Allahın razılığını qazanıb qazanmadığı olacaq. O gün heç kim heç kəsə, hansı nəslə və hansı irqə mənsub olduğunu soruşacaq bir vəziyyətdə də olmayacaq. Bu gün nəsillərindən ötrü azğınlaşanlar, həddini aşanlar, insanları öldürən, hətta diri-diri yandıranlar, o gün hansı nəsildən olurlarsa olsunlar, nə qədər aciz və möhtac vəziyyətdə olduqlarını dərk edəcəkdirlər.

Faşizmin digər bir diqqətə çarpan xüsusiyyəti isə zorakılığa olan meylidir. Faşistlər zorakılığı, kobud qüvvəti, döyüş və qarşıdurmanı sanki müqəddəs anlayışlar kimi görürlər. Qurana uyğun bir həyat yaşayan insan üçün bu da qeyri-mümkündür. Allah möminlərdən gözəl əxlaqlı olmalarını istəyir. Quranda bu əxlaqın necə olacağı da təsvir edilir. Məsələn müsəlman özünə pislik edildiyi vaxt belə yaxşılıqla qarşılıq verməklə məsuldur. Bu mövzudakı ayələrdən birində Allah belə buyurur:

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən pisliyi yaxşılıqla dəf et! O zaman səninlə ədavət**

**aparan kimsə sanki yaxın bir dost olar. (Fussilət surəsi, 34)**

Yuxarıdakı ayənin göstərdiyi şəkildə hərəkət edən bir insanın faşist məntiq və üsullara rəğbət bəsləməsindən, azacıq da olsa faşizmə meyl etməsindən, əlbəttə ki, söhbət belə gedə bilməz. Faşist əxlaqın başqa bir xüsusiyyəti, özü üçün müəyyənləşdirdiyi guya "müqəddəs" məqsəd uğruna minlərlə günahsız insanı göz qırpmadan fəda edə bilməsi və bunu bir erdem kimi görməsidir. "Hədəflər vasitələri qanuniləşdirər" məntiqiylə düşünən faşistlər, həqiqətdə heç bir şəkildə qanuni də olmayan bir hədəf üçün hər cür vəhşiliyi edə bilərlər. Halbuki Quranda insanlara haqsız yerə hücum etməyin, günahsız insanları öldürməyin çox böyük bir cinayət olduğu bildirilmişdir. Faşizmə görə insan həyatının heç bir əhəmiyyəti yoxdur, amma dinə görə tək bir insanın həyatı belə çox əhəmiyyətlidir. Allah belə buyurur:

**...Kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür. Kim də onu ölümdən xilas edərsə, sanki bütün insanları xilas etmiş hesab olunar... (Maidə surəsi, 32)**

Tək bir insanın belə günahsız yerə öldürülməsi bütün insanların öldürülməsi kimi olduğu halda, faşistlərin törətdikləri cinayət, qırğın və soyqırımların nə qədər böyük bir cinayət olduğu aydındır. Allah faşistlərin bu zalım xarakterinin axirətdəki qarşılığını belə bildirir:

**Məzəmmət olunmağa ancaq insanlara zülm edənlər və yer üzündə haqsız yerə azğınlıq edənlər layiqdirlər. Məhz onlar üçün ağrılı-acılı əzab vardır. (Şura surəsi, 42)**

Faşistlərin xüsusiyyətlərindən bəhs edərkən olduqca romantik bir xarakterə sahib olduqlarından, bundan ötrü də asanlıqla qışqırdılan, qəzəblənib, şiddətə yönələ bildiklərindən bəhs etmişdik. Faşist qruplar ümumiyyətlə küçə qruplaşmaları tərzində hərəkət edər, ən sadə bir hadisədə belə hirslənib özündən çıxar və bundan sonra da dərhal döyüş və qarşıdurmaya başlayarlar. Əlbəttə ki, bu romantik şiddət, Quranın əmrlərinə tamamilə zidddir. Quranda müsəlmanlar qəzəbləndikləri vaxt qəzəblərini boğan, ağıllı, etidallı və mülayim insanlar olaraq təsvir edilir. Qarşılaşdıqları heç bir hadisə, hiddətlənmələrini və aqressivləşmələrini tələb etməz:

**O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Ali İmran surəsi, 134)**

Faşistləri istiqamətləndirən digər bir xüsusiyyət də kütlə ruhudur. Faşist qruplaşmalar

içində iştirak edən bir çox ağılsız və cahil gənc, nəyi nə üçün etdiyini belə bilmədən, kütlənin, şüarların, marşların təsiriylə romantik bir xəstəliyə qapılar, kütlə psixologiyasına daxil olar və həqiqətdə öz iradəsiylə etməyəcəyi kütlə cinayətlərinə qarışar. Bir əcnəbiyə durduğu yerdə hücum edə, bir iş yerini talan edə bilər. Bu aksiyalara qatılanların çoxu, iradə və vicdanları zəif olduğu üçün, kütlə psixologiyası içində hazır vəziyyətə gəlmiş, "sürü" halına çevrilmişdir. Halbuki, Allah insanları əksəriyyətin azğınlığına qarşı xəbərdar edər:

**Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar. (Ənam surəsi, 116)**

Məhz bu səbəblə də möminlər əksəriyyətə tabe olmaq əvəzinə daim ağıl və vicdanları ilə hərəkət edərlər. Bu da Qurana tabe olmaqla mümkün olar. Dinlə faşist ideologiyanın üst-üstə düşmədiyi bir nöqtə də Quranın sülhü, güzəştə getməyi müdafiə etməsi və bunu tövsiyə etməsidir. Diqqət yetirilsə bu xüsusiyyətlər faşizmlə tamamilə zidddir. Faşizm təcavüzkar olmağı, işğal etməyi, döyüşməyi, kobud qüvvətlə hərəkət etməyi, zülm etməyi yol kimi seçmişdir. Ancaq bütün bunlar Qurana görə zalımlıqdır. Həmçinin, Allahın xoşlamadığı hərəkətlərdir. Tam əksinə Allah yaxşılıq etməyi və insanların arasını düzəltməyi əmr edir:

**Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Sədəqə verməyi və ya yaxşılıq etməyi yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin pıçıldaması isə istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik. (Nisa surəsi, 114)**

## Nəticə

Nəticədə faşist xarakterə baxdığımızda, din əxlaqının gətirdiyi sevgi, şəfqət, mərhəmət, təvazökarlıq, yardımlaşma, qənaətkarlıq kimi əxlaqi fəzilətlərə tamamilə zidd bir əxlaq ortaya çıxır. Şübhəsiz ki, bu əxlaq tarixin hər dövründə mövcud olmuşdur, ancaq faşizm bunu sistemli bir şəkildə müdafiə edən və Darvinizmin təsiriylə "elmi" və ağıllı bir yanaşma kimi göstərən fikri bir cərəyandır. İlahi dinlər tərəfindən lənətlənmiş "zalımlıq" anlayışı, faşizm tərəfindən sistemli şəkildə təriflənir, qanuni olaraq göstərilir və müdafiə edilir.

Hitlerin törətdiyi soyqırımların, Mussolininin mərhəmətsiz işğallarının, Frankonun həyata keçirdiyi qanlı vətəndaş müharibəsinin, Pinokhetin işgəncələrinin, Səddam Hüseynin 5000 vətəndaşı sinir qazıyla öldürməsinin, Miloseviçin bosniyalılara və albanlara qarşı həyata keçirdiyi qeyri-insani vəhşiliklərin və digər müasir faşistlərin

cinayətlərinin arxasında həmişə bu zalım və mərhəmətsiz ideologiya durur. Yalnız bu kimi siyasi vəhşiliyi deyil, gündəlik həyatda qarşımıza çıxan müxtəlif şiddət nümunələrində də faşist ideologiyanın rolu vardır. Bir-birlərini sadə bir anlaşılmazlıq nəticəsində döyən, bıçaqlayan və ya güllələyən insanlar, zorakılığı qəhrəmanlıq kimi görən və göstərən bir mədəniyyətin məhsuludurlar. Bu mədəniyyətin təməllərinə nəzər yetirdikdə isə, qarşımıza Darvin və ya Nitsşe kimi ideoloqların "həyat mübarizəsi" təlqinləri çıxır.

Bu xəstəliyin ən əsas mənbəyi isə, sözü gedən insanların din əxlaqından uzaq olmalarıdır. Bəlkə özlərindən soruşulsa dindar olduqlarını iddia edəcəklər, amma din əxlaqının insana qazandırdığı mənəvi gözəlliklərdən və zadəgan əxlaqdan tamamilə xəbərsizdirlər. Buna görə də xəstəliyin həlli də, insanların Quran əxlaqını həqiqi mənasıyla öyrənmələri, qavramaları və yaşamalarından asılıdır.

# QURANDA İZAH EDİLƏN FAŞİST BİR XARAKTER: FİRON

Faşist liderlərin ən diqqətə çarpan xüsusiyyətləri rejimlərini, qorxu və təzyiq əsasında qurmalarıdır. Ümumiyyətlə, xalqı təhdidlə, təzyiqlə, işgəncəylə susdurar və istədikləri kimi istiqamətləndirirlər. Bu demək olar ki, bütün faşist rejimlərin dəyişməz qanunudur. Onlara tabe olan insanlar isə çox vaxt haqlının yanında deyil, güclünün yanında olan, gücün qarşısında asanlıqla boyun əyən, səlahiyyəti qarşısında hər cəhətə yönələn şəxsiyyətsiz xarakterdədirlər. Buna görə də faşistlərin göstərdikləri kobud qüvvə və gücə görə onlara boyun əyərlər. Bunda, ümumiyyətlə, cahil və mədəniyyətsiz olmalarının da təsiri böyükdür. Allah Quranda zalım bir diktator və ona bağlı olanlardan ibarət olan bu ictimai sistemin tarixi bir nümunəsini təsvir edir: Bu Firon dövründəki Misirdir.

Hz. Musa dövründə Misir hakimiyyəti əlində olan Firon, tamamilə təzyiqə əsaslanan bir sistem qurmuşdur. Bunu edərkən eynilə hakimiyyətini gücləndirə bilmək üçün qan tökməkdən və zorakılıqdan çəkinməyən faşist liderlər kimi, güc tətbiq etmiş və qan tökməkdən çəkinməmişdir.

Quranda Fironun etdikləriylə əlaqədar ayələrdə təsvir edilən xüsusiyyətlərə baxıldıqda faşist liderlərlə arasındakı bənzərlik diqqəti cəlb edəcək xüsusiyyətlər görünür. Firon da, dövrümüzdəki faşist liderlər kimi, ölkəsində yaşayan insanları zümrələrə ayırmış və bunların bir qisminə qarşı qırğınlar həyata keçirmişdir:

**Həqiqətən, Firon yer üzündə təkəbbürlük göstərib onun əhalisini zümrələrə bölmüşdü. Firon onlardan bir zümrəni zəiflədir, onların oğlan uşaqlarını öldürür, qadınlarını isə sağ buraxırdı. Həqiqətən, o, fitnə-fəsad törədənlərdən idi. (Qəsəs surəsi, 4)**

Firon rejiminin başqa bir diqqət çəkici xüsusiyyəti isə, sahib olduğu hərbi gücdən müasir faşistlər kimi öz ölkəsinin xalqına qarşı istifadə etməsidir. Məsələn Firon, hz. Musa ilə birlikdə Misirdən çıxan İsrail oğullarınının qabaqlarını kəsmək üçün ordusunu yola çıxarmışdır. Quranda Firon sistemindən danışılarkən dəfələrlə **"Firon və əsgərləri"** ifadəsindən istifadə edilir ki, bu da Firon rejiminin militarist quruluşuna işarə edə bilər. (Doğrusunu Allah bilir). Firon ilə müasir faşist diktatorlar arasındakı digər bir bənzərlik isə özlərini guya müqəddəs kəslər kimi göstərmələridir. Hitler və Mussolini rejimlərində görülən "liderlərin müqəddəsləşdirilməsi" üsulu, Firon tərəfindən çox açıq bir şəkildə istifadə edilmişdir:

**Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir məbud tanımıram...." (Qəsəs surəsi, 38)**

**Firon qövmünün içində qışqırıb dedi: "Ey xalqım! Məgər Misir səltənəti və altımdan axan bu çaylar mənim deyilmi? Məgər görmürsünüzmü? (Zuxruf surəsi, 51)**

Ayədə Firon üçün istifadə edilən "qışqırdı" ifadəsi, onun xalqına qarşı qışqıraraq güclü nitq söylədiyinə işarə edir. Bu üsul Hitler və Mussolini kimi faşist diktatorların ən diqqətə çarpan təbliğat üsuludur. Fironun xalqını azdıraraq, arxasınca sürüdüyü vaxtlarda Misir xalqına həqiqətləri göstərən, doğru yolu bildirən bir elçi, yəni hz. Musa gəlmişdir. Lakin onlar hz. Musaya tabe olmaq əvəzinə qorxduqları və onu zahirən daha güclü gördükləri üçün Fironun arxasından getməklə səhvə yol veriblər:

**Firon və onun əyanları tərəfindən onlara işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil iman gətirdi. Həqiqətən də, Firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi. (Yunis surəsi, 83)**

Göründüyü kimi, cəmiyyətin bir qismi, "Firon və əyanlarının onları işgəncələrə məruz qoymaları qorxusuyla" iman gətirməmişdirlər. Bu ifadə Firon rejiminin insanlara, yalnız inanclarından ötrü zülm edən bir sistem olduğunu göstərir ki, bu da faşizmin əsas xüsusiyyətlərindəndir. Firon ilə müasir faşist liderlər arasındakı digər bir bənzərlik isə insanlara qarşı ayrı-seçkilik, irqçi dünyagörüşləridir. Dövrümüzdəki faşistlərin irqçi dünyagörüşü Fironda da müşahidə edilir. O da dövrümüzdəki "anti-semit" diktatorlar kimi, İsrail oğullarını guya aşağı bir qövm kimi görmüş və buna görə də İsrail nəslindən olan hz. Musa və hz. Harunu öz aləmində alçaltmışdır. Firon və ətrafının sözləri bunu açıq şəkildə göstərir:

**Onlar dedilər: "Bunların tayfası bizə kölə olduğu halda, biz özümüz kimi iki adama inanacağıq?" (Muminun surəsi, 47)**

Bura qədər verilən nümunələrdən də aydın olduğu kimi Fironun sistemi və dövrümüzdəki faşist rejimlər arasında əhəmiyyətli bənzərliklər vardır. Bu bənzərlik yalnız rəhbərlik sistemi baxımından deyil, bu sistemə tabe olan xalq baxımından da etibarlıdır. Həqiqətdə Firona tabe olan və onun ardınca gedən insanların da çoxu onun səhv yolda olduğunu, Musa peyğəmbərin isə doğru yolda olduğunu bilirdilər. Ancaq Fironu güclü və hakim gördükləri üçün vicdanlarına tabe olmaq əvəzinə, həqiqətləri görməzliyə vururdular. Kobud bir gücün təsiri altına düşdülər. **"Güclü olan haqlıdır"** yalanına inandılar. Halbuki, gücün və hakimiyyətin tək sahibi Allahdır. Bunu qavraya bilmədikləri üçün Fironla birlikdə onlar da dünyada və axirətdə böyük bir rüsvayçılıqla qarşılaşdılar. Bu kəslərin aqibətləri isə Quranda belə bildirilir:

**Biz də onu və onun əsgərlərini tutub dənizə atdıq. Bax gör zalımların aqibəti necə oldu. Biz onları oda çağıran rəhbərlər etdik. Qiyamət günü onlara kömək edilməyəcəkdir. Bu dünyada onları lənətə düçar etdik. Qiyamət günü isə onlar Allahın rəhmətindən qovulmuş kimsələrdən olacaqlar. (Qəsəs surəsi, 40-42)**

Faşist liderlərin aqibəti də Fironun aqibəti kimi ibrətamizdir. Hitler intihar etmiş, Mussolini isə öz xalqı tərəfindən edam edilmişdir. Özlərini ucaltmaq naminə etdikləri zülmlər isə yalnız alçalmalarına səbəb olmuşdur. Özlərindən sonra gələnlər tərəfindən nifrətlə yad edilən insanlar olmuşlar. Üstəlik bu yalnız dünyadakı bir rüsvayçılıqdır, axirətdəki əzab isə daha çox şiddətlidir. Ancaq unudulmamalıdır ki, axirətdəki əzab yalnız başçılara üz verməklə kifayətlənməyəcək, onların arxasınca gedənləri də bürüyəcəkdir. Bu həqiqət də Quranda belə bildirilir:

**Axirət günü hamı Allahın hüzuruna çıxarılacaq və zəiflər təkəbbürlük göstərənlərə deyəcəklər: “Biz sizə tabe idik. İndi siz, Allahın əzabını, qismən də olsa, bizdən sovuşdura bilərsinizmi?” Onlar deyəcəklər: “Əgər Allah bizi doğru yola yönəltsəydi, biz də sizə doğru yolu göstərərdik. İndi qəm çəksək də, səbir etsək də bizim üçün eynidir. Çünki bizim üçün qurtuluş yeri yoxdur”. (İbrahim surəsi, 21)**

Tarixdə bir çox diktator despot rejimlər qurmuş, xalqları isə kobud qüvvətin, şiddətin, gücün, qorxunun, hakimiyyətin sehrinə qapılaraq onlara boyun əymiş, ayədə bildirildiyi kimi, **"...hər bir inadcıl təkəbbür sahibinin əmrinə uydu"**lar **(Hud surəsi, 59).** Allah bu liderlərin və cəmiyyətlərin bu böyük səhvini belə xəbər verir:

**Firon da, ondan əvvəlkilər də, alt-üst olmuş kəndlər (Lut qövmü) də günah işlətmişdilər. Onlar öz Rəbbinin elçisinə asi oldular, O da onları şiddəti artan bir əzabla yaxaladı. (Haqqə surəsi, 9-10)**

# ÜÇÜNCÜ DÜNYA FAŞİSTLƏRİ

Faşizm II Dünya müharibəsində hərbi məğlubiyyətə məruz qaldı. Nasist Almaniyası, faşist İtaliya və Yapon faşizminin meydana gətirdiyi ittifaq, müharibədən məğlub çıxdı və hər üç ölkədə də faşist rejimlər aradan qalxdı. Hitler intihar etdi, Mussolini öz vətəndaşları tərəfindən asıldı, Yaponiyadakı hökumət isə özünü təmizə çıxardı. 20-ci əsrin birinci yarısında yüksələn faşizm, əsrin ortasına çata bilmədən çökmüşdü. Ancaq bu çöküş, faşizmin tamamilə yer üzündən silindiyi mənasını vermirdi. II Dünya müharibəsindən sonra faşizm sözün əsl mənasıyla özünü üçüncü dünya ölkələrində göstərdi. Latın Amerikası və Afrikada -çox vaxt ABŞ-ın dəstəyi ilə-hakimiyyəti ələ keçirən diktatorlar və xuntalar, təməldə faşist ideologiyaya sahib idilər.

## Latın Amerika faşizminin vəhşiliyi

Üçüncü Dünya faşistləri nasist qırğınlarını xatırladan vəhşiliklər tətbiq etməkdən çəkinmədilər. Məsələn, 1973-ci ildə dövlət başçısı Allendeyə qarşı qanlı bir çevriliş təşkil edən Çili diktatoru Pinoçet, ölkəsini qan gölünə çevirdi. Pinoçet prezident sarayını tanklar və reaktivlər tərəfindən bombaladaraq Allendeni öldürtdü. Ancaq Çili xalqına Allendenin təslim olmaq istəmədiyi üçün intihar etdiyi deyildi. Sonra da Allende tərəfdarlarına və müxalifətə qarşı şiddətli bir qırğın siyasətinə başlandı. Siyasi qrupun hakimiyyətinin birinci ilində minlərlə adam öldürüldü, 9 milyon əhalisi olan Çilidə təxminən 90 min adam həbs olundu. Qorxutma manevrləri, meyitxanalara yığılmış ölülər, cəsədləri Mapoço çayının suyu ilə axıb gedən gülləyə düzülmüş insanlar, şübhəli şəxslərin "Santyaqo" stadionuna qatılması, girov götürmə siyasəti, ciddi axtarışlar və odlamalar, Pinoçet rejiminin cinayətlərinin bir hissəsiydi. Təhsil heyətlərində "təmizlik" aparıldı, universitet təhsil proqramlarında olan tarix və coğrafiya elmləri faşist rəhbərliyin ciddi nəzarətinə keçirilməyə başlandı.

Argentina, Qvatemala, Salvador, Nikaraqua, Honduras, Paraqvay kimi Latın Amerika ölkələrində də Pinoçet nümunəsinə bənzər faşist diktatorlar hakimiyyətə gəldi və ağlasığmaz vəhşiliklər həyata keçirdi. Argentinadakı xuntaların rejimi dövründə rejimə qarşı çıxan minlərlə insan "yoxa çıxdı". Sonradan ortaya çıxan məlumata görə, iki mindən çox siyasi məhbus təyyarələrə mindirilmiş, Argentina sahillərində minlərlə metr hündürlükdən dənizə atılmışdı. 1995-ci ilin 27 apreldə Argentina televiziyasına çıxan Federiko Talavera adlı köhnə bir jandarm, xunta rejimi əsnasında tətbiq olunan işgəncələri etiraf edərkən, doğum sancısı çəkən qadınların dənizə atılmalarından, insanların cinsi orqanlarını dişləmək üçün xüsusi olaraq yetişdirilən itlərə qədər bir çox üsulun tətbiq olunduğundan bəhs etmişdi. Etiraf edənin dediyinə görə, xüsusi

təlim görmüş itlər işgəncə görən siyasi məhbusların cinsi orqanlarını ağızlarında tutub əmr verilməsini gözləyir, məhbus danışmadığı təqdirdə isə itə dişləməsi əmri işarə edilirdi. Qvatemalada baş verən vəhşiliklər də qorxunc idi. 1954-cü ildə ölkənin ilk və tək seçilmiş başçısı olan Yakobo Arbenzini hakimiyyətdən devirən faşist rəhbərlik, 60-cı və 70-ci illərdə ölkəni bir ölüm tarlasına çevirdi. Faşistlərin hədəfləri arasında isə - faşizmin ənənəvi din düşmənçiliyinə uyğun olaraq- dindarlar gəlirdi. Amnesty International (Beynəlxalq Əfv Təşkilatı), yalnız 1966-ci ilin oktyabr ayından 1968-ci ilin mart ayına qədər aralarında çoxlu sayda dindarın da olduğu 8 min Qvatemala vətəndaşının rejimin qurduğu "ölüm manqaları" tərəfindən edam edildiyini bildirmişdi. 1972-ci ildə bu ölüm manqalarının qurbanlarının sayı 12 minə, dörd il sonra da 20 minə yüksəldi. Roma Katolik Yepiskoplar Konfransı, hökumətin həyata keçirdiyi siyasəti bir sözlə "soyqırım" olaraq xarakterizə etmişdi. Amerikalı yazıçı Uilyam Blum, *The CIA: A Forgotten History* adlı kitabında Qvatemala rejiminin işgəncə üsullarını belə izah edir:

Rejimi tənqid etdiyi eşidilən ya da partizan qrupuna üzv olduğu düşünülən insanlar, gizli polis tərəfindən evlərindən zorla çıxarılaraq naməlum yerlərə aparılırlar. Əksəriyyətinin işgəncə görmüş və ya yandırılmış cəsədləri bir neçə gün sonra bir yol kənarında əlləri arxadan bağlanmış vəziyyətdə ya da bir çay sahilində plastik bir torba içində tapılır. Bəziləri kütləvi məzarlara basdırılmışdır. Bəzi cəsədlər də təyyarələrlə Sakit Okeana atılmışdır. Qualan bölgəsində artıq heç kimin balıq ovlamadığı deyilir, çünki sular cəsəd doludur. Sudan çıxan cəsədlərin arasında gözlərinə iynə batmış olanlar da var. Bir kəndin partizanlarla əlaqəsi olduğu güman edilirsə kəndə basqın təşkil edilir və bütün kişilər bir daha heç görünməmək şərtilə aparılırlar. Ya da kənddəki hər kəs öldürülür və evlər də buldozerlə dağıdılır. Ancaq bu zərər çəkmiş şəxslərin demək olar ki, heç biri partizan qrupunun üzvü deyil... Ən çox istifadə edilən işgəncə üsulu, içinə həşərat əleyhinə olan dərman doldurulmuş bir torbanın zərər çəkmiş şəxsin başına keçirilməsi və ilk növbədə cinsi orqanlar olmaqla bədənə elektrik verilməsidir (127). Uilyam Blum kitabında Qvatemala sakini olan bir qadının sözlərini belə xəbər verir. Ailəsiylə birlikdə "rejim müxalifi" olmaqda günahlandırılaraq sorğuya aparılan Riqoberta Mençu Tum adlı qadın, 9 dekabr 1979-cu il tarixində başına gələn hadisələri belə izah edir:

16 yaşındakı qardaşım Patrocino ilə məni Çajuldakı mərkəzə apardılar və günlərlə işgəncə verdilər. Başçı Lukas Qarsianın ordusundan bir zabit kişiləri bir kənara ayırdı. Bir müddət sonra Patrocinoyu gördüm, dili kəsilmiş və dırnaqları sökülmüşdü, bu çox qorxunc idi! Bu vaxt zabit bir söhbətə başladı. Hər dayandığında, əsgərlər, qardaşımın və digər kişilərin qanlı bədənlərini çubuqlarla döyürdülər. Daha sonra tanınmaz haldakı bədənləri çölə çıxardaraq torpağın üstünə atdılar və üzərlərinə qaz tökdülər. Daha sonra onları odladılar və diri-diri yandırdılar. Bu vaxt ətrafdakı insanları da bunu

seyr etməyə məcbur edirdilər (128). Bunlar yalnız bir neçə kiçik nümunə idi. Qvatemalada əvvəlcə General Romeo Lukas Qarsia sonra da General Efrain Rios Montt tərəfindən idarə olunan faşist xunta rejimi, bənzəri şəkillərdə yüz mindən çox insanı öldürmüşdü. Uilyam Blum, rejimin təhlükəsizlik qüvvələri tərəfindən "gözləri oyulan, xayaları kəsilərək ağızlarına soxulan, əlləri və qolları qopardılan" zərər çəkmiş şəxslərdən, "döşləri kəsilən" qadınlardan da bəhs edir. Bənzər faşist rejimlər, Zair, Uqanda və Cənubi Afrika kimi Afrika ölkələrində də uzun illər hakimiyyətdə qaldı. Cənubi Afrikadakı rejim nasist Almaniyasını xatırladan dərəcədə qatı bir irqçi ideologiyaya sahib idi. Cənubi Afrika əhalisinin əksəriyyətini təşkil edən və ölkənin yerli xalqı olan zəncilər, on illər boyu hakimiyyətdəki azlıq təşkil edən ağ irqin nümayəndələri tərəfindən istismar edildi. Bir sözlə, 20-ci əsrin ikinci yarısı da, birinci yarısı qədər faşist vəhşiliyin hədəfi oldu. Avropada dağılan faşist rejimlərin bənzərləri, Latın Amerika və Afrikada ortaya çıxdı və yenə dünyanı "güclülərin qalib gəldiyi, zəiflərin yox olduğu bir qarşıdurma meydanı" halına gətirdilər.

## Yaxın Şərqdəki faşist diktator: Səddam Hüseyn

21-ci əsrin əvvəlində olduğumuz bu günlərdə, 1960-cı və 1970-ci illərin müxtəlif faşist diktatorları da artıq tarixə qarışmış vəziyyətdədir. Ancaq faşizm, hər an yeni bir ərazidə yeni şərtlər altında yenidən kök sala bilir. Yaxın Şərq də faşist rejim və təşkilatların vəhşiliyindən çox yara almış bir regiondur. Və belə bir zamanda hələ də faşist diktator Orta Şərqi təhdid edir: Bu Səddam Hüseyndir. Səddam Hüseynin keçmişini araşdırmaq, faşist xarakterini görmək baxımından əhəmiyyətlidir. Səddamı İraqın başına gətirən hadisələr bir çevrilişlə başladı. 1963-cü ilin fevralında, özlərinə "Baas" (Diriliş) Partiyası adı verən bir qrup zabit və sokak militanı, o vaxta qədər hakimiyyətdə olan polkovnik Qasımı hakimiyyətdən devirdilər. Bu militanların arasında, çevriliş günü polkovnik Qasımı öldürməklə vəzifələndirilmiş altı nəfərlik xüsusi qrupun da üzvü olan gənc bir adam diqqət çəkirdi: Bu adam Səddam Hüseyn əl-Tikrit, yəni Tıkritli Səddam Hüseyndi. Əsgər olmamasına baxmayaraq daima əsgər formasıyla gəzən Səddam, çevrilişdən dərhal sonra Baas rəhbərliyi tərəfindən terror və sui-qəsdlərdən məsul olan xüsusi bir qrupun başına gətirildi. İlk gördüyü iş isə, çevriliş müxaliflərini sorğuya çəkmək üçün yeni və təsirli işgəncə üsulları meydana gətirmək oldu. Diriliş partiyasının saray çevrilişiylə meydana gələn bu hakimiyyətə həmin ilin noyabr ayında son qoyulduqda, Səddam Hüseynin işgəncə mərkəzi ortaya çıxarılmışdı. İşgəncə mərkəzi, Səddamın xüsusi icadı olan qorxunc işgəncə alətləriylə dolu idi. Diriliş partiyasının on aydan az vaxt çəkən qısa hakimiyyətinə, yenə bir çevrilişlə son qoyulmuşdu. Ancaq diriliş partiyası 17 iyul 1968-ci ildə ikinci bir çevriliş həyata keçirdi. Bu dəfəki, çevriliş daimiydi.

Diriliş partiyasının bu ikinci çevrilişin ikinci lideri məşhur "işgəncə ustası" olan Səddam Hüseyndi. Səddam, rejimin düyün nöqtələrinə öz qohumlarını yerləşdirərək və siyasi rəqiblərini öldürdərək vaxt ərzində bütün siyasi gücü əlində topladı. Qəddar işgəncə ustası, İraqın diktatoru olmuşdu. Səddam hakimiyyəti ələ keçirdikdən sonra daima döyüş və qarşıdurma arxasınca getdi. 1980-ci ildə, heç bir səbəb olmadığı halda, ani bir hücumla İranı işğal etdi və 8 il ərzində yüz minlərlə iraqlı və iranlının həyatını itirməsinə gətirib çıxaracaq bir müharibəni başlatdı. Bu müharibənin bitməsindən 2 il sonra bu dəfə yenə heç bir səbəb olmadığı halda, Küveyti işğal etdi və Körfəz müharibəsinə səbəb oldu. Alman torpaqlarını genişləndirmək üçün dörd bir yana dəlicəsinə hücum edən Hitler kimi, Səddam da ətrafına terror yaymışdır. Üstəlik, öz xalqına qarşı da ən zalım üsullardan istifadə etməkdən çəkinmədi. Səddamın hakimiyyəti ərzində, rejimə müxalif görülən kəslər, siyasi və hətta etnik qruplar cürbəcür vəhşiliklərə məruz qaldılar. *Newsweek* jurnalı bir buraxılışında Səddamın faşist xarakteri üçün belə bir tərif verir:

"...Bəziləri ona" qaniçən bir despot", "Bağdadın qəssabı" deyərlər. **Səddam Hüseyn İraqı arxasındakı 1 milyonluq ordu, müxbir, sui-qəsdçi və işgəncə verən şəxslərdən ibarət olan bir legion ilə polad əlcək içindəki dəmir bir əl kimi idarə edir.** Səddam Yaxın Şərqdə özünün və ölkəsinin böyüklüyü naminə etdiyi olduqca insafsız rəftarlarıyla tanınır. Belə ki, həm içəridəki, həm də çöldəki düşmənləri üçün zəhərli qazdan istifadə etməkdən çəkinməz (129). Həqiqətən də Səddam xeyli iraqlı insanın qanını axıtdı. İrana qarşı başlatdığı müharibənin sonunda İraqın 17 milyonluq əhalisindən 1 milyonu ölmüş və ya yaralanmışdır.

(Xalqın 1 milyonundan çoxu da ölkəni siyasi və iqtisadi səbəblərlə tərk ediblər). Vaşinqton mərkəzli Middle East Watch adlı insan hüquqları təşkilatı, İraqda məcburi təcrid və deportasiya, göstərişə əsaslanan həbs və cəza, işgəncə və gizli işlər, tez-tez tətbiq olunan siyasi edam olduğunu xəbər verir. Beynəlxalq Əfv Təşkilatının hesabatına görə, yalnız şübhədən ötrü həbs olunan on minlərlə insanın böyük bir hissəsi sərbəst buraxılmamış, böyük əksəriyyəti isə itmişdir. Məhbuslara və nəzarətə götürülənlərə, **üzərlərində siqaret söndürmək, barmaqlarını kəsmək kimi çox ağır işgəncələr tətbiq edilir (130).** Səddam Hüseyn 1988-ci ildə Halepçedə törətdiyi qırğın ilə fərqli etnik mənşəyə sahib xalqa qarşı faşist rəftarını göstərmişdir. Halepçedəki sivil kürd mühacirlərə qarşı sinir qazından istifadə edərək 6 min günahsız insanın, körpə, yaşlı, qadın, kişi demədən qıvranaraq ölmələrinə səbəb olmuşdur (131). İraqdakı faşist rejimin siyasi məhbuslara verdiyi işgəncələr daha qorxuncdur. İraqdan qaçan bir həkim, bu işgəncələri belə izah edir: "Cənubda bir xəstəxanada staj keçirdim. Həbsxanadan gətirilən şəxsləri yalnız həkimlər görə bilərdi. Bir ət yığını halında olan insanların çoxu ölürdü. İşgəncələrdən sağ çıxan siyasi günahkar yox idi. Nəzarətə alınacağımı başa düşdüyüm vaxt dərhal qaçdım" (132).

Səddamın zalımlıqlarından bu günə qədər ailəsi və yaxın ətrafı da öz payını almışdır. İraq lideri Səddam Hüseynin ögey qardaşı Bərzan Tikrit Səddamın və oğlu Udeyin onu öldürtmə ehtimalından Birləşmiş Ərəb Əmirliklərinə qaçmışdır. Səddamın iki kürəkəni Hüseyn və Səddam Kamil də 1995-ci ildə Saddamdan qorxaraq İordaniyaya qaçmışlar. Bununla da Səddam onlara can təhlükəsizliyi zəmanəti vermiş və ölkəyə geri qayıtmalarını istəmişdir. Ancaq can təhlükəsizliklərinin qorunacağına dair vəd alan iki qardaş Bağdada qayıdar-qayıtmaz atalarıyla birlikdə öldürülmüşlər. Daha sonra da analarının cəsədi parça-parça edilmiş vəziyyətdə tapılmış, bu hadisələr bütün dünya ictimaiyyətin gözü qarşısında baş vermişdir. İraq lideri, ölkədən qaçan müxaliflərə isə alçaq üsullarla gözdağı verir. Məsələn, 1995-ci ildə İordaniyaya qaçan General Nəcib Selahi, ailə yaxınlarına təcavüz edilərək, təcavüz kasetlərinin özünə göndərildiyini və bunun yalnız özünə deyil, bir çox müxalifə edildiyini bildirmişdir.

Bu nümunələrdən də göründüyü kimi, Səddamın İraq xalqı üzərində qurduğu hakimiyyət tamamilə onları məhv etməyə, qorxutmağa, gözdağı verməyə və işgəncəyə əsaslanır. Səddam Hüseynin faşist rejimiylə idarə olunan xalq isə ac, işsiz və səfil haldadır. Kiçik körpələr aclıqdan və dərman tapa bilməməkdən ötrü ölür, böyük bir millət daima ölümə və yox olmağa doğru gedir. Buna baxmayaraq xalq ya qorxudan ya da içində olduğu kütlənin təsirindən Səddama toz qondurmur, olduğu səfalətdən həmişə "onları", yəni Səddamın düşmənlərini günahkar hesab edir. Səddamı araşdırdığımızda faşist xarakterin digər xüsusiyyətlərini də tapmaq mümkündür. Bunun bir nümunəsi, **Səddamın, eynilə nasistlər və digər faşistlər kimi, özünü tarixdə yaşamış bütpərəst diktatorlara bənzətməsidir.** Səddamın özü üçün seçdiyi "Sparta", Orta Şərqin bütpərəst imperatorluqlarından biri olan Babildir. Səddam özünü, "üfüqdən göyə qədər rəqib"i olmadığı deyilən **Babil padşahı Nebukadnezarın varisçisi olaraq görür və göstərir** (133). İraqda nasistlərin bütpərəst mərasimlərini xatırladan şəkildə, Babil imperatorluğunun yenidən dirçəlməsini təsvir edən mərasim və ayinlər keçirilmişdir. Süleyman məbədini dağıdan və İsrail oğullarını Babilə sürgün edən Nebukadnezar, tarixdə iki xüsusiyyəti ilə tanınır: Bu xüsusiyyətlər mərhəmətsiz bir komandir və böyük bir memar olmasıdır. Ağılsızlıq dərəcəsində qürurlu olan Nabukadnezarı inşa etdirdiyi binaların bütün kərpicləri üzərində tək-tək öz adını yazdırdığı məlumdur. Səddam Nebukadnezarın bu xüsusiyyətini də təqlid edir və xalqının bütün səfalət və yoxsulluğuna baxmayaraq böyük bir israfçılıqla inşa etdirdiyi saraylarında istifadə edilən kərpiclərin üzərinə öz adını yazdırır. İraq xalqının əhəmiyyətli bir hissəsi isə, faşizmin meydana gətirdiyi güclü romantik təşviq içində bu sarayları ona edilmiş bir haqsızlıq və ədalətsizlik kimi görmürlər. Əksinə Səddamın azğınlıq içində yaşadığı bu saraylar milli fəxr məsələsi halına gəlmiş, əcnəbilərə qarşı İraqın bir fəxri kimi qəbul edilmişdir.

Səddamın faşist xarakterinin başqa bir nümunəsi isə, dinlə heç bir əlaqəsi olmamasına rəğmən, bəzən saxta bir dindarlıq maskası taxması və dini siyasi

cəhətdən istifadə etməsidir. Halbuki, dinə zidd bir iş görmək (Saddam kimi haqsız yerə işğallar həyata keçirib yer üzündə fitnə-fəsad törətmək) üçün dini simvollardan istifadə etməyə çalışmağın bir ikiüzlülük olduğu çox aydındır. İraq xalqına və faşizmlə qarşılaşan hər kəsə düşən vəzifə, bu kimi sadə təbliğat və aldatma üsullarına aldanmamaq, həqiqi bir dindar ilə özünü dindar kimi göstərən bir faşisti ayırd etmək və ona uyğun davranmaqdır. Bunu ayırd etmək isə çətin deyil, çünki bir faşistin heç bir şəkildə dindar olmayacağı aydındır. Allah güc və mövqe sahibi olduğu təqdirdə yer üzündə fitnə-fəsad törədən bu kimi ikiüzlü insanlardan Quranda belə bəhs etmişdir:

**İnsanların eləsi də var ki, onun bu dünya həyatında danışdığı sözlər səni heyran edər. O, qəlbində olana Allahı şahid göstərər. Əslində o, ən qatı mübahisəçidir. O, dönüb getdikdə yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar. Allah isə fitnə-fəsadı sevmir. Ona: "Allahdan qorx!" - deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 204-206)**

# FAŞİZMİN SƏSSİZ YÜKSƏLİŞİ

**Faşizmin II Dünya müharibəsində yaşadığı məğlubiyyət və çöküş, çox insanda "faşizm artıq ölmüşdür" düşüncəsini oyandırdı. Ancaq vəziyyət tam mənasıyla elə deyildi. Faşist ideologiyanın qabaqcıl nümayəndələrinin ortadan qalxdığı doğru idi, amma faşist ideologiyanın dayaqları (bütpərəstlik, Darvinizm, şiddət sevgisi və irqçilik) hələ də qalırdı. Bu səbəblə də Hitlerin və ya Mussolininin ölməsi faşizmi öldürmədi. Əksinə, "faşizm artıq ölmüşdür" şəklindəki geniş yayılmış düşüncə, yeni faşist hərəkatların meydana gəlməsinə və kök salmasına zəmin hazırladı. Faşizm bəzən bu addan açıq şəkildə istifadə edərək, bəzən də özünü kamuflyaj edərək yaşamağa davam etdi. Və xüsusilə də 1990-cı illərdə yeni bir yüksəlişə qədəm qoydu.**

Bu hissədə faşizmin bu yeni yüksəlişini və bunun dünyaya gətirdiyi təhdidləri araşdıracağıq. Əvvəlcə Avropada irqçiliyin hələ də hökm sürdüyünü görəcək, daha sonra neo-nasist təşkilatlanmalarının yüksəlişini qeyd edəcəyik. Və sonra da, irqçiliyin yüksəlişinin pərdə arxasını, bu yüksəlişin arxasındakı ideologiyanı analiz edəcəyik.

## Neo-nasistlər

Rəsmi alman statistikalarına görə 1999-cu ildə yalnız Almaniyada irqçilik və xarici təcavüzdən qaynaqlanan 10037 hadisə aşkar edilmişdir. 2000-ci ildə açıqlanan irqçiliklə əlaqədar baş verən hadisələrinin sayı da on mindən çoxdur. İngiltərədə isə yalnız aprel-sentyabr ayları arasında aşkar edilən irqçi qaynaqlı cinayətlərin sayı 10982-yə çatmışdır. Bu cinayətlərin yarısının qorxutma, göz dağı vermə və təcavüz şəklində olduğu ifadə edilmişdir. Bir çoxu isə öldürmə, yaralama, dağıdıb yandırmaq kimi hadisələrlə nəticələnmişdir. Bunların təşkil edənləri, neo-nasistlər olaraq tanınan faşist qruplaşmalarıdır. Neo-nasist fəaliyyət, xüsusilə də 1990-cı illərdə mütəşəkkil fəaliyyətə keçmişdir. Bundan əvvəl də 1970-ci illərdə İngiltərədə daz başlar hərəkatı başlamışdı. Bu hərəkatın xüsusiyyəti isə küçə qruplaşmalarının immiqrantlara, əcnəbilərə və kasıb məhəllələrdə yaşayanlara qarşı təcavüzkar davranmaları idi. Bunların yalnız bir qismi irqçi idi. Ancaq 1990-cı illərdə, dazbaşlıların çox hissəsi irqçiliyi mənimsədi və nasist tərəfdarları olaraq irqçi faşist hərəkatları başlatdılar.

Yaşadığımız illərdə isə neo-nasist hərəkat getdikcə güclənir və yayılır. Bu gün 33 ölkədə və 6 qitədə aktiv haldadır. Sayları isə 70 minə çatır. Üzvləri adətən 13-25 yaş arasında olan bu küçə qruplaşmaları, bir-biriləriylə xüsusilə internet vasitəsi ilə əlaqə yaradırlar. Neo-nasistlər hər ölkədə özlərinə fərqli hədəflər təyin ediblər. Aparılan bir araşdırmada qeyd edildiyinə görə, Almaniyada türklərə, Macarıstan, Slovakiya və Çexiya Respublikalarında qaraçılara, İngiltərədə asiyalılara, Fransada şimali afrikalılara, Braziliyada Şimal-şərqlilərə, Amerikada bütün etnik azlıqlara və immiqrantlara qarşı təşkilatlanırlar. Bir çox ölkədə evsizlər və kasıb məhəllədə

yaşayanlar da hədəf seçilə bilirlər.

Nasist görünüşlü bu gənclər, adətən narkotik aludəçilərindən, işsiz-gücsüz, küçə avaralarından ibarətdir. Geyimlərinin üzərinə taxdıqları nasist simvolları, qırxılmış daz başları və döymələri ilə dərhal tanınırlar. Bu döymələri ilə əsasən digər irqlərə olan düşmənçiliklərini göstərirlər. Şüarlarında, söhbətlərində və mahnılarında Hitleri ucaltmaqla və öm onun xəyalını reallaşdırmağa həsr etdiklərini ifadə edirlər: Bu xəyal dünyanın Aryan irqi tərəfindən idarə olunmasıdır. Bu qruplaşmalara, ümumiyyətlə problemli dairələrdə böyümüş, aşağı təhsilli, başıboş, özünə etibar etməyən gənclər qoşulur. Başqalarını alçaltmaq, şiddət tətbiq etmək, qorxutmaq kimi faktorların bir yerdə tutduğu bu insanlar, beləcə özlərini başqa insanlardan üstün görə biləcəkləri bir mühit tapdıqlarını düşünürlər. Şiddət, kin, nifrət, zorakılıq, qorxutma, təhdid, dağıdıb yandırmaq, zərər vermə başlıca xüsusiyyətləri arasında sayıla bilər. Bunları ən çox yerinə yetirən isə aralarında qəhrəman elan edilir.

Neo-nasistlərin özlərinə aid bir də musiqi üslubları var. Əslində bu dairələr musiqini bir təbliğat vasitəsi kimi də görürlər. Mahnılarının sözləri irqçi, paranoyak və təcavüzkar üzlərini izah edir. Mahnıların və musiqi qruplarının adları belə eyni mesajları verir: Bunlar "Zəfəri salamla", "Vampir", "Ağ gurultu", "Vəhşi hücum", "Döyüş üçün", "Ülgüc kənarı", "Ağ döyüşçülər" kimi adlardır. Bu müzik qrupları Almaniya, Belçika, İngiltərə kimi bir çox Avropa ölkəsində istədiyi yerdə konsert verə bilir. Və minlərlə gənc bu konsertlərə qatılaraq, nasist salamı verərək bu qruplara yoldaşlıq edir. Neo-nasistlərin bir də yan qrupları var. Bunların başında futbol azarkeşləri gəlir. Xüsusilə matçlarda dazbaşlılar və futbol azarkeşləri birləşərək, zənci oyunçulara qarşı şüarlarla çıxış edir, rəqib tərəfdarına hücum edir, stadionlarda ölümlərlə nəticələnən döyüş və qarşıdurmalara səbəb olurlar. Bu qruplardan hər hansı bir vəziyyətdə asanlıqla neo-nasist tədbirlər üçün də istifadə edilə bilər. Həmçinin neo-nasist olmadığı halda neo-nasist musiqi qruplarının pərəstişkarı olan təbəqə də daim istiqamətləndirilə biləcək bir kütlə kimi görünür. Onlar da dinlədikləri musiqinin və nasist təbliğatının təsirindən, istənildiyi vaxt təşkil edilərkən aksiyalara çağrıla bilirlər. Məhz bu yolla irqçi hərəkatlar, böyük sürətlə gəncləri zəhərləməyə və öz tərəflərinə çəkməyə davam edir. Neo-nasistlərin Avropada bu qədər çox güclənə bilmələrinin arxasında duran səbəb isə əslində **gizlində cəmiyyətdən və siyasətçilərdən aldıqları dəstəkdir.**

Bu gün Avropada bir çox partiya müxtəlif adlar altında öz vəzifəsini yerinə yetirsə də əslində faşist meyillidir və bunların hamısı neo-nasistləri əhəmiyyətli dərəcədə dəstəkləyirlər. Bu siyasiləşmədən başqa, neo-nasistlər əsasən şiddət və küçə aksiyaları ilə istədiklərini bacara biləcəklərini düşünürlər. Əslində bu, kitabda izah etdiyimiz kimi tipik faşist xarakterdir. Çünki faşistlər demokratik mühitlərdə fikri mübarizə aparılacağına ehtimal verməzlər. Onlar daim meşə qanunlarının etibarlı

olduğuna, haqqı deyənin deyil, güclü olanın haqlı olduğuna inanırlar. Buna görə də öz aləmlərində ən böyük güc, təcavüzkarlıq və zülmdür.

## Müasir Avropada irqçi siyasətlər

Neo-nasistlər, Avropadakı irqçi hərəkatın radikal nümayəndələridir. Yerinə düşərsə faşist baltanın "iti ucu"durlar. Amma bir də bu baltanın sapı vardır və bunlar neo-nasistlərdən daha geniş bir ictimai və siyasi bazanı təmsil edir. Neo-nasistlərin irqçiliyi, əslində Avropada getdikcə güclənən irqçi meyillərin əks olunmasıdır. Avropa əhalisinin böyük bir hissəsində əslində öz irqinin üstünlüyünə inanan gizli bir irqçilik anlayışının mövcud olması neo-nasistlərə üstü-örtülü şəkildə dəstək təmin edir. 1997-ci ildə aparılan araşdırmalara görə Avropa daxilində irqçi potensialın 33%-ə yaxın olduğu müəyyən olunmuşdur. Xüsusilə də Belçika, Fransa və Avstriyada bu göstəricinin daha da yüksək olduğu müşahidə olunur. Özünü "tamamilə irqçi" və ya "xeyli irqçi" olaraq adlandıran insanların faiz nisbəti Belçikada 55%, Fransada 48%, Avstriyada isə 42%-ə yaxındır. Almaniyada isə irqçilərin faiz nisbəti 34%-ə yaxındır. Buna görə də neo-nasistlər, molotof kokteylləriylə hərəkət edərkən və ya "Əcnəbilər çölə" şüarlarıyla çıxış edərkən əslində xalqın 35%-nin də düşüncələrini reallaşdırmış olurlar. Bunlara bir də gizlində neo-nasistlərin irqçi hərəkətlərini dəstəkləyən siyasətçilər də əlavə edildikdə, bu faşist təşkilatların qarşısı heç bir yolla alına bilmir (134).

Sözügedən irqçi meyillər haqqında Fransa diqqəti çəkən bir nümunədir. Fransada 1993-cü ildə keçirilən parlament seçkilərindən sonra Fransız demokratiyası üçün Birlik (UDF) ilə Respublikaçı Birlik partiyaları, baş nazir Eduard Balladurun rəhbərliyi altında hökumət qurdular. Daxili İşlər Naziri vəzifəsinə də Pasqua gətirildi. Bu hökumətin qurulmasıyla, bir anda ölkədəki əcnəbilərə potensial günahkar gözüylə baxılmağa başlandı. Və bu baxışın ağır təzyiqi də dərhal ardınca gəldi. İlk növbədə əcnəbilərə verilən hüquqlar geri alındı. 1993-cü ilin avqustunda Balladur hökuməti tərəfindən qüvvəyə minən və xalq arasında "Pasqua Qanunu" olaraq məlum olan qanunun polisə vermiş olduğu kəşfiyyat səlahiyyəti ilə Fransada yaşayan əcnəbilər narahat edildi. **Fransa vətəndaşı olmuş xarici əsillilərin belə evlərinə səhərə yaxın basqınlar həyata keçirilərək insanlar, böyük-kiçik demədən evlərindən nəzarətə götürüldülər.** Bu əcnəbilər sanki müharibə günahkarıymış kimi cəzaya məruz qaldılar. Günlərlə sorğuya çəkildilər, **işgəncə** əsnasında qolları və qıçları qırılanlar belə oldu (135). 17 yaşındakı Zairli Nikomé, oğurluq şübhəsiylə nəzarətə götürüldüyü bir Paris polis şöbəsində güllələndi. Bu hadisə eşidildikdən sonra ertəsi gün (yəni 1993-cü 7 apreldə) həyata keçirilən aksiyaya qoşulan iki zənci daha Fransız polisi tərəfindən vurularaq öldürüldü. Morokko mənşəli bir Fransız vətəndaşının üç polis tərəfindən işgəncəyə məruz qalıb

öldüyü zənn edilərək bir yerə atılması və bu hadisənin ortaya çıxmasıyla, qanuni yollarla Fransaya daxil olmuş orada işçi və ya şagird olanlar, qalma icazəsi olanlar belə qorxu və təşviş içində yaşamağa başladılar. Fransadakı bu hadisələr, şübhəsiz ki, cəmiyyətə hakim olmuş irqçi bir anlayışın nəticəsidir və bu vəziyyət yalnız Fransa üçün etibarlı deyil. **Avropanın az qala hər yerində irqçiliyin dərin izləri vardır.** Avropa Birliyi üzvlərinin serb təcavüzkarlığına qarşı müsəlman Bosniyalılara uzanan yardım əlinin çox yubanması (hətta bəzi dairələrin gizlində serbləri dəstəkləmələri), Almaniyadakı əcnəbilərə neo-nasistlər tərəfindən tətbiq edilən hücumları həyata keçirən şəxslərə lazımi cəzalar verilməməsi, Fransadakı ərəb və zəncilərin irqçi hücumlarla ziyana uğradılması, yenə Fransadakı Bask və korsikalı etnik azlıqlara qarşı aparılan dövlət terrorunun davam etməsi, Bretan və ölkə torpaqlarının üçdə birində yaşayan Oksitanların dövlət tərəfindən etnik azlıq olaraq qəbul edilməmələri, İngiltərə ilə İrlandiya arasındakı problemlər, İspaniya ilə Bask və Kataloniya arasındakı qarşıdurmalar, Bolqarıstandakı türkləri kütləvi şəkildə köç etməyə məcbur etmək məqsədiylə Belene düşərgəsində Bolqar hökuməti tərəfindən vətəndaşlarımıza tətbiq olunan vəhşilik, məhz bütün bunlar irqçiliyin bəzi Avropa millətləri üzərindəki hakimiyyətinin təsirləridir. *Faşizmdən Sonrakı Avropa* kitabının yazıçısı İlya Ehrenburg'un faşistlər üçün verdiyi tərif, Avropada hələ də güclü olan irqçi mədəniyyətin məntiqini qısaca olaraq belə xəbər verir:

...Faşizm hər şeydən əvvəl milli kin deməkdir, milli qürur anlayışının təhrif edilməsi deməkdir. Faşizm xəstəliyinə yoluxdurulan insanlar başqa xalqların zəngin mədəniyyətiylə fəxr etməkdən uzaqdırlar, yalnız öz soy kökəri ilə fəxr edərlər... (136).

Sözügedən "milli kin", Allahın Quranda **"cahiliyyənin qəzəbli soy qoruyuculuğu" (Fəth surəsi, 26)** olaraq təsvir etdiyi azğın meyildir. Quranda bu **"qəzəbli soy qoruyuculuğu"nun müşriklərin bir xüsusiyyəti olduğu,** lakin müsəlmanların bundan qorunduğu bildirilir. Bu da bizlərə yenidən göstərir ki, faşist irqçilik, din əxlaqının ortadan qalxmasının, bunun yerinə bütpərəstliyin güclənməsinin bir nəticəsi olaraq yaranar. Buna görə də Avropada getdikcə güclənən irqçi meyillərin, hər keçən gün daha çox kök salan neo-nasist təşkilatlanmalarının da bütpərəstliyin güclənməsiylə bir əlaqəsi olmalıdır. Faktiki olaraq elədir.

## "Ağ irqin üstünlüyü" və yeni faşizmin ideologiyası

İndiki vaxtda "faşist təşkilatlanma" deyildikdə çox insanın ağlına ilk növbədə alman neo-nasistləri gəlir. Ancaq həqiqətdə dövrümüzün faşist təşkilatlanmaları içində bir çox təşkilat daha var. ABŞ-da fəaliyyət göstərən bir çox faşist qrup var və bunlar "nəzəri" səviyyədə alman neo-nasistlərinə görə daha əhəmiyyətli bir mövqedədirlər. Bu

qruplar ümumiyyətlə **"White Supremacy"** (Ağ Üstünlüyü) şüarından istifadə edirlər. Və ən əhəmiyyətlisi də, bunu iqtisadi çətinliklərin gətirdiyi bir "əcnəbi düşmənçiliyi" kimi deyil, fəlsəfi və elmi bir doktrina olaraq irəli sürürlər. "White Supremacy" çətiri altında Ku Klux Klan, Amerika nasist Partiyası, "Aryan Milləti" (Aryan Nation) hərəkatı və "Milli İttifaq" (National Alliance) kimi müxtəlif faşist təşkilatlar iştirak edir. İnternet yoluyla güclü bir təbliğat fəaliyyəti həyata keçirən bu qrupların məqsədi, irqçiliyi bir dünyagörüşü, bir doktrina kimi müdafiə etmək və kütlələrə aşılamaqdır.

Bu qruplardan "Milli İttifaq" (National Alliance) təşkilatının manifestində, bu doktrinanın təməlləri açıq şəkildə ifadə edilir. Maraqlı budur ki, manifest, kitabın əvvəlindən bəri nəzərdən keçirdiyimiz bir həqiqətin, faşizmin bütpərəst və Darvinist ideologiya olduğu həqiqətini təsdiqləyir. Faşist "Milli İttifaq" təşkilatı, doktrinanı açıqlayarkən əvvəlcə özləriylə "sami inanclar" (İslam, xristianlıq və yəhudilik) arasındakı fərqi aydınlaşdırır, özlərinin yalnız təbiətə inandıqlarını və təkamülçü olduqlarını, buna qarşılıq "sami inanclar"ın Allaha imana əsaslandığını bildirir. Sözügedən təşkilatın bu azğın fikirləri belədir:

**Özümüzü təbii qanunlara görə təkamül keçirən ətrafımızdakı vahid dünyaya inteqrasiya etmiş vəziyyətdə görürük.** Sadə şəkildə ifadə etsək: **Yalnız bir həqiqət vardır və o da təbiətdir:** Bizlər təbiətin bir parçasıyıq və təbiətin qanunlarına tabeyik. Bu qanunlar içində biz öz taleyimizi təyin edə bilərik... Digər bir sözlə seçim hüququna sahib olduğumuz hər şey üçün yalnız özümüz məsuliyyət daşıyırıq: Xüsusilə, də ətrafımız və irqimizin taleyi üçün məsuliyyət daşıyırıq. Bu dünyagörüşü semitik görüş ilə zidd ola bilər. Semitik dünyagörüşü, hər şeyin Tanrının nəzarəti altında olduğuna inanır (137). Göründüyü kimi, faşizmin qarşısında din əxlaqı durur. Faşizm insanın "təbiətin bir məhsulu" olduğu azğınlığını müdafiə etməklə yanaşı, din əxlaqı insanı Allahın yaratdığını və insanın taleyini də Allahın müəyyənləşdirdiyini xəbər verir. Faşist "Milli İttifaq" təşkilatının manifestində, təşkilatın sahib olduğu irqçi ideologiyanın təkamülçü məntiqi də belə izah edilir: Dünyamız iyerarxik bir nizama malikdir. Hər birimiz Aryan (ya da Avropa) irqinin bir üzvüyük, **irqimiz eynilə digər irqlər kimi təbii seleksiyanın minlərlə il ərzində ətraf mühitə uğunlaşması və təkamüllü mərhələlərlə inkişaf etdirdiyi özünə məxsus xüsusiyyətlər meydana gətirmişdir.** Şimal bölgəsində yaşayan insanlar daha çox şey tələb edən mühitlərdə, məsələn planlaşdırma və fərdi intizam tələb edən qış iqlimində həyatda qala bilir və buna görə də zehni qabiliyyətlər baxımından daha sürətli inkişaf etmişdirlər (138).

Yəni Aryan irqinin digər irqlərdən üstün olduğu, çünki "təkamüldə irəli keçdiyi" yalanı müdafiə olunur. "Milli İttifaq" təşkilatı daha da irəli gedərək **irqçiliyin "təbiətə qarşı bir məsuliyyət" olduğunu irəli sürür,** buna əsaslanaraq da Nitsşenin fəlsəfəsinə müraciət edir: Hər şeydən əvvəl bir parçası olduğumuz təbiət qarşısında məsuliyyət daşıyırıq, çünki daha yaxşı bir inkişaf və daha yaxşı həyat formaları üçün onun sonsuz

axtarışlarının içərisindəyik. Bu məsuliyyət şairlərimiz və **mütəfəkkirlərimiz tərəfindən görülmüş və ifadə edilmişdir. Fridrix Nitsşe bizlərə gələcəkdə daha yüksək bir insan tipinə hazırlıq görməyimizin ilk məsuliyyətimiz olduğunu bildirmişdir...** Təbiət Aryan irqindən gizlənmiş fərqli xüsusiyyətləri ortaya çıxarmış və bunun müqəddəsləşdirmişdir. Beləcə biz özümüz üçün müəyyənləşdirilən missiyanı daha yaxşı tamamlaya bilərik. Təbiət digər insan irqləri də daxil olmaqla müxtəlif cür həyat formaları meydana gətirsə də, biz öz irqimiz üçün xüsusi məsuliyyətlər daşıyırıq: Bunlar irqimizin davam etməsini təmin etmək, bənzərsiz xüsusiyyətlərini qorumaq və keyfiyyətini artırmaq kimi məsuliyyətlərdir (139).

İnsanı, bütün canlıları, təbiəti və kainatı yoxdan yaradan Uca Allahdır. Buna görə də insan yalnız Rəbbimizə qarşı məsuldur. Mərkəzi ABŞ-da olan Milli İttifaq təşkilatı, İsveç, Fransız, Alman, Portuqal və Rus dillərində də nəşr olunan jurnallar və kitablar buraxır və müdafiə etdiyi darvinist və bütpərəst ideologiyanı sürətlə yayır. Təşkilatın nəşr etdiyi *National Vanguard* (Milli Qabaqcıl) adlı faşist jurnalın üz qabıqlarını, köhnə yunan tanrılarının heykəlləri bəzəyir. Jurnaldakı məqalələrdə isə Darvindən tez-tez sitatlar verilir, "Dünyanın ondan kənarda qalan insanlarıyla əbədi döyüş vəziyyətində olan bir irqin, yaşa və yaşamasına izn ver tərzində, irqlər üzərində diqqətə çarpan həyatda qalma üstünlüyü vardır" (140) şəklində ifadələr yer alır. Digər faşist təşkilatların nəşrlərində və ya internet saytlarında da bənzər Darvinist şərhlər, ilahi dinlərə qarşı azğın bütpərəst mədəniyyətini müdafiə edən təbliğatlarla qarşılaşmaq mümkündür.

19-cu əsrdə bütpərəst mədəniyyətin yenidən dirçəlməsiylə və Darvinin təkamül nəzəriyyəsiylə yaranan faşist irqçilik 21-ci əsrdə yenə eyni təməllərə əsaslanaraq inkişaf etməyə davam edir.

## Gündəlik həyatda faşizm

Faşizmin ən əsas xüsusiyyətlərindən biri olan irqçilik, bura qədər nəzərdən keçirdiyimiz kimi, Qərb dünyasında yüksəlir və bunun arxasında da darvinist-bütpərəst dünyagörüşünün yayılması durur. Bəs görəsən faşizmin digər bir əsas xüsusiyyəti olan şiddət sevgisi, yəni şiddəti, vəhşiliyi, qan tökməyi, mərhəmətsizliyi normal hesab edən bütpərəst əxlaq hələ də yaşayırmı? Bəli yaşayır, həm də çox güclü bir şəkildə yaşayır. Amerikalı tarixçi Gene Eduard Veiz, *Modern Fascism: Liquidating the Judeo-Christian Worldview* (Müasir Faşizm: Xristian-yəhudi dünyagörüşünün yox edilməsi) başlıqlı kitabında, faşist mədəniyyətin hansı səbəbə görə, hələ də hökm sürdüyünü belə izah edir: 1930-cu illərdə (faşist) qabaqcıl sənətçilər, şiddəti və ibtidai hissləri ucaldan estetik nəzəriyyələriylə, burjuaziyanı təəccübləndirmişdilər. **Əgər, bu gün bu köhnə faşist incəsənətin nümunələrini görmək istəyirsinizsə, yalnız Hollivudun**

**keçid rekordları qıran son filminə getməyiniz, MTV kanalını açıb seyr etməyiniz və ya bir Heavy Metal konserti izləməyəniz kifayətdir.** Bunlarda faşistlərin bədii ideallarını görə bilərsiniz: Bu ideallar **şiddətdən zövq almaq, əxlaqa üsyan etmək arzusu və Aryan bədən dini.** Bir şiddət filmindəki vəhşi qaniçənlik, düşmənlərinin üstünü pulemyotla yoxlayaraq ixtiyarı öz əllərinə alan vücudu inkişaf etdirən və ya Metallicanın *"sanki səni öldürürəm kimi, hay-küy sal"*, şəklindəki mahnısına uyaraq rəqs edən gənclər, incəsənətin bu növü, məhz faşist estetikasının özüdür (141). Gündəlik həyatda qarşılaşdığımız "məşhur mədəniyyət"də də, faşist ideologiyanın gizli bir hakimiyyəti vardır. Filmlərdə, çizgi romanlarda, rok konsertlərində, musiqi kliplərində ortaya çıxan bu şiddət həvəsi mədəniyyət, Darvinist-faşist dünyagörüşünün bir nəticəsidir. İnsanlara bir heyvan növü olduqlarını, yeganə təbiət qanununun "qarşıdurma, öldürmə, qalibiyyət"dən ibarət olduğunu təlqin edən, bunu qanuni, ağıllı və elmi bir düşüncə kimi göstərən bu dünyagörüşü, 1930-cu illərdə alman cəmiyyətini nasist kobudluğuna sürüdüyü kimi, indiki vaxtda da kütlələri şiddət hərəkətlərinə, təcavüzkar, vəhşi, kobud və qan tökücü bir əxlaqa sürükləyir. Gündəlik həyatdakı faşizmi görmək üçün dünya mətbuatına baxmaq kifayətdir: Adi bir anlaşılmazlıq nəticəsində bir-birlərini bıçaqlayan ailə üzvləri, bir futbol matçının sonunda bir-birlərini ölənə qədər döyən futbol azarkeşləri, yaşlı atasının mirasını ələ keçirmək üçün onu mərhəmətsizcə öldürən xain övladlar, kiçik bir uşağı qaçırıb işgəncəylə öldürən və bunu "zövq almaq üçün "etdiyini deyən ruhi xəstələr...

Bu kimi nümunələr o qədər çoxdur ki, insanların çoxu bunları "normal" və "qaçılmaz" saymağa başlamışlar. Halbuki, bunlar əslində cəmiyyətdə yayılan bir "dünyagörüşü"nün nəticələridir. Kiçik yaşlarından etibarən, **"həyat bir döyüşdür, güclülər qalib gələr", "əgər sən əzməsən, başqaları səni əzər"** kimi təlqinlər altında böyüyən, seyr etdikləri filmlərdə, dinlədikləri mahnılarda davamlı olaraq bu mesajlarla beyni yuyulan bir kütlə vardır və sözügedən mətbuat xəbərləri, bu yuyulmuş beyinlərin günahlarından ibarətdir. Bu xəbərlərin qəhrəmanları, əsasən cəmiyyətin təhsilsiz təbəqəsidir. Daha "səviyyəli" kimi görünən kübar təbəqə isə, əslində eyni dünyagörüşünün tələb etdiyi cinayətləri yenə törədir, amma bunu daha üstüörtülü və peşəkar bir şəkildə həyata keçirir. Dünya cəmiyyətlərindəki bu qəribə şiddət meyli insanlara məlumdur, amma buna heç bir çıxış yolu tapıla bilmir. Bunun bir səbəbi, başda ifadə etdiyimiz kimi bu ictimai şiddətin "normal" hesab edilməsidir. İkinci bir səbəb isə, əksər insanın bu şiddətin həqiqi qaynağını görə bilməməsidir. Problemin yalnız məhkəmə və detektiv tədbirlərlə həll edilə biləcəyini zənn edir və yanılırlar. Əlbəttə ki, sözügedən "texniki" tədbirləri görmək lazımdır, amma əsl həll cəmiyyətlərdəki korlanmanın mədəni qaynağını tapmaq və bu qaynağı yenə mədəni bir inkişafla müalicə etməkdir. Bu korlanmanın qaynağı isə, kitabın əvvəlindən bəri nəzərdən keçirdiklərimizin bizə açıq şəkildə göstərdiyi kimi, Darvinizmdir. "Həyat bir döyüşdür, güclülər qazanar", "əgər sən əzməsən, başqaları səni əzər" kimi təlqinlərin

qaynağı olan Darvinizm dünyada getdikcə genişlənən“gündəlik həyat faşizminin" əsl cavabdehidir. Bu diaqnoz qarşısında bəziləri etiraz edə bilər və "şiddət göstərən insanların böyük əksəriyyətinin Darvinizmdən xəbərsiz olduğunu" irəli sürə bilər. Bu iddia qismən doğrudur: Həqiqətən də dünyada yayılan şiddətin təşəbbüskarları, Darvinizm barədə heç nə eşitməmiş belə ola bilərlər. Amma bu kütləni istiqamətləndirən, onların dünyagörüşünü meydana gətirən təbəqə, bu mövzuda Darvinizmdən ilham alır. Bu təbəqə universitetlərdə, mətbuatda, bir çox elmi təşkilatda, incəsənət və ədəbiyyat sahəsində, kino və televiziyada və insanların düşüncəsinə təsir edən hər cür ictimai sektorda güclü və hakim vəziyyətdədir. Və cəmiyyətə "həyat bir döyüşdür, güclülər qazanar", "əgər sən əzməsən, başqaları səni əzər" kimi təlqinləri verənlər də bunlardır. Məhz cəmiyyətə istiqamət verən bu təbəqə, Darvinizmə kor-koranə inanır, özlərini Allah tərəfindən yaradılmış və Ona qarşı məsul olan qullar kimi deyil, meymunlardan təsadüfən törəmiş və tək məqsədi "qarşıdurma" olan inkişaf etmiş heyvanlar kimi görürlər. Necə ki, qəzetlərində, jurnallarında, ekranlarında bu Darvinist mesajı mütəmadi surətdə verirlər.

Halbuki bu insanların hamısı -sözügedən xəbərlərə vəsait olan kütlə də, bunların dünyagörüşünü meydana gətirən "seçilmişlər" də- böyük bir yanılma içindədirlər. İnsan Darvinizmin iddia etdiyi kimi təsadüflərlə ortaya çıxmış və tək məqsədi münaqişə etmək olan bir heyvan deyil. İnsanı Allah yaratmışdır və O da Onun öyrətdiyi əxlaqa görə yaşamaqla məsuldur. Və elm, Darvinist təbliğatın əksinə, Darvinizmi deyil, yaradılış həqiqətini təsdiqləyir. Quranda bildirildiyi kimi, **"O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, Qüdrətlidir, Müdrikdir”. (Həşr surəsi, 24)**

Allahın yaratdığını inkar edən faşist mədəniyyətin ortadan qalxması üçünsə, sözügedən Darvinist fəlsəfənin fikirlə çökdürülməsi və insanların bu yalandan xilas edilməsi vacibdir. Əhəmiyyətli olan, insanlara "mərhəmətsiz olun, qan tökün, öldürün, bu sizin instiktinizdir, onsuz da bir heyvansınız və öldükdə yox olacaqsınız" deyə pıçıldayan səsin susdurulmasıdır. Bu səs susdurulduğunda, bununla keyləşdirilmiş kütlələr də həqiqətləri görəcək və bu dünyada nə üçün yaşadıqlarını başa düşəcəklər.

# Nəticə

## Faşizmin müalicəsi Quran əxlaqıdır

İlk başdan açıq şəkildə görüldüyü kimi faşizm bəşəriyyətə böyük fəlakətlər gətirmiş bir ideologiyadır. Yalnız ötən əsrdə milyonlarla insanın irqlərinə görə öldürülməsinə, işgəncəyə məruz qalmasına və II Dünya müharibəsi kimi bir tragediyanın yaşanmasına səbəb olmaqla kifayətlənməmiş, ortaya çıxdığı hər yerdə "qorxaq bir cəmiyyət" meydana gətirərək bütün mənəvi dəyərləri yox etməyə çalışmışdır. İndiki vaxtda isə xüsusilə Orta Şərq, Latın Amerikası və Afrika ölkələrində yayılmış bir rejim olaraq, Qərb dünyasında isə getdikcə güclənən irqçi meyillərlə və neo-nasist təşkilatlarla qarşımıza çıxır. Adı tam mənasıyla qoyulmasa da əslində dünyanın bir çox ölkəsində pərdə arxasında hökm sürən rejim faşizmdir. Faşist mədəniyyət, bir tərəfdən də bir çox ölkədə "küçələrə" yayılır, şiddətdən və qan tökməkdən xoşlanan kobudluq tərəfdarı olan kütlələr meydana gətirir. Bu səbəblə də, bütün dünya "faşizmə qarşı bir mübarizə aparmalıdır".

Bu isə yalnız məhkəmə və detektiv üsullarla olmaz. Neo-Nasistləri təqib edərək, günahlarını tapıb həbsə ataraq bu ideologiya aradan qaldırıla bilməz. Əksinə daha da inkişaf edər və güclənər. Faşizmi məğlub etmək üçün, ilk növbədə faşizmin nə olduğunu başa düşmək lazımdır. Bu kitabda qeyd etdiyimiz kimi, faşizm əslində bir mədəniyyətdir. Bu mədəniyyətin təməlində, bütpərəstlik, Darvinist "qarşıdurma" anlayışı və Darvinist irqçilik vardır. Faşizmin ortadan qaldırılması üçün, əsasən bu xurafatların yox edilməsi zəruridir. Halbuki, sistem zidd istiqamətdə işləyir. Bu gün ölkələrindəki faşist qruplaşmalarla mübarizə aparan, onları təqib etmək, ələ keçirmək, həbs etmək, mühakimə etmək və cəzalandırmaq üçün milyonlarla dolları terrorla mübarizəyə ayıran **Qərbli dövlətlər, bu faşistləri əslində öz əlləriylə yetişdirirlər.** Çünki bu dövlətlər məktəblərində gənclərə Darvinist bir təhsil verirlər. Yəni həyatın qanlı bir meydan, bir döyüş meydanı olduğunu, yaşaya bilmək üçün mərhəmətsiz olmaq və daima dava lazım olduğunu gənclərə öyrədir. Üstəlik, insanların meymun bənzəri canlılardan törəmiş bir heyvan növü olduğunu və bu guya təkamül müddətində "üstün" və "aşağı" irqlər olduğunu təlqin edirlər. Bu təhsili almış bir insanın faşist olmaması üçün heç bir səbəb yoxdur. Və necə ki, bu səbəblə də faşizm -istər mütəşəkkil şəkildə, istərsə də mədəni şəkildə- sürətlə yayılır. Buna görə də faşist yetişdirən və sonra öz yetişdirdiyi faşistlərlə mübarizə aparmaq üçün səy göstərən xarici dövlətlər böyük bir ziddiyyət içindədirlər. Bu, zəhərli ilanları nəhəng fermalarda bəsləyib, sonra bunları insanların arasına atıb, ilanlar insanları öldürməyə başladıqda isə, "bunlar niyə

insanları öldürür?" deyərək, tək-tək ilanları yığıb mübarizə apardığını demək kimi bir ziddiyyətdir. Bir tərəfdən zəhərli ilan yetişdirib, bir tərəfdən də "yaxşı təqib və yaxşı bir tutma üsulu ilə bunları insanların arasından götürəcəyik" demək, bir axmaqlıqdır. **Həll, ilanların yetişdirildiyi fermanı məhv etməkdir.** Faşizmin ortadan qaldırılması üçün, bu ideologiyanın guya elmi əsası olan Darvinizm çürüdülməklə yanaşı, insanlara sevgi, şəfqət, mərhəmət, təvazökarlıq, tolerantlıq, ədalət kimi əsas əxlaqi anlayışlar öyrədilməli və aşılanmalıdır. Bu anlayışların qaynağı isə Qurandır. Faşizmin əsası olan bütpərəst əxlaq insanlara döyüşü, şiddəti, qan tökməyi, irqçiliyi təlqin etdiyi halda, Uca Rəbbimiz Allahın biz insanlar üçün müəyyənləşdirdiyi Quran əxlaqı, sülh və dinc bir dünyanın təməllərini qurur. Bu əxlaqla yetişdirilən bir cəmiyyət, nə faşizmə, nə də onun "qırmızı" versiyası olan kommunizmə güzəştə getməz. Türkiyə bu mövzuda yaxşı bir nümunədir. Faşist və kommunist ideologiyaları ölkəmizə ixrac etmək üçün edilən səylər daimi bir nəticə verməmiş və Türkiyə hər iki totalitar ideologiyadan uzaq qalmışdır. Bunun ən böyük səbəbi İslamın türk cəmiyyətinə qazandırmış olduğu əsas əxlaqi dəyərlərdir. Əslində Türkiyə, həm bu dəyərlərin nümayəndəsi, həm də Osmanlı imperatorluğunun varisi olaraq, əvvəlcə ətrafında sonra da bütün dünyada faşizmin qarşısını kəsəcək bir model meydana gətirə bilər. Faşist vəhşiliklə dolu olan bu ərazilərə bir vaxtlar Osmanlı imperiyasının etdiyi kimi sülh və dincliyi yenidən gətirmək, ancaq faşizmə deyil, dini dəyərlərə inanan, bu dəyərlərdən aldığı ilhamla siyasət yürüdən bir ölkə tərəfindən bacarıla bilər. Ümid edilir ki, bu reallaşacaq və Allahın **"...yer üzündə fitnə-fəsad törətməyi qadağan edən ağıl və hikmət sahibləri olaydı" (Hud surəsi, 116)** ayəsiylə işarə etdiyi liderlər, dünyadakı faşist təxribatçılığı 21-ci əsrdə yer üzündən siləcəklər.

# Qeydlər


1. http://www.ford-ham.edu/halsall/mod/ mussolini-fascism.html
2. Mark Bruzonsky, "Jabotinsky The Legend and Its Power", Israel Horizons, vol. 29, no. 2, March/April 1981, s. 19.
3. Karl R. Popper, The Open Society and Its Enemies, Vol I The Spell of Plato, London, Routledge & Kegan Paul, 1969, s. 51
4. Karl R. Popper, The Open Society and Its Enemies, Vol I The Spell of Plato, London, Routledge & Kegan Paul, 1969, s. 7
5. Michael Howard, The Occult Conspiracy: The Secret History of Mystics, Templars, Masons and Occult Societies, 1.b., London: Rider, 1989, s. 23
6. http://buglady.clc.uc.edu/biology/bio106/earlymod.htm
7. Ernst von Aster, İlkçağ ve Ortaçağ Felsefe Tarihi, s. 24-25
8. D. R. Oldroyd, Darwinian Impacts, Atlantic Highlands, N. J Humanities Press, 1983, s. 23, 32
9. Paul Crook, Darwinism, War and History: The Debate over the Biology of War from the `Origin of Species' to the First World War, Cambridge: Cambridge University Press, 1994, s. 6
10. Paul Crook, Darwinism, War and History: The Debate over the Biology of War from the `Origin of Species' to the First World War , s. 7-8
11. Paul Crook, Darwinism, War and History: The Debate over the Biology of War from the `Origin of Species' to the First World War, 1994, s. 14-15
12. H. F. Peters, Zarathustra's Sister: The case of Elisabeth and Frederich {sic} Nietzsche, Crown Publishers, New York, 1977, s. 119
13. Daniel C. Dennet, Darwin's Dangerous Idea, Touchstone Books, New York, 1996, s. 62
14. H. F. Peters, Zarathustra's Sister: The case of Elisabeth and Frederich {sic} Nietzsche, Crown Publishers, New York, 1977, s. 220
15. W. Cleon Skousen, The Naked Communist, Salt Lake City, Utah, Ensign Publishing Co., 1958, s. 348
16. Georg Lichtheim, Europe in the Twentieth Century, New York: Praeger Publishers, 1972, s. 152.
17. 7. H.F. Peters, Zarathustra's Sister The Case of Elisabeth and Friedrich Nietzsche, New York: Crow Publishers, 1977, 11
18. H.F. Peters, Zarathustra's Sister: The case of Elisabeth and Frederich {sic} Nietzsche, Crown Publishers, New York, 1977, s. 222

19. The Macmillan Encyclopedia 2001, D'Annunzio, Gabriele (1863-1938), Italian poet, novelist, and dramatist
20. H.F. Peters, Zarathustra's Sister: The case of Elisabeth and Frederich {sic} Nietzsche, Crown Publishers, New York, 1977, s. 212
21. H.F. Peters, Zarathustra's Sister: The case of Elisabeth and Frederich {sic} Nietzsche, Crown Publishers, New York, 1977, s. 184
22. Scott Lively, Kevin Abrams, The Pink Swastika, Founders Publishing Corp., Oregon, 1997, s. 69
23. Francis Galton, Memories of My life, AMS Press, s. 287.
24. Ian Taylor, In The Minds of Men, TFE Publishing, 1991, s. 404
25. Ernst Haeckel, The Wonders of Life, New York, Harper, 1904, s. 21
26. Ernst Haeckel, Wonders of Life, New York, Harper, 1904, pp. 118-119; cited in Daniel Gasman, Social Darwinism in Ernst Haeckel and the German Monist League, MacDonald, London and New York, 1971, p .95.
27. Daniel Gasman, The Scientific Origins of National Socialism: Social Darwinism in Ernest Haeckel and the German Monist League, American Elsevier Press, New York, 1971. ss. xvi-xvii
28. Ben Macintyre, Forgotten Fatherland: The Search for Elisabeth Nitsşe. New York, Farrar Straus Giroux, 1992, s. 28
29. Gene Edward Veith, Modern Fascism : Liquidating the Judeo-Christian Worldview, Concordia Publishing House; 1993,
30. Michael Howard, The Occult Conspiracy: The Secret History of Mystics, Templars, Masons and Occult Societies, 1.b., London: Rider, 1989, s. 130
31. Scott Lively, Kevin Abrams, The Pink Swastika, Founders Publishing Corp., Oregon, 1997, s. 19
32. Scott Lively, Kevin Abrams, The Pink Swastika, Founders Publishing Corp., Oregon, 1997, s. 70
33. Eric Hoffer, Kesin İnaçlılar, İm Yayınları, s. 6
34. Prof. Dr. Ayferi Göze, Siyasal Düşünceler ve Yönetimler, 9. Baskı, Beta Yayınları, s. 349
35. Yıldırım Batuk, Dr. Murat Sarıca, Rona Aybay, Faşizm, 2. Baskı, İstanbul,1965, s. 31
36. Prof. Dr. Ayferi Göze, Siyasal Düşünceler ve Yönetimler, s. 350
37. Çağdaş Liderler Ansiklopedisi , Cilt 4, s.1469)
38. Michael Baigent, Richard Leigh, Henry Lincoln, The Messianic Legacy, Corgi Books, 1991, s. 199
39. Eric Hoffer, Kesin İnaçlılar, İm Yayınları, s. 148
40. http://www.mideastnews.com/the1.htm
41. Wilhelm Reich , Faşizmin Kitle Ruhu Anlayışı, Çeviren: Bertan Onaran, Payel

Yayınları, İstanbul 1975, s. 400-401
42. Çetin Özek, Direnen Faşizm, İzlem Yayınları, s. 90
43. Adolf Hitler, Mein Kampf, s. 504.
44. Encyclopædia Judaica, Cilt 4, s. 714.
45. John P. Diggins, Mussolini and Fascism, s. 15
46. Charlie Hore, Duncan Hallas, Andy Durgan, İspanya 1936 Baharı , Z yayınları, çev: Melike Çakırer, s. 37
47. T. Kakınç, Franco Kimdir? Falanjizm Nedir?, Kitaş Yayınları, Mayıs 1969, s. 57
48. Charlie Hore, Duncan Hallas, Andy Durgan, İspanya 1936 Baharı , Z yayınları, çev: Melike Çakırer, s. 69
49. Çağdaş Liderler Ansiklopedisi, 2. Cilt, s. 669
50. Veyis Ersöz, Sosyalizm, Komünizm, Faşizm ve Şeriat Nedir?, Uysal Kitabevi, 4. Baskı, s. 96
51. Veyis Ersöz, Sosyalizm, Komünizm, Faşizm ve Şeriat Nedir?, Uysal Kitabevi, 4. Baskı, s. 100
52. Nokta Dergisi, 13 Mart 1988, s. 76-77
53. http://fcit.coedu.usf.edu/holocaust/arts/musDegen.htm
54. http://fcit.coedu.usf.edu/holocaust/arts/artReich.htm)
55. Maria A.Macciocchi, Faşizmin Analizi , Çeviren: Cemal Süreya, Payel Yayınları, İstanbul 2000, s.108
56. Maria A.Macciocchi, Faşizmin Analizi , s.126-127
57. Maria A.Macciocchi, Faşizmin Analizi , s. 126
58. Maria A.Macciocchi, Faşizmin Analizi , s. 128-129
59. Maria A.Macciocchi, Faşizmin Analizi , s. 132-133
60. Maria A.Macciocchi, Faşizmin Analizi , s.134
61. Maria A.Macciocchi, Faşizmin Analizi , s. 163
62. John R. Durant, ''The Ascent of Nature in Darwin's Descent of Man'' in The Darwinian Heritage, Ed. By David Kohn, Princeton, NJ: Princeton University Press, 1985, s.295
63. Charles Darwin, The Origin of Species by Means of Natural Selection , New York: D. Appleton and Company, 1859 (1897 baskısı), s.108
64. Charles Darwin, The Descent of Man and Selection in Relation to Sex, New York: D. Appleton and Company, 1896, s.563-564
65. Stephanie A. Shields, ''Functionalism, Darwinism, and the Psychology of Women; A Study in Social Myth.'' American Psychologist 30, no.1 (1975): 742
66. Charles Darwin, Seksüel Seçme, Onur yayınları, Nisan 1977, Birinci Baskı, Çeviren: Öner Ünalan, s. 465
67. Charles Darwin, The Autobiography of Charles Darwin 1809-1882 (Ed. by Nora Barlow), New York: W. W. Norton & Company, Inc., 1958, s. 232-233

68. Rosaleen Love, "Darwinism and Feminism: The 'Women Quesfion' in the Life and Work of Olive Schreinr and Charlotte Perkins Gilman" in David Oldroyd and Ian Langham (Eds.), The Wider Domain of Evolutionary Thought (Holland: D. Reidel, 1983), 113-131.
69. Elaine Morgan, The Descent of Woman, New York: Stein and Day, 1972, s.1
70. Stephen Jay Gould, The Mismeasure of Man, New York: W. W. Norton & Company, 1981,s.104,105
71. Eva Cantarella, Bisexuality in the Ancient World, New Haven, Yale University Press, 1992, s. 72
72. Benedict Friedlander, "Memoirs for the Friends and Contributors of the Scientific Humanitarian Committee in the Name of the Succession of the Scientific Humanitarian Committee", Journal of Homosexuality, January-February 1991, s. 259.
73. Scott Lively, Kevin Abrams, The Pink Swastika, Founders Publishing Corp., Oregon, 1997, s. 22.
74. Scott Lively , Kevin Abrams,The Pink Swastika, Founders Publishing Corp., Oregon, 1997
75. Wilhelm Reich, The Mass Psychology of Fascism, Farrar, Straus and Giroux, New York, 2000, s. 75
76. Ali Bulaç, Çağdaş Kavramlar ve Düzenler, Endülüs Yayınları, 12. Basım, s. 141-142
77. James Joll, Europe Since 1870: An International History, Penguin Books, Middlesex, 1990, s. 102-103)
78. http://emporium.turnpike.net/C/cs/hssodar.htm, Evolution and Social Darwinism
79. www.trueorigin.org/holocaust.ht
80. Peter Chrisp, The Rise of Fascism, Witness History Series , s.6
81. Hickman, R., Biocreation, Science Press, Worthington, OH, pp. 51-52, 1983; Jerry Bergman, "Darwinism and the Nazi Race Holocaust", Creation Ex Nihilo Technical Journal 13 (2): 101-111, 1999
82. Wilhelm Reich, The Mass Psychology of Fascism, Farrar, Straus and Giroux, New York, 2000, s. 75
83. Wilhelm Reich, The Mass Psychology of Fascism, Farrar, Straus and Giroux, New York, 2000, s. 76
84. Carl Cohen (ed). Communism, Fascism and Democracy. Random House Publishing, New York, 1967. s. 408-409.
85. Prof. Dr. Ayferi Göze, Siyasal Düşünceler ve Yönetimler, 9. Baskı, Beta Yayınları, s. 349
86. Prof. Dr. Ayferi Göze, Siyasal Düşünceler ve Yönetimler, 9. Baskı, Beta Yayınları, s. 349
87. Murat Çulcu, Neonazizm'in Suçüstü Tutanakları, Kastaş Yayınları, Eylül 2000, s.

152
88. Philip Reilly, "A Look Back at Eugenics", Gene Letter, Cilt 1, Sayı 3, Kasım 1996
89. Jerry Bergman, Darwinism and the Nazi Race Holocaust, http://www.trueorigin.org/holocaust.htm
90. Murat Çulcu, Neonazizm'in Suçüstü Tutanakları, Kastaş Yayınları, Eylül 2000, s. s. 334
91. Douglas Lynott "Josef Mengele: The Angel of Death", The Crime Library (http://www.crimelibrary.com/mengele/main.htm)
92. http://emporium.turnpike.net/C/cs/hssodar.htm
93. Dünya Savaşları Ansiklopedisi, 8. Cilt, Birinci Dünya Savaşı, Türk Diyanet Vakfı İslam Araştırmaları Merkezi, s. 777
94. Dünya Savaşları Ansiklopedisi, 8. Cilt, Birinci Dünya Savaşı, Türk Diyanet Vakfı İslam Araştırmaları Merkezi, s. 777
95. Robert E. D. Clark. Darwin: Before and After. Paternoster Press, London, 1948. s. 115
96. Jerry Bergman, "Darwinism and the Nazi Race Holocaust", Creation Ex Nihilo Technical Journal 13 (2): 101-111, 1999
97. DanielGasmann, The Scientific Origins of National Socialism: Social Darwinism in Ernst Haeckel and the German Monist League, New York: American Elsevier, 1971, s.208
98. Adolf Hitler, Hitler's Secret Conversations 1941-1944, With an introductory essay on The Mind of Adolf Hitler by H.R. Trevor-Roper, Farrar, Straus and Young, New York, s. 117
99. Çağdaş Liderler Ansiklopedisi, Cilt 3, s. 876
100. Gottfried Feder, Das Programm der NSDAP und seine weltanschaulichen Grundlagen, s. 49; Wilhelm Reich, The Mass Psychology of Fascism, Farrar, Straus and Giroux, New York, 2000, s.117
101. Adolf Hitler, Kavgam , Kağan Kitapevi, I. Kitap, 3. Baskı, s. 107
102. Adolf Hitler, Kavgam , Kağan Kitapevi, I. Kitap, 3. Baskı, s. 80
103. Adolf Hitler, Kavgam , Kağan Kitapevi, I. Kitap, 3. Baskı, s. 100
104. Murat Çulcu, Neonazizm'in Suçüstü Tutanakları, Kastaş Yayınları, Eylül 2000, s. 221
105. Thema Larousse, cilt 1, Milliyet Yayınları, s. 341
106. Çağdaş Liderler Ansiklopedisi, Cilt 3, s.876
107. Murat Çulcu, Neonazizm'in Suçüstü Tutanakları, Kastaş Yayınları, Eylül 2000, s.120-121
108. Scott Lively, Kevin Abrams, The Pink Swastika, Founders Publishing Corp., Oregon, 1997, s. önsöz, viii)
109. Dennis Mack Smith, Mussolini , Paladin Grafton Books, London, 1987, s. 2

110. Dennis Mack Smith, Mussolini, s. 8
111. Dennis Mack Smith, Mussolini, s. 8
112. Dennis Mack Smith, Mussolini, s. 8
113. Dennis Mack Smith, Mussolini, s. 9
114. Dennis Mack Smith, Mussolini, s.11
115. Dennis Mack Smith, Mussolini, s.12
116. Dennis Mack Smith, Mussolini, s.13
117. Dennis Mack Smith, Mussolini, s.15
118. Dennis Mack Smith, Mussolini, s.18
119. Dennis Mack Smith, Mussolini, s.17
120. Çağdaş Liderler Ansiklopedisi , Cilt 4 , s. 1467
121. Ali Bulaç, Çağdaş Kavramlar ve Düzenler , s. 151
122. Çağdaş Liderler Ansiklopedisi , Cilt 4, s.1469
123. Çağdaş Liderler Ansiklopedisi, cilt 4, s.1474
124. T. Kakınç, Franco Kimdir? Falanjizm Nedir? , s. 70-71-72-73)
125. Charlie Hore, Duncan Hallas, Andy Durgan, İspanya 1936 Baharı , Z yayınları, çev: Melike Çakırer, s. 26
126. T. Kakınç, Franco Kimdir? Falanjizm Nedir? , s. 172-173
127. William Blum, The CIA; A Forgotten History: US Global Interventions Since World War II, 4.b., London: Zed Books, 1991, s. 264.
128. William Blum, The CIA; A Forgotten History, s. 269.
129. Newsweek, 9 Nisan 1990, 1 Numaralı Halk Düşmanı, s.8
130. http://www.iraqfoundation.org/hr/2000/
intlorgs/august/31_amnesty.html
131. Ramazan Öztürk, Sessiz Tanık, Sabah Yayıncılık A.Ş., İstanbul 1996, s.124
132. Hürriyet Gazetesi, 21 Ocak 1999
133. Ray Wilkinson, "Irak'ın Kara Şövalyesi", Newsweek, 9 Nisan 1990, s.10-11
134. http://www.adl.org/publications/sum_skinhead_inter.html
135. Libération 21 Nisan 1995 Perşembe; Türkiye Günlüğü, 59/Ocak-Şubat 2000, s. 54
136. Ilya Ehrenburg, Faşizm Sonrası Avrupa , Selkan Yayınları, s. 20
137. "General Principles", National Alliance (http://www.natall.com/index.html)
138. http://www.natall.com/index.html
139. http://www.natall.com/index.html
140. "Two Lessons in Racial Survival", National Vanguard Magazine, Number 117 (March-April 1997)
141. Gene Edward Veith, Modern Fascism : Liquidating the Judeo-Christian Worldview, Concordia Publishing House; 1993, s. 12

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

**Darvini məhv edən çətinliklər**

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun

dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik

təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda,

təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması**

**ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-

materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək

qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) “Siz atın”, - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: “Əsanı tulla!” - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə

dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Faşizm 20-ci əsrdə qanlı döyüşlərə və qırğınlara səbəb oldu. Yalnız kobud qüvvəyə inanan, irqlər və millətlər arasında daimi bir "həyat mübarizəsi" olduğunu düşünən və qan tökməyin guya müqəddəs bir vəzifə olduğuna inanan faşistlər, on milyonlarla insan öldürdülər.

Bu vəhşilik ideologiyasının əsasında isə, insanı bir "heyvan növü" kimi təsvir edən və "qarşıdurma bir təbiət qanunudur" deyən bir qanun vardı: Bu Darvinin təkamül nəzəriyyəsiydi. Bu nəzəriyyənin sosial elmlərə tətbiq edilməsi nəticəsində ortaya çıxan "Sosial Darvinizm", Hitler və Mussolini kimi faşist diktatorların, Alman və İtalyan faşizminin əsas fikri dayağı oldu.

Bu kitabda, faşist ideologiyanın arxasındakı bu Darvinist təməl ortaya çıxarılır. Həmçinin, faşizmin qədim dövrlərdəki bütpərəst cəmiyyətlərdən miras qalan bir vəhşilik mədəniyyətinin davamı olduğu, ilahi dinlərə zidd və qarşı bir fəlsəfəyə əsaslandığı izah olunur.

Kitabı oxuduqda, 20-ci əsrdə bəşəriyyəti fəlakətlərə sürüyən faşist ideologiyanın mənşəyini, xüsusiyyətlərini, üsullarını görəcəksiniz. Üstəlik, hələ də dünyanı təhdid etməyə davam edən, bir çox ölkədə qan tökən və tökməyə hazırlaşan faşizmin qarşısınının necə alınacağını, dünyanın bu vəhşilik ideologiyasından necə xilas olacağını öyrənəcəksiniz.